Ayrı bir diləyim yoxdu.
Görünür qəlbinə layiq
Sevdalı ürəyim yoxdu…

Bəlkə qırxıncı otaqdan
Baş götürüb qaçacaqsan?
Eşqinə layiq olana
Ürəyini açacaqsan?!

Üç günlükdü, beş günlükdü
Sevməyənin sədaqəti.
Zor ilə qorumaq olmaz
Öləziyən məhəbbəti…

**06.03.2009**

***

Əbəs yerə qısqanırsan,
Mən hər quşa dən deyiləm.
Bəlkə də dərk etmisən ki,
Axtardığın mən deyiləm?!

**06.03.2009**

***

Sənin "keçilərin"
heç zaman məni
rahat qoymayıb,
Sənin "keçilərin"
sevgi gülşənimdə
sağ istahat
qoymayıb…

**07.03.2009**

***

Mənə
ötən sevgilərə
qənim olan
sevgili lazımdı;
Mənə
təpədən dırnağacan
mənim olan
sevgili lazımdı…

Sən ötən sevgilərə
qənim ola bilirsən,
ancaq təpədən dırnağa
mənim ola bilmirsən…

**07.03.2009**

***

Həyatdan zövq al,
kefindən qalma! –
Nə uğrunda qocalmaq,
qarımaq istəyirsən? –
Ya özünü kiminçünsə
qoruyursan,
ya məni əzablardan,
iztirablardan
qorumaq istəyirsən…

**07.03.2009**

***

Başında hansı sevgininsə
yaz havası qalıb,
tez-tez kirpiklərində
yaş tumurcuqlayır
puçur-puçur…
Əllərin əlimdə olanda belə
xəyalların harasa
uçur, uçur…
"Ötən sevgi ilə alışan ürəyimi
soyudacağam!" – deyirsən.
Məni öz dünyamla
baş-başa qoyun,
onsuz da əvvəl-axır
yanınıza qayıdacağam! – deyirsən…

Könlü kimisə arayan kəsə
Könül bağlaya bilərəmmi?
Başqasının nəfəsi dəyən çiçəyi
Təzədən öpüb-qoxlaya bilərəmmi?

**07.03.2009**

## YARALI QUŞCIĞAZ

"Məni sərbəst buraxın, öz dünyama gedim.
Onsuz da sonra yanınıza qayıdacağam!"

**Bir məktubdan**

Yaralı quşcığaz!
Tale yelləri səni
mənə ürcah eləyib
qova-qova…
Hara uçub getsən belə
tapa bilməyəcəksən
ürəyimdən isti bir yuva…
Yaraların sağalıb deyə
qanadlanıb
uçmaq istəyirsən.
Yolunu gözləyən
əngin səmaları
qucmaq istəyirsən…
Bilirsən nə gəlir ağlıma:
Daldaya qısılıb ağlama,
Uçub yenidən qayıtmağa
o qədər də bel bağlama…
Görmürsənmi şaxtalı havanı?
Sən qayıdınca boş qoyarlarmı
elə isti yuvanı?

**07.03.2009**

***

Yenə də qu desən,
qulaq tutulur içimdə…
Hər şeyi
təzədən başlamağa
vaxtım da yoxdu,
gücüm də…

**07.03.2009**

## ELƏ BİLİRSƏN Kİ…

Bəlkə də elə bilirsən ki,
yolunun üstünə
məndən daha duyumlu,
məndən daha sevimli
insan çıxacaq. –
Əngin, lacivərd səmaları
qucur xəyalın…
Bəlkə də elə bilirsən ki,
bu əllər həmişə
əlində olacaq,
bu gözlər həmişə
gözlərinə baxacaq; –
ona görə də o əli,
o gözləri unudub
harasa uçur xəyalın…
Bir gün ayılacaqsan ki,
məni uzaqlara aparıb
ömür köçüm;
Bir gün ayılacaqsan ki,
Ömür keçib…
O gün
həsrət burulğanına
düşəcək için.

Ağlayacaqsan
dərdli-dərdli,
için-için…
Ürəyin göyüm-göyüm
göynəyəcək
o əlləri bir də tutmaq,
o gözlərə bir də
baxmaq üçün…

**08.03.2009**

***

Mən bu sevgi dastanımı
belə tez bitirmək
istəmirəm.
Mən mənə məxsus olanın
dəyərini bildiyimdən
onu itirmək
istəmirəm…
Sən bunun
nə demək olduğunu
dərk eləyə bilməzsən; –
Həmişə sevgi dolu gözlərinə
son dəfə baxırmış kimi
baxıram…
Sən hərdən
tək qalmaq istədiyini
söyləyirsən,
mən isə tənhalıqdan
qorxuram…

**08.03.2009**

***

Məndən sonra
şeirlərimi oxuyub əzizləsən,
onlar ürəyinə nur ələyəcək…
Kiməsə xoş getsin deyə
əlyazmalarımı yandırsan,
tüstüsü o dünyada məni
kor eləyəcək…

**08.03.2009**

***

Sən söz vermisən ki,
Məni xoşbəxtliyin zirvəsinə
qaldıracaqsan;
Sən söz vermisən ki,
Mənə sevginin
bütün sevinclərini
daddıracaqsan…
Ancaq hələ ki
içimdə sevgi sevincləri az,
sevgi əzabları boldur.
Qəlbimdəki dərin boşluğu
öz ilahi sevginlə doldur…

**08.03.2009**

***

Elə bilmə ki,
qəlbimi incitməmək üçün
mənə yalan danışsan,
razı qalacam səndən…
Mən öz nifrətimlə yox,
öz sevgimlə
dəhşətli intiqam
alacam səndən…

**08.03.2009**

***

Sən öz soyuqluğunla
mənə çox mətləbi
qandırmısan. –
Bilmirəm nələr, nələr var
yaralı könlündə?
Köhnə nömrənin işıqlarını
yenə mayak kimi
yandırmısan
sənə doğru üzən
sevgi gəmisinin önündə…
Taleyim
dünyanın bütün qəmini
üstümə əndərib.
Kiminsə yoluna
nur saçan o mayak
Mənim içimi
zülmətə döndərib…

**08.03.2009**

## GÖYDƏN ÜÇ ALMA DÜŞDÜ

Ürəyim çilik-çilik,
Ürəyim para-para…
Eşqin qarlı yolları
Məni gətirdi hara?!

Bu sevginin gücünə
Yamanca inanırdım.
Özümü bu dünyanın
Bəxtəvəri sanırdım.

Min arzuyla gedirdi
Könlüm üzü bahara. –
Bir gecəyə qar düşdü
Güvəndiyim dağlara…

Heç özüm də bilmirəm
Necə unudum onu? –
Göydən üç alma düşdü, –
Bu da nağılın sonu…

**08.03.2009**

## PƏRDƏ

Aramıza çəkdiyin
qara pərdə
Mənim ürəyimi
salıb dərdə…
Gözlərin yol çəkir,
Baxışların üzür
qəm dənizində.
Kim bilir nələr var
pərdənin o üzündə?!

**09.03.2009**

***

Gözlərinin
işığı da azalıb,
gecələr səhərə kimi
kirpiklərinlə
qor götürməkdən…
Ana balasını itirməkdən
qorxduğu kimi qorxursan
məni itirməkdən…

Gözlərindəki sevgini,
həsrəti görən
özgə gözlərə baxarmı?
Nəyə sahib
olduğunu bilməyən
onu itirməkdən
qorxarmı?

**10.03.2009**

## SƏN SOYUQ OLANDA

Sən soyuq olanda
aramıza həsrət qışı düşür…
Sən soyuq olanda
sevgi üzüyümün qaşı düşür…
Sən soyuq olanda
tükənir yaşamaq həvəsim.
Sən soyuq olanda
elə bil havam çatmır,
kəsilir nəfəsim.
Sən soyuq olanda
aramızda ucalır
hicran hasarı.
Yaraladığın ürəyi
sonradan ha sarı!
Sən soyuq olanda
Dünyanın üzünü su alır.
Sən soyuq olanda
mənə rahatlıq vermir
"Sevgi varmı?" sualı.

**18.03.2009**

***

Hər şeyi o saat duyur,
Ürək zərif, ürək incə…
Məndən küsmə,
bəxtindən küs
Deyiləmsə ürəyincə…

**17.03.2009**

***

Heç nə vəd etmirsə
Sənə bu sevgi,
Gərək yavaş-yavaş
Sönə bu sevgi…

**16.01.2009**

***

İnsanlar vəfasızdı,
Sev çiçəyi, sev gülü!
Olsun həyatın boyu
Sənə sadiq sevgili…

***

Dünən olsun,
bu gün olsun,
yarın olsun,
Təki səni
sevən, duyan
yarın olsun!

***

İnsaf elə, a gül yanaq,
Nə qədər oduna yanaq?

***

Əgər hesab edirsənsə
Mən bitmişəm, tükənmişəm,
Niyə eşq elan edirdin
Sən bitmişə, tükənmişə?

***

Yolları bağlamaq olmaz,
Gedəni saxlamaq olmaz.
Səni sevməyən insanın
Ardınca ağlamaq olmaz…

***

Sən həmişə dincliyimə,
rahatlığıma
qənim olacaqsan.
Özgə köksünə
baş qoysan belə,
mənim olacaqsan…

***

Sevdalı qəlb,
Olarmı qəlp?

***

Əgər atsan itə ət,
Edər sənə itaət…

***

Bütün laqeydlərə yadam –
Onlara ya saray, ya dam…

***

Qorxuram ki, düşəm çənə, çiskinə,
Gedənə düz istiqamət gərəkdi…
Ürəyimi hicran qoyub pis günə,
Mənim üçün isti qamət gərəkdi…

## TƏNHA QADININ HARAYI

Bədbəxtmi bir küncdə tənha ağlayan? –
Mənim səadətim əridi, itdi…
Sən idin dünyaya məni bağlayan,
Sən getdin, dünyanın ləzzəti getdi…

Neçə ki mən varam, ölməyəcəksən,
Qovacam üstündən dumanı, çəni…
Bilsəm də qayıdıb gəlməyəcəksən,
Gözlərim hər yerdə axtarır səni…

Köksümdə nə qədər ağrısın ürək? –
Başıma qoymusan qəm çələngini…
Sən getdin, sırsıra bağlayıb ürək,
Sən yoxsan, dəyişib dünya rəngini…

Tək özün getsəydin nə vardı axı? –
Apardın dünyanın şirin dadını.
Həsrətin sel olub gözümdən axır,
Çətin ki duyalar tənha qadını…

Köksümdə qəm yükü daşıyıram mən,
Ağladım qəlbimi boşaltmaq üçün…
İndi bu dünyada yaşayıram mən
Sənin xatirəni yaşatmaq üçün…

**19.12.2008**

# EPİTAFİYA

**Xatirə xanımın**
**baş daşı üçün**

Heç nəyə uya bilmədim,
Həyatdan doya bilmədim.
Uşaqlardan arxayınam,
Səni tək qoya bilmədim…

**2008**

***

**Xəyalə xanıma gələcək**
**sevgilisinin dilindən**

Əgər çiçəkləməsəm,
Çətin ki, barım olsun.
Xəyalıma gəlməzdi
Xəyalə yarım olsun…

Könlüm bu gözəl qızın
Qadasını al, – deyir.
Xəyaləyə məhəbbət
Realdı, xəyal deyil…

Qəlbimə sevgi düşüb –
Dünya necə gözəldi!
Təbəssümü içimdə
Sönən közü közərdir…

Könlüm olsa əlində
Sevgi dolu piyalə,
Onu daşlara çalıb,
Qırmazsan ki, Xəyalə?!

## AYRILIĞI İLLƏR SALIB

Can atsam da günəşə mən,
Elə bilmə möhtəşəməm.
Sən qönçəsən, mən həşəməm,
Qəlbimdəki güllər solub.

Ah çəkmək gəlir arıma,
Əzizim, məni arama!
Səninlə mənim arama
Ayrılığı illər salıb.

Qorxma fələyin işindən,
Gül dər dağların döşündən.
Məcnun tək eşqə düşəndən
Pənahımız çöllər olub.

Baş açmıram sözlərindən,
Sanki gəlir söz dərindən.
Müjdəm – həsrət gözlərindən
Axan dəli sellər olub…

***

Ürəyin göynəmir həsrət közünə,
İçimdəki ağrıları duymursan.
Mən qəlbimin qırxıncı qapılarını
taybatay açmışam üzünə. –
Sən məni
otuz doqquzuncu qapıya da
yaxın qoymursan…

**29.03.2009**

***

Kiməsə uyub getmək olar,
Aləmi qatıb getmək olar.
Hər şeyi qoyub getmək olar,
Hər şeyi atıb getmək olar, –
Dərdi necə qoyub gedim,
Dərdi necə atıb gedim? –
Məni yoldan saxlamayın,
Daha vaxtım çatıb, gedim…
Sözüm tikan, oxdu mənim,
Ağrılarım çoxdu mənim.
Dərdim, dur baş alıb gedək,
Səndən doğmam yoxdu mənim…

**29.03.2009**

***

Mən sevgimdə də,
nifrətimdə də nadirəm,
İçimdəki böyük sevgini belə
öldürməyə qadirəm…

**31.03.2009**

***

Mən elə bilirdim ki,
sevgi günəşim əridib,
İçimdəki qarı aparır.
Ancaq duyuram ki,
zamanın selləri
əlimdən alıb
yarı aparır.
Sənin soyuqluğun,
içindəki gizli dünya
Bizi "salam"dan
"sağ ol"a sarı aparır…

***

Havada tutmusan
gəlinin atdığı gülü;
İçin gülür, gülür…
Ürəyin istəyən varsa,
Kimə görəsə, nəyə görəsə
evdə oturub,
qarımaq olmaz.
Onsuz da məhəbbəti
hədə-hərbə ilə
qorumaq olmaz…

***

Mənim üzümə bağlanan
gizli bir dünya var
sənin içində.
Bunu vaxtında
etiraf etmək
yaxşı olmazdımı
mənim üçün də,
sənin üçün də?!…

**31.03.2009**

***

Üzünü üzüm bilirəm,
Gözünü gözüm bilirəm.
Biz qaynayıb-qarışmışıq,
Mən səni özüm bilirəm…

Ömür karvanı yoldadır,
Biz üzü qışa gedirik…
Bu dünya şəkər, bal dadır,
Çox şükür, qoşa gedirik!

**2009**

# “Könül səltənəti” kitabından

## AYILMAQ VAXTI

***

Ağlayıb-gülürəmsə,
xoşbəxtəm, Allahım!
Kiminsə xoşuna gəlirəmsə,
xoşbəxtəm, Allahım!
Sənin yaratdıqlarını
sevə bilirəmsə,
xoşbəxtəm, Allahım!

**2010**

***

Ağaclar, budaqlar,
otlar, böcəklər – möcüzə!
Yaxınlar, uzaqlar,
güllər, çiçəklər – möcüzə!
Yel əsəndə
dənizlər, göllər
cilvələnib danışır.
Gündüzlər
günəş nur saçır,
Gecələr
ulduzlar sayrışır.
Göylər
şimşək qayçısıyla
buludları biçir.

Ürəyimdən quş olub
göylərə uçmaq
arzusu keçir…
Dünyanın gözəlliyi
gözlərimin qarasına
çökür.
Buludlar
yağış fırçasını
uzadıb,
çəmənlərdə
sehrli tablolar çəkir…
Ulu Yaradan özü
köməyim olsun,
Ulu Yaradan özü
yetsin dadıma!
Sevinirəm ki,
quş deyiləm,
böcək deyiləm,
adamam…
Güllərin, çiçəklərin
rənginə vurulmuşam,
Çayların, şəlalələrin
ahənginə vurulmuşam…
Gözəlliyi duymayan
gərək bu dünyanı
tərk eləsin!
Allah insanı
ona görə yaradıb ki,
Dünyanın gözəlliyini,
Yaradanın böyüklüyünü
dərk eləsin!...

**14.07.2010**

***

Özümüz deyilikmi
özümüzə vuran
bu dağı? –
İnsan da kəsərmi
özünün oturduğu
budağı?!
Bizə Tanrının
xəbərdarlığı deyilmi
qışın oğlan çağında
əriyən buzlaqlar?
Yayın cırhacırında
Çiliyə,
Fransaya,
Afrikaya
yağan qar? –
Özünüzü yığışdırın, insanlar!
Yoxsa yer üzündən
didərgin düşəcək bahar!
Səhvimiz bizə
baha başa gələcək,
baha!
Ayılmaq vaxtı
deyilmi daha?!

**13.08.2011**

***

Məcrasından
çıxan çaylar
əvvəl-axır
öz axarına qayıdır.

Ömürdən gedən
illər, aylar
adamda qəribə
duyğular oyadır...
İllər arzuları dəniz eləyir,
İllər bir-birini əvəz eləyir…
İlləri nə yelə vermək,
nə də ömrün boyu
özünlə daşımaq olur.
On yaşı tək bircə dəfə,
İyirmi yaşı tək bircə dəfə,
otuz yaşı … tək bircə dəfə
yaşamaq olur.
Heç nə, heç nə geri dönmür,
Həyat öz axarındadı.
Kimi ömrünün əvvəlində,
Kimi ömrünün axırındadı…

**10.04.2010**

## TƏNHA ADA

Arzularım deyil
eyni boyda,
eyni biçimdə.
Hələ ki
tükənməyib
gücüm də.
Bəs niyə
sükuta qərq olub
çölüm də,
içim də?
Bəs niyə
qu desən

qulaq tutulur
içimdə?
Elə bil
sahibi köçüb getmiş
köhnə odayam,
Elə bil
dalğaların qoynunda
tənha adayam…

**30.04.2011**

## BEŞ YÜZ İLİN ƏN QARANLIQ GECƏSI

Deyirlər bu gecə
beş əsrin ən uzun
gecəsi olacaq;
çiçəklərin şehli bəbəklərinə
beş əsrin
zülməti dolacaq.
Qəlbində
sevgi nuru olmayanlar
bu gecənin zülmətində
boğulmağa məhkumdu. –
Xirtdəyə çıxacaq
küçədə, yolda su…
Özgə gecələrə
bənzəməyəcək
bu ilin ən qaranlıq,
ən uzun şəbi - yeldası…
Ömrüm boyu
çar-naçar yola salmışam

vəfasızların neçəsini.
Tənhalığım bir az da
tündləşdirəcək
beş əsrin
ən qaranlıq gecəsini…

**21.12. 2010**

## NAXÇIVAN

İllərin həsrətini
arxada qoyub,
gəlmişəm
Naxçıvanın görüşünə.
Burada hava da,
su da duzludu;
Elə bil duz hopub
adamların sözünə,
gülüşünə…
Parıltısı dünyanın
hər yerindən görünən
yanar bir ulduzdu Naxçıvan.
Düşmənlərin sağalmaz
yarasına səpilən
duzdu Naxçıvan…
Sıralanmış dağları
elə bil basılmaz ordudu.
Bu torpaq Əcəmi, Cavid,
Mirzə Cəlil,
Ordubadi yurdudu…
Günəş şəfəqlərini
Arazda yuyub,
Əshabü-Kəfdə
qurudanda,

Dünya nura bürünür.
Sularında həsrət axan Araz –
çayların ən dərini…
Xalq dar ayaqda
köməyə çağırdı
öz öndərini!
Azərbaycan Naxçıvandan
daha böyük,
daha bütöv görünür…

**25.06.2011**
**Naxçıvan**

***

Meşəyə heyrətlə baxıram, –
Meyvə ağacları kimi
çiçəkləyib içim də…
Bəbəklərim
bahar buludlarına
bənzəyir, –
Bir leysan uyuyur
içimdə…
Ürəyim səksəkədə,
gözlərim isə
uzaqlara baxır…
Meşəyə bahar,
qəlbimə isə
həsrət yağışları
yağır…

**10.05.2009**
**Qusar, Qayabulaq**

# GÜL BAYRAMI

Həmişə gözəlləşdirib,
rövnəqləndirib
gül bayramı.
Bu gün isə
gül bayramıdı,
gül bayramı…
Çaşıb qalmışıq hamımız
Bu çiçəkli çöllərə
nə bağışlayaq?
Bayramı olana
gül verirlər,
Bəs güllərə
nə bağışlayaq?!

**10.05.2009**
**Qusar, Qayabulaq**

***

Gülləri tərifləyəndə
mənim sözlərimə
hamı güldü. –
Dedim ki,
çiçəyin meyvəsi olur,
gülün meyvəsi isə
elə güldü…

**10.05.2009**
**Qusar, Qayabulaq**

***

Gör nə qədər tər çiçək var –
Yaraşıqdı gül bayrama.
Ürəyin qan ağlayırsa,
Acı-acı gül bayrama!

**12.05.2011**

***

Yağış yağır,
Pətəkdən çıxa bilməyən
arıların içinə
zülmət çökür…
Çiçəklərin nəmli gözləri isə
dikilib uzaqlara – yol çəkir…

**10.05.2009**
**Qusar**

## LALƏ DƏNİZİ

Elə bil rəng almışdı
lalədən gözüm.
Necə dönəydi axı
lalədən üzüm?
Maşını saxladım ki,
lalədən üzüm…
Məni qoynuna aldı
yel əsdikcə cilvələnən
lalə dənizi…

**11.05.2009**
**Siyəzən**

## BU GÜNÜN DƏNİZİ

Səhər şəfəqləri könül açsa da,
Qəlbim ağrılardan oyuq-oyuqdu.
Bu günün günəşi şəfəq saçsa da,
Bu günün dənizi buz tək soyuqdu…

Bu günün nisgili nə qədər həzin, –
Qələm bu ağrıdan bəhs edə bilmir.
Bu günün günəşi hələ dənizin
Soyuq qamətini isidə bilmir…

Fırtına qopacaq elə bil bu an,
Köksümdə qəribə bir oyun olub.
Bu günün dənizi içimə hopan
Qüssə sazağıyla qol-boyun olub…

Aranı qapqara buludlar kəsib,
Hava tutulduqca ürək sıxılır…
Bu günün dənizi elə bil küsüb,
Bu günün günəşi yanıb-yaxılır…

**01.05.2009**

***

Ürəyimi tərk eləmir
Qəfil bir səfər istəyi.
Bu dünyada darıxırıq –
Hamımız səfər üstdəyik…

**08.10.2009**

**ABŞERON KÜLƏKLƏRİ**

Gilavar –
Cənubun Xəzəri soyudan
odudu.
Xəzri –
Abşeronun kislarodudu…

**2011**

***

Durub Araz sahilində
Hey baxıram yana-yana.
Kölgəm məndən qeyrətlidi,
Sərhəddən keçib o yana…

**2012**

***

"Şair iki ildi ki, bir şey yaza bilmir" deyən, karxanasından daş tükənən dəniz dostum **Əjdərə**

Məni tənha qoymursa
Dərdə bələnən sevgi, –
Qəlbimi tərk edərmi
Yazıb-yaratmaq şövqü?

Ürəyimin başında
Yurd həsrəti ağlayır.
Mənim ilham bulağım
Gecə-gündüz çağlayır.

Köhlənimi çapıram,
Hələ su var canımda.
Sevdalı ilham pərim
Əskik olmur yanımdan.

Çaxır eşqin şimşəyi! –
Elə bilmə qorxanam.
Şükür, quma çıxmayıb
Mənim şeir karxanam…

**11.10.2009**

## VAR

Yaxşı ki, duyumlu insanlar çoxdu,
Sözün xiridarı, şeirin acı var.
Ömür yollarında tufan, qasırğa,
Ömür yollarında ağrı-acı var.

Günəş bərq vuranda güllər oyanır,
Sevəndə kainat nura boyanır.
Kimin ki, köksündən sevgi boylanır,
Başında elə bil qızıl tacı var…

Dərd tüğyan edəndə güc ver qələmə,
Qəlbin bələnməsin dərdə, ələmə.
Göz yaşı axıdıb ah-uf eləmə,
Dünyada hər dərdin bir əlacı var.

Könlümdən keçəni desəm yeridir,
Dövran öz hökmünü gec-tez yeridir.
O özü dünyanı yerbəyer edir, –
Hər şeyin zamana ehtiyacı var…

**12.08.2009**

**ALTMIŞ YAŞIM**

Şükür sənə, ulu Tanrım,
Məni yetirdin altmışa.
Hey uçuram gələcəyə
Dönüb bir qanadlı quşa.

Əlçatmaz bir zirvə kimi
Adını əzizləmişəm.
Durub sənin yollarını
Bu vaxtacan gözləmişəm.

Yenə düşüb dəli könlüm
Gözəlliyin həvəsinə.
Qəlbimdə bahar gəlmişəm
Ömrün qarlı zirvəsinə.

Mən zülmətin arasından
Süzülən işıq kimiyəm.
Saçlarım bəmbəyaz qardı,
Özümsə uşaq kimiyəm.

Ağrılardan sıyrılıb,
Muradına çatmışım –
Altmışım!
Dadmalını dadmışım,
Atmalını atmışım –
Altmışım!

**28.12.2009**

***

Bir qoca baxır güzgüdən,
Oxuyuram hər cizgidən:
Özüm varamsa, özgədən
Çətin ki, dayaq istəyəm.

Hissim çəkilsə də tarım,
Kökdən düşməz könül tarım.
Kərəminə şükür, Tanrım,
Hələ ki ayaq üstəyəm…

**31.12.2009**

***

Ömür boyu göynəyirik,
Boğuluruq ah içində.
Biz günahsız doğuluruq,
Ölürük günah içində…

**2010**

## YOXDU

Duymaz sevginin dadını
O qəlbdə ki ağrı yoxdu.
Çox acılar görmüşəm mən,
Bu dərddən ağırı yoxdu.

Ha çırpı yığ, ha çat ocaq,
Ayrılıq vaxtı çatacaq,
İzləri itib-batacaq
Kimin ki cığırı yoxdu.

Yazığın gəlsin özünə,
Düşmə ilanın izinə.
Bir gün duracaq üzünə –
İnsanın fağırı yoxdu…

Dərələrə duman çökür
Göylərə bax, qan-yaş tökür.
Əvvələ, ortaya şükür, –
Heç nəyin axırı yoxdu…

**29.01.2010**

***

Başımızın üstündən
əskik olmur
çaşqınlıq dumanı.
İmanı olanın pulu yoxdu,
pulu olanın imanı…

**03.02.2010**

## QOCA DÜNYA

Seldən maya tutan çayın
Dibinin daşı bilinməz.
Çox qədimdi, çox uludu
Dünyanın yaşı bilinməz.

Milyard illərin dünyası
Yaşıddı körpə uşaqla.
Milyard illərin dünyası
Yoğrulub nurla, işıqla.

Hər açılan çiçək deyil,
Hər parıltı şimşək deyil,
Qoca köhnə demək deyil,
Dünya hər an təzələnir.

Yay ötür, payızı gəlir,
Qışı gedir, yazı gəlir.
Qəlbə yeni arzu gəlir,
Dünya hər an təzələnir.

Hərdən səbri dolsa belə,
Çiçəkləri solsa belə,
Adı köhnə olsa belə
Dünya hər an təzələnir…

**10.04.2010**

## DÜŞÜN

Təzə sevda ilə
Atlanırsa döşün,
Düşün, düşün…

Qüruba əyilibsə
Sevgi günəşin,
Düşün, düşün…

Elə et ki, çaqqallara
yem olmasın leşin,
Düşün, düşün…

Dodaqlarını
kəssə də dişin,
Düşün, düşün…

Olmasın bir
ayrı işin,
Düşün, düşün…

**10.04.2010**

## BELƏ GETSƏ

Təbiət hirslənəndə
Nələr olurmuş görün?
Yola getmir Arazla,
Səbri daşıbdır Kürün.

Sel dənizə döndərib
Hər tini, hər küçəni.
Kür kürüyüb aparır
Qarşısına keçəni.

Bir iş görməzdən əvvəl
Gərək insan düşünə.
Xatalıdır qarışmaq
Təbiətin işinə…

O bizə üsyan edir,
Coşur, haray qoparır.
Dağda torpaq sürüşür,
Aranı sel aparır.

İllər keçir, insanın
Üzə çıxır paxırı.
Belə getsə, dünyanın
Axırıdır, axırı…

**22.05.2010**

***

Qan ağlayır
işğal altındakı
torpağımızın
hər qarışı.

Millətin başı işə,
bazara,
şoulara qarışıb…

**02.05.2010**

***

Qəlbindən nə keçirsə,
Ulu Tanrı verəcək.
Sevda dolu gözlərin
Hələ çox şey görəcək.

Qar yağır güllər üstə,
Bu soyuq sənlik deyil.
Sən sidq ürəklə istə,
Qalanı sənlik deyil.

Ürəyindən keçəni
Məhəbbətlə arzula,
Səni öz qanadında
Ucaldacaq arzular!

**2010**

***

Düşüncəmiz, arzumuz
Xariqələr yaradır.
Niyyətimiz harasa,
Mənzilimiz oradır.

Arzularım sayrışır,
Yuxu getmir gözümə.
Niyyətim bumeranq tək
Dönüb gəlir özümə…

Şübhələr önümüzdə
Bir keçilməz barıdır.
Ömrüm öz düşüncəmin
Bəhrəsidir, barıdır…

**10.07.2010**

## VULKAN

Təbiət qədirbilməz
adamları pis gördü –
Qəzəbləndi onlara,
Yerdən vulkan püskürdü…

Elə bil ki, yuxudan
Yaralı şir oyandı;
Nərə çəkdi, bağırdı,
Tüstü ərşə dayandı…

Haqsızlıq yaradanın
Gələrdimi xoşuna?
Təbiət kül ələdi
Avropanın başına…

**24.04.2010**

## DÜNYANIN GÖZÜ MƏNDƏDİR

Gecə meşələrin yuxusu qaçır,
Çəmənlər məst olur mehdən hər səhər.
Çiçəklər gözünü mənimçün açır,
Güllər sırğa taxır şehdən hər səhər…

Ulduzlar mənimçün sayrışır sanki,
Çaylar mənim üçün nəğmə oxuyur.
Ləpələr dil açıb danışır sanki,
Yağış mənim üçün xalça toxuyur.

Hər səhər yolumu həsrətlə gözlər, –
Məcnun tək vurğunam mavi Xəzərə.
Qəlbimə nur saçır ilahi gözlər,
Sevgi ürəyimi bələyir zərə…

Səsləsəm, ulduzlar yaxına gələr,
Bu eşq bəbəyimdə yaşa çevrilər.
Mənə gəl-gəl deyir uca zirvələr,
Sevdalı ürəyim quşa çevrilər.

Arzular köksümdə bənzəyir selə,
Heç kəs məni yoldan döndərə bilməz.
Suyu diş göynədən bulaqlar belə
Könlümün odunu söndürə bilməz.

Bilirsən heç necə bəxtəvərəm mən? –
Köksümə sıxıram dağı, dənizi.
Ay nağıl danışır mənə sübhəcən,
Günəş zirvələrə səsləyir bizi.

Həyat sevgisiylə göynəyir içim,
Yolumu gözləyir düzlər, meşələr.
Yamanca darıxıb əllərim üçün
Kol-kosa qısılan tər bənövşələr…

Bu gün yarpaq olan sabah xəzəldi,
Həyat yollarında dolduq kamala.
İlahi, yaşamaq necə gözəldi,
İlahi, möhlət ver baxıb kam alaq!

Mənə də pay düşür toydan, düyündən,
Sevgiylə doldurur içimi dünya.
Ayrıla bilmirəm gözəlliyindən,
Çəkmək istəmirəm köçümü, dünya!

Məni dinc durmağa qoymur ürəyim,
Qaynar ocaqların közü məndədir.
Bu gözəl dünyadan doymur ürəyim,
Elə dünyanın da gözü məndədir…

**02.06.2010**

## BU DÜNYA DURDUQCA

Odu tükənməyən qaynar ocağam, –
Arzuda birinci, sonuncu yoxdu.
Bu dünya durduqca yaşayacağam,
Mənim həyatımın son ucu yoxdu…

Dediyim kəlmədə nur var, işıq var,
Bir gün kimliyimi soruşacaqlar.
Təzəcə dil açan körpə uşaqlar
Mənim sözlərimlə danışacaqlar.

Əbədi ömür var alın yazımda,
Olacaq həsrətə qənim sözlərim.
Sevdalı qızların könül sazında
Mizraba dönəcək mənim sözlərim.

Kiminsə yuxusuz qalan gözləri
Nurlu ürəyimdə gecələyəcək.
Qəlbinə ilk sevda düşən kəslərin
Dilində sözlərim qönçələyəcək.

Sanma ki, ürəyim daşa çevrilib,
Səsləsən, yuxudan oyanacağam.
Həmişə bir gilə yaşa çevrilib,
Qızların gözündən boylanacağam.

Qupquru budaqlar puçurlayacaq,
Tutacaq dünyanı gül-çiçək ətri.
Dodaqlar adımı pıçıldayacaq,
Gözlər yol çəkəcək gözümdən ötrü…

Xəzərin yadından çətin ki çıxam,
Çəmənlər izimi xatırlayacaq.
Sevda dənizində bir uca dağam,
Sevənlər sözümü xatırlayacaq.

Görsəm ki, birinin ocağı sönüb,
Meh olub, közünü oyadacağam.
Hər bahar yarpağa, çiçəyə dönüb,
Təzədən dünyaya qayıdacağam…

**1-16.06.2010**

***

Əvvəl-axır qocalacam,
Saçlarımda güləcək dən.
Min şükürlər bu günümə,
Çox qorxuram gələcəkdən…

**2010**

## AZADLIQ LABİRİNTİNDƏ

Bu xalq əsrlər boyu
inləmişdi için-için.
Bu xalq təşnə idi
Azadlıq üçün…
Nəhayət, bir gün
bu xalqın taleyinə
günəş doğdu.
Azadlıq şəfəqləri
qara zülmətləri
əritdi, boğdu.
Amma bu xalqın övladları
Ana vətəni yaraladılar;
Ölkəni hasar-hasar,
villa-villa böldülər,
paraladılar…
Müstəqillik rəvac verdi
hərrac bazarına;
Azadlıq təşnələri tutuldular
hasar çəkmək azarına…
Bulaqları çəpərlədilər,
Bağları çəpərlədilər,
Çəmənləri çəpərlədilər,
Dağları çəpərlədilər.
Yamacları çəpərlədilər,
Meşələri çəpərlədilər.
Yurdumuzdakı ən gözəl
guşələri çəpərlədilər.
Sahildə ayaq basmağa
yer qalmadı,
İstədiyin yerdə

qəbir qazmağa
yer qalmadı…
Azadlıq gənələri
darışdılar
vətənin şirin canına.
“Azadlıqsevərlər”
Azadlığı
qəltan elədilər
qanına!
Heç olmasa bir vaxt
Ağac azad idi,
Budaq azad idi,
Yarpaq azad idi.
Heç olmasa
ölkə qul olanda
Torpaq azad idi…
Azadlıq –
arzularımızın meyvəsidi,
Onu qanımız bahasına
qazanmışıq.
Ancaq…
Azadlıq labirintində
gözümüzü döyə-döyə
qalmışıq…

**12.07.2010**
**Nabran**

## CANAVARLAR

Ac qurdlar kəndə hücüm çəkir,
canavar ovlamaq isə qadağan edilib.

Günün günorta çağında
kəndə hücum çəkir
canavarlar.
Ay aman, bu diyarda
nə qədər
canavar var!
Dişlərini şaqqıldadan
ac qurdlar
hazırdı adamları belə
yeməyə.
Kimin nə həddi var
qurda gözün üstündə
qaşın var deməyə!
İnsanların
bütün canlıları
qorumaq,
Onlara sağlamlıq
diləmək azadlığı var.
Qurdun didib-parçalamaq,
Quzunun yanıqlı-yanıqlı
mələmək azadlığı var…
Bilmirik kimdən soruşaq
bu olayların niyəsini? –
Qurdun sahibi
gəlib çıxdı,
ancaq yenə də
qoyun yerinə qoydular
qoyunun yiyəsini…

**24.10.2010**

***

Hər şeyin qaydası var, –
Bu işi az qurdala!
Haqqı tapdanan quzu
Qəzəblənib qurd olar…

**08.07.2010**

***

Aç, söylə çəkinmədən
Ürəyindən keçəni.
İşıqlı səhəri var
Hər qaranlıq gecənin…

**2010**

***

Aydınlıq bir gecədir,
Göy üzünü sayrışan
ulduzlar bəzəyir. –
Onların suya düşən əksi
Payız yarpaqlarına bənzəyir…

**28.07.2010**

## TIXAC

Adam adama dirənib,
Maşın maşına.
Getmək müşkül məsələdi
küçənin o başına.
Hamımız düşmüşük
harasa getmək həvəsindən.
Qulaq tutulur
siqnalların səsindən.
Hər maşın
bir qarışqaya bənzəyir
Bakının şirin yaxasında.

Hərəsi bir yağlı tikə kimi
tıxanıb qalıb
şəhərin boğazında…
Yenə hansısa məmur
rahat getsin deyə
yolları bağlayıblar,
dirənmişik tıxaca.
Niyə həmişə
yol verməlidi ac toxa,
Niyə həmişə
əzab verməlidi tox aca?!
Kimdi axı qulaq asan
mənim səsimə, avazıma?
Deyə bilmədiyim sözlər də
tıxanıb boğazıma…
Yəqin ki,
bəzi adamların iştahı
dirənsəydi tıxaca,
Yuxarıdan aşağı baxmazdı
tox aca!...

**22.10.2011**

## PAYIZ GƏLİR

Göylərdə çaxan şimşək
Söyləyir: – Payız gəlir.
Boynunu bükən çiçək
Söyləyir: – Payız gəlir.

Yarpağa düşən naxış
Söyləyir: – Payız gəlir.
Aramsız yağan yağış
Söyləyir: – Payız gəlir.

Qaş-qabaqlı havalar
Söyləyir: – Payız gəlir.
Bomboş qalan yuvalar
Söyləyir: – Payız gəlir.

Bağlara cuman külək
Söyləyir: – Payız gəlir.
Köksümdə əsən ürək
Söyləyir: – Payız gəlir.

**11.09.2010**

***

Payız sarı boyayla
Budaqları bəzəyir.
Ay özü də saralmış
Bir yarpağa bənzəyir.

Ancaq külək hirslidi,
Onu qopara bilmir.
Ayı bir yarpaq kimi
Dərib apara bilmir…

**11.09.2010**

## MEŞƏDƏ GƏZİRƏM

Meşədə gəzirəm,
Ürəyim danışır,
Dodaqlarım susur,
susur…
Payız bu yerlərə
ilk qədəmlərini basır,

budaqlardan sarı-sarı
yarpaqlar asır…
Onların hərəsi
bir himə bənddi,
düşməyə hazırdı, hazır…
Giləmeyvələrin kirpiyində
yaş gilələnib,
Elə bil sevdalı ürəyimə
gül ələnib…

**02.10.2010**
**Qusar**

***

Son bahar
yay güllərini
soldurub.
Torpaqdan isə
yamyaşıl otlar,
payız çiçəkləri
baş qaldırıb.
Meşələrə, bağlara
payızın nəfəsi dəyib,
yarpaqlar saralıb
öz vaxtında…
Qış isə
Şahdağın zirvəsində
bardaş qurub,
əyləşib öz
şahlıq taxtında…

**02.10.2010**
**Qusar**

## QARA, AĞ

İnsan qocalanda
qara saç da,
sarı saç da,
xurmayı saç da
ağ olur.
İnsanların hamısının
son məkanı isə
qara  torpaq olur…

**02.10.2010**
**Qusar**

## LALLAR ŞƏHƏRİNDƏ

Lallar şəhərində
Güllər ətir qoxuyur.
Lallar şəhərində
Sükut nəğmə oxuyur,–
O nəğməni eşitmir,
Qulaqları olsa da ipiri –
Lala mikrafon uzadır
Nadanın biri…

**01.06.2011**

***

Qəlbimdə
uyuyan duyğular
kiriyə bilmədi;
Dostlar güldü,
düşmənlər
yanıb töküldü.

Yalan ayaq tutsa da,
yeriyə bilmədi –
Türkiyədə
“Türk-erməni
Dostluğu” abidəsi,
Soçidə
Andronikin heykəli
söküldü…

**01.06.2011**

***

Yağış buludun meyvəsidi,
“Dəyəndə” öz-özünə
tökülür aşağı.
O meyvələrdən
yedikcə artır
Otların, çiçəklərin
gözünün işığı…

**2011**

***

Göz yaşı qapqara
Həsrət bitirir,
Eşqin dağlarına
duman gətirir…

**2011**

***

Taleyə boyun əymək
işin ən asanıdı,
Arzuların çin olsun deyə,
gərək çox şeydən keçəsən.

Dəvəsi ölmüş ərəb
dünyanın ən bədbəxt
insanıdı,
Ərəbi ölmüş dəvə,
bəs sən necəsən?!

**18.06.2011**

## TƏZƏ İL

Heç özüm də bilmirəm
Təzə il necə gəlir? –
O, səhərlər utanır,
Həmişə gecə gəlir…

**2011**

## TƏZƏ İL

Təzə il, təzə il, tez elə,
Ömrümdə hər şeyi təzələ!
Gözləri qalıbdır arxada,
Əyrilər çətin ki, düzələ!
Təzə il, təzə il, köhnələr
Getdikcə bir az da köhnələr…
Yolumu gözləyir qabaqda
Eh nələr, eh nələr, eh nələr…
Təzə il, təzə il, tez elə,
Ömrümdə hər şeyi təzələ!
Tez elə, tez elə!
Təzələ, təzələ!
Tez elə!
Təzələ!

**01.01.2012**

## YENİ İLİN İLK YAĞIŞI

Yeni ilin ilk yağışı
Yuyur çölümü, içimi.
Öndə qarlı aşırımlar.
Çəkib gedirəm köçümü.

Yeni ilin ilk yağışı
Yağır alnıma, ovcuma.
Dənizin ağ dalğaları
Ayna tutur ağ saçıma.

Hələ tam başa çatmayıb
Köhnə ilin yır-yığışı.
Sanki öz gözümdən gəlir
Yeni ilin ilk yağışı…

Ötən ilin ağrıları
Göylərin gözündən gəlir.
Dənizin ağ dalğaları
İlin o üzündən gəlir.

Təzə ilin buludları
Sıxıb qara gözlərini,
Elə bil yumaq istəyir
Ötən ilin izlərini…

**01.01.2011**

***

Elə bil ki  payızdı,
gün altında bərq vurur
sarı-sarı yarpaqlar.
Nə vaxtdandı ki,
qış girib,
ancaq təbiətdən
köçünü çəkməyib hələ
son bahar…
Göylərdən yerə səpilir
qar yerinə yağış – su…
Elə bil ki
qış özü üçün ev qurub,
Payız köçüb getmir ki,
öz mənzilinə yığışsın!

**03.01.2011**

***

Yayın ortasında
yağış yağdı,
soyuq küləklər əsdi.
Payız öz ömrünə
calamaq üçün
yayın ömründən
kəsdi…

**2011**

## GÜNƏŞ

Yanğın heç nəyə baxmır,
Elə yandırıb yaxır.
Nə qədər gur olsa da,
Od sönür əvvəl-axır.

Günəş qaynar ocaqdı,
Görəsən niyə sönmür?
Min ildi, milyon ildi
Yansa da, külə dönmür…

**20.10.2011**

## İLK QAR

Hələ yaşıl yarpaqlar
Budağın üstündədi.
Payızın ortasında
Yağan qar, qəsdin nədi?

Düzənlərə, dağlara
Elə bil un ələnib.
Sarı, yaşıl yarpaqlar
Bəyaz rəngə bələnib.

Ömründə qar görməyən
Yarpaqlar tir-tir əsir.
Qopub ana torpağa
Sığınmağa tələsir…

**07.11.2011**

## QIŞIN BƏYAZ QOŞUNU

Üz-üzə duran dağın
Birisinə qar yağıb,
O birinə dəyməyib
Hələ qışın ayağı.

Elə bil ki, çəkinib
Dərədən adlamağa. –
Qalmışıq qarsız dağdan
Qarlıya baxa-baxa…

Qışın bəyaz qoşunu
Enməsə də dərəyə,
Elə bil ki  Bakını
Alıb mühasirəyə.

Səbri yoxdu dərənin
O tayında qalmağa.
Məqam gəzir şəhəri
Hücum çəkib almağa…

**25.01.2012**
**Bakı, Qurd qapısı**

## AĞ XALATLI HƏKİM QIŞ

Xəstəliyə, azara
Qış gözünü ağardır.
Çirklənmiş təbiətin
Qış üzünü ağardır.

Toz-torpağın üstünə
Göylərdən qar ələyir.
Dağı, düzü bəmbəyaz
Bir örtüyə bələyir.

Saralmış yarpaqları
O dünyaya göndərir.
Təbiəti bəmbəyaz
Bir vərəqə döndərir.

Təslim olub çovğuna
Yazın çiçək qoşunu.
Susub nəğməkar sular, –
Əsir edib qış onu.

İşə salıb şaxtanı
Cumur bostana, bağa.
Çılğın şəlalələri
Dağda çəkir çarmıxa.

Dağı, daşı zəbt edir,
Saya salmır – hər kimdi!
Yox-yox, o quldur deyil,
Ağ xalatlı həkimdi.

Hamımızı çovğuna,
Ayaza hazırlayır.
Dünyanı gələn yaza,
Payıza hazırlayır…

**28.01.2012**

## HAVA ÖZÜ ÜŞÜYÜR

Qış yenə at oynadır,
Hər yana qar səpilib.
Tir-tir əsən canlılar
Künc-bucağa təpilib.

Külək qılınc tək kəsir,
Hava yaman soyuqdu.
Hamısı buza dönüb,
Elə bil heç su yoxdu.

Bəmbəyaz kürk geyinən
Dağlar nələr düşünür?
Hava bizi üşütmür,
Hava özü üşüyür…

Qar üstündə gəzdikcə,
Buğlanır nəfəsimiz.
Bizi qoymur üşüyək
Yaşamaq həvəsimiz.

Soyuqdan əsən hava
O yan, bu yana axır.
Girib, ciyərimizdə
İsinib, çölə çıxır…

**29.01.2012**

## NƏ DEYƏSƏN

Fikrini min yerə çəkən
Gümanlara nə deyəsən?
Gözümüzü kor eləyən
Dumanlara nə deyəsən?!

Arama, məni arama! –
Bu iş yaraşır harama?
Halalı qoyub, harama
Cumanlara nə deyəsən?

Gözümü göynədir tüstü,
Bu şaxtanın nəyi pisdi?
Yaydan soyuq, qışdan isti
Umanlara nə deyəsən?!

**04.02. 2012**

## XƏZƏRİ DONDURAN QIŞ

Qar çovğunu, kor duman
Əsir edib günəşi.
Bu il şahlıq taxtına
Qış möhkəmcə əyləşib.

Elə bil ki, suların
Gözünə zülmət çöküb.
O, şaxta qoşunuyla
Dənizə hücüm çəkir.

Bumbuz, bəyaz qarını
Ora-bura sovurur.
Kükrəyən dalğaların
Qoluna qandal vurur.

O, suları özünün
Dustağına döndərir.
Bəmbəyaz dalğaları
Buz dağına döndərir.

Çox olub şaxtasıyla
Bağları yandıran qış,
İlk dəfədir görürəm
Xəzəri donduran qış…

**05.02. 2012**

## BİR DƏ GÖRÜRSƏN

Bir də görürsən
dəniz qabarır,
kükrəyən sular
şəhərləri, kəndləri
kibrit çöpü kimi aparır…
Bir də görürsən
adicə bir zəlzələ
Adamların ürəyinə
salır qorxu, vəlvələ.
İnsan məcburdu
ulu yaradana
könül bağlamağa.
İnsan acizdi
çaxan şimşəyin,
yağan yağışın, qarın
qarşısını almağa.
Adamlar bir dalda
yer axtarırlar
başlarını təpməyə.
Adamlar gözlərini
döyə-döyə
baxırlar dörd tərəfə.
Ateistlər məqam gəzirlər
Allahın əlindən,
ətəyindən öpməyə –
Ancaq onlar layiqdilərmi
bu şərəfə?!

**08.02.2012**

## QIŞ VƏ DƏNİZ

Dayanmışam sahildə,
Uzanır qarlı düzlər.
Dənizin donduğuna
İnana bilmir gözlər…

Mənim üşüyən qəlbim
Çox çətin ki, isinə.
Elə bil mavi Xəzər
Dönüb qar dənizinə…

Səpələnən bəyaz qar
Elə bil duza dönüb.
Şahə qalxan, kükrəyən
Dalğalar buza dönüb.

Sahildə mən özüm də
Buz heykələ dönmüşəm.
İnanmıram gözümə,
Heyrətimdən donmuşam.

Ağlasam, quduz şaxta
Kirpiyimdən buz asar.
Xəzərlə aramıza
Qış çəkibdir buz hasar.

Şaxta dördəmə çapır
Minib köhlən atına.
Qış dənizi alıbdır
Dizlərinin altına…

**12.02.2012**

## ŞƏHƏRƏ GƏLƏN QIŞ

Ekranda qış görəndə
Qalardıq yana-yana.
Qar üstündə gəzməkçün
Biz gedərdik rayona.

Yaman qarışıq oldu
Bu il şəhərdə başım.
Gedib görə bilmədim
Dağlarda qarlı qışı.

Elə bil ki, bunların
Səbəbini bildi qış.
Gördü gedə bilmirik,
Bu il özü gəldi qış…

**05.02.2012**

***

Dünyada hər dərdin bir əlacı var,
Hər şeyin zamana ehtiyacı var…

**2009**

## İÇİMDƏN GƏLƏN SƏS

Televiziyadakı verilişlər
məni bezdirdi –
İçimdən gələn səsin
sözünə bax:
–Bəsdi özgələrə baxdın,
get bir az da
özünə bax!

**03.01.2011**

***

Sel fəlakət gətirir,
Sel şeytanı güldürür.
İnsanları suya salıb,
Balıqları sudan çıxarıb
öldürür…

***

Neçə-neçə
günahsız insanın
ömrünü atəş kəsdi! –
Əcəb atəşkəsdi!

***

Xəzan yelləri əsir
könlümün sarayına.
Ürəyimi göynədir
neçə gülün baxışı.
Soluxan çiçəklərin
yetəmmir harayına
Göylərdən səpələnən
narın payız yağışı…

**2011**

***

Yağış yağdı, yanıb solmuş
Çəmənlərə gül ələndi.
Yağış yağdı, çiçəklərin
Gözü yaşla silələndi…

Buludların arasından
Burnunu göstərdi günəş.
Çiçəklərin gözündəki
Şehi bir-bir dərdi günəş…

**13.03.2011**

***

Hörmətdən sala da bilər,
Hörmətə mindirə də bilər
söz adamı.
Gərək kimsənin
tör-töküntüsünə
göz dikməsin
söz adamı…

**2011**

***

Ürəyimi həsrət deşir,
Bilmirəm ki, heç nə yazım.
Nə qışım qış kimi keçdi,
Nə yazım…

**2011**

***

Səyahətdən, gəzməkdən
Yorulub insan haçan?
Yollar uzanıb gedir
İnsandan insanacan...

**2011**

***

Yağış içimdəki
ağrını, əzabı
üstələyir.
Yağış elə bil
sevgi nəğməsi
bəstələyir…

**23.09.2009**

***

Onları xilas eləyə bilmədi
var dövlət də, altun da.
Neçə-neçə “mənəm-mənəm”,
“mənim-mənim”– deyən qaldı
zamanın təkərinin altında…

***

–Öl, dərddən qurtarsın canın,
Nə görmüsən yaşamaqda?!
–Ölümdən min yol yaxşıdı
Dərd içində yaşamaq da…

***

Ürəyini göynətsə də
Dərd, ağrı,
Gözlərini göynətsə də
qara tüstü,
Yerin altından
min dəfə yaxşıdı
Yerin üstü…

**2011**

***

Ürəyim köksümdə
elə həyəcanla çırpınır ki,
elə bil mənim də
içimdə dalğa var…
Dəniz sahilə
elə hiddətlə çırpılır ki,
Görəsən qayalar
çox ağrıyır, ya dalğalar?

**10.03.2012**

***

Gecə göylərə baxıram
ulduzların hamısı
sarı-sarıdı.
Elə bil onlar
havada uçuşan
xəzan yarpaqlarıdı…

**04.04.2012**

## GÜZGÜDƏ GÖRDÜYÜM ADAM

Güzgüdən bir adam baxıb,
Elə bil bizi izləyir.
O güzgünün arxasında
Görən bizi nə gözləyir?

Güzgüdə gördüyüm adam,
Dikilib gözün gözümə.
Sənin üzünə baxanda
Yazığım gəlir özümə.

Dodağın niyə səyriyir?
Baxışların nə qəmlidi!
Niyə üzünə qəm çöküb,
Niyə gözlərin nəmlidi?!

Bu qədər yaxın olsaq da,
Duyuram ki, çox uzağıq.
Üz-üzə dayansaq belə,
İkimiz də yalquzağıq…

Bəbəklərinə baxanda
Vəlvələ düşür canıma.
Mən güzgüyə necə girim? –
Sən ordan çıx, gəl yanıma!

Güzgüdə gördüyüm adam,
Bu dünyaya heyrətimsən!
Mənmi sənin surətinəm,
Sənmi mənim surətimsən?

Güzgüdə gördüyüm adam,
Biz tuta bilsək əl-ələ,
Yer qopar öz mehvərindən,
Dünyada qopar vəlvələ.

Dərk eləmirəm özümü,
Mən nə qədər əzab çəkim?!
Keçib güzgü arxasına
Səninlə haqq-hesab çəkim?!

Güzgüdə gördüyüm adam,
Bir gün cana doyacağam,
Güzgüyə baxmayıb, səni
Yana-yana qoyacağam…

Sinəmə ayna çıxanda
Biz kamala dolduq bəlkə?!
O güzgünün arxasında
Eyni adam olduq bəlkə?!

**05.12.2011**

## AY BABALAR, NƏNƏLƏR

İlk bahar ətri gəlir həyatın nəfəsindən,
Bəmbəyaz saçlarımız ağarsa da, qar kimi,
Ürəyimiz düşməyir yaşamaq həvəsindən,
Nəvələr ömrümüzə gəlir son bahar kimi…

Ötsə həftələr, aylar, ötsə neçə sənələr,
Həyat eşqi ürəkdən heç vaxt silinən deyil.
Nəvələrin əlindən tutan baba-nənələr
Bu dünyanın əlindən yapışırlar elə bil.

Bilirlər ki, bu körpə əllər çox qüdrətlidir,
Onlar vaxtsız gedəni bəlkə tutub ləngidə?
Bəlkə qəlbi yumşala, Tanrı səxavətlidir,
O istəsə, dəyişər dünyanın ahəngi də…

Ömrün kül qoxusuna səpir körpələr ətir,
Həyat eşqi süzülür nəvələrin dilindən.
Keçmiş keçmişdə qalıb, güman körpələrədir,
Gərək bərk-bərk yapışaq biz onların əlindən…

**20.11.2011**

***

Quş yuvanı ona görə
dairəvi qurur ki,
Heç bir bala
yuvanın "qərb güncündə"
özünü atılmış
sanmasın.
Allah yeri ona görə
kürə şəklində

yaradıb ki,
heç bir insan
harada yaşamasından
usanmasın…

**05.04.2012**

***

Tale məni sükunətdən
Həzin bir səsə aparır.
Gün qüruba əyiləndə
Ömrümdən nəsə aparır.

Sanki səhər açılanda
Məni murada yetirir –
Gün dənizdən boylananda
Ömrümə nəsə gətirir…

***

Bu lövhədə gözü qalıb,
Qocanın da, uşağın da.
Ay özü sularda çimir,
Sularsa ay işığında…

**08.06.2012**

# TÜRKİYƏ NƏĞMƏLƏRİ

***

Adama gəl-gəl deyir
Bodrum, –
Odamda necə
sakit oturum?!
Elə bil nə vaxtsa
dəniz ləpələnib,
Saysız-hesabsız evlər
saysız-hesabsız
quş yuvaları kimi
sahillərə səpələnib…
Elə bil ayrı rəngdədi
bu yer, bu göy.
Ancaq mən burada
özümü saymıram ögey…
Ləpə dili ilə pıçıldayıb
məni qoynuna
səsləyir Egey…
Səyahətə çıxmaq
istəyirsənsə,
çəkməyəcəksən
gəmi dərdi.
Dağlar elə bil
Egeyin qoynunda
lövbər salan
nəhəng gəmilərdi…

**17.08.2009**
**Türkiyə, Bodrum**

***

Gözəlliyin divanəsi
Gözəlliyə olmaz ögey.
Mənə yaman doğma gəlir
Bu mənzərə,
bu yer, bu göy.
Ürəyimi ovsunlayıb
Qədim Bodrum,
ulu Egey…

Uca dağlar ağuşunda
Cilvələnir nazlı-nazlı.
Suyu göz yaşı tək duru,
Suyu göz yaşı tək duzlu…

Görüşünə cavan gəlib,
Görüşünə  uşaq gəlib.
Qocaların gözlərinə
Elə bil ki, işıq gəlib…

O, dənizdi, ancaq bir az
Göygölümə bənzəri var.
Şair niyə həsəd çəksin,
Onun da öz Xəzəri var…

**17.08.2009**
**Türkiyə, Bodrum**

***

Bodrum da bir Bodrumdu,
Bura könlümə yatır.
Xəzərdən günəş çıxır,
Egeydə günəş batır…

Türk oğluna zaval yox
Nə torpaqda, nə göydə.
Nə yaxşı ki, bizimdir
Xəzər kimi Egey də…

**17.08.2009**
**Türkiyə, Bodrum**

***

Bodrumda gözəllər çoxdu,
Ancaq sevgilimdən yoxdu…

**18.08.2009**
**Türkiyə, Bodrum**

***

Yer üzündə xalqlar çox,
dillər çoxdur.
Ancaq nə ağlamağı,
nə gülüşü,
nə baxışı
tərcümə eləməyə
lüzüm yoxdu…
Gözlər bir-birinə
sevgi ilə baxanda,
ürəkdən sevgi
boylananda
bir-birini anlamaq,
bir-birini duymaq
asandır.
İnsan sevgisiylə,
insan duyumuyla
insandır…

**19.08.2009**
**Türkiyə, Bodrum**

***

Bütün insanlar
bir-birinə bənzəyir;
İnsanı zinət əşyaları,
bahalı geyim yox,
insanı insanlıq bəzəyir…

**20.08.2009**
**Türkiyə, Bodrum**

***

Əgər yoxsa həyanım,
Ha işarım, ha yanım…

Fikirlərim qarışıb,
Gözümə getmir çimir.

Gecələr baxışların
Ay işığında çimir…

Sən oyaqsan, yuxudan
Gərək mən də oyanım.

Baxışından nur alan
Ay nuruna boylanım…

İşığım sənə çatmır,
Ha işarım, ha yanım!

Şükür, ömür yolunda
Oldun mənim həyanım.

Kövrək nəğmələrimi
Göz yaşıyla yuyanım.

Qəlbimdən keçənləri
Bir baxışla duyanım.

Yollarıma göz dikib,
Günlərimi sayanım.

Gərək gecələr ay tək
Başın üstdə dayanım.

Bu qəflət yuxusundan
Birdəfəlik oyanım…

**19.08.2009**
**Türkiyə, Bodrum**

***

Əlini ürəyinin  üstünə qoyub,
Məni qorxutma! –
Qəlbindəki hər ağrını,
hər əzabı götürəcəyəm.
Arxamca baxıb,
göz yaşları axıtma,
Sənə Egeydən
hər biri donmuş
göz yaşlarına bənzəyən
dəniz daşları
gətirəcəyəm…
Bu dəniz daşları
közə dönüb
qəlbimi isidir.
Onlar adi daş deyil,
hər biri ötən sevgilərin
nişanəsidir…

**19.08.2009**
**Türkiyə, Bodrum**

***

Fikirlərimiz  qarışıb,
Heç bilmirəm
neyləyək indi biz.
Bu da taleyin
iztehzasıdı, –
Rus qızı Nadejdadı
Türkiyədə gidimiz.
Axı görünən dağa
nə bələdçi? –
Ekskursavod gərəkdi
nabələdçin…

**19.08.2009**
**Bodrum, Türkiyə**

## ÇÖRƏK YEYƏN BALIQLAR

Balıqları yemləyir
Mənim nəvəm Egeydə.
Sara gülür, elə bil
Sevinir yer də, göy də.

Çörək qırıntıları
Dənizə düşən kimi,
Hardansa üzüb gəlir
Balıqlar fişəng kimi.

Bir tikənin üstündə
Vuruşa bax, vuruşa!
Onları seyr eləmək
Ləzzət verir Saruşa…

Çörək qurtardı, suda
Oy, nə qədər balıq var!
Sara gülür:
–Baba, düş,
Yesin səni balıqlar…

**20.08.2009**
**Türkiyə, Bodrum**

***

Bu Egey dənizində
Gör nə qədər ada var!
Sanki dənizdə yatan
Dəvələrdi adalar…

**20.08.2009**
**Türkiyə, Bodrum**

## PAMUKQALA

Əsrlərin şahidisən,
Pamukqala!
O zamandan
bu zamana
pambıq qalar?
Təbiətin yaratdığı
möcüzəsən,
Baş əymisən
bu hünərə,
bu gücə sən.
Pamukqala,
ötənləri unutmusan?
Pamukqala,
Daşa dönən
buludmusan?

Qar olsaydın,
gün altında əriyərdin,
Pambıq olsan,
sel-su altda çürüyərdin.
Mərmər olsan,
kəsilərdin hissə-hissə.
Ürəyini göynədərdi
qara qüssə…
Duz olsaydın,
yeyilərdin,
yalanardın,
Ovuc-ovuc,
torba-torba
talanardın…
Sinən üstdən
axıb gedən
sellər gülür,
Dünyanın hər guşəsindən
Tamaşana ellər gəlir.
Pamukqala,
Möcüzəsən başdan-başa.
Ovcundakı çarhovuzlar
bir tamaşa…
Pamukqala,
Sanki pambıq tayasısan.
Pamukqala,
Bir gözəllik dünyasısan.
Pamukqala,
Türk elinin qalasısan,
Neçə ki, bu dünya qalır,
qalasısan…

**24.08.2009**
**Türkiyə, Pamukkala**

# DƏNİZLİ

Burda nə qədər dəniz,
Burda nə qədər dağ var.
Türkiyəyə yaraşır
Dənizlər, uca dağlar…

Bu ölkənin hər yanı
Dağlıdı, dənizlidi.
Şəhərlərdən birinin
Adı da Dənizlidi…

Bu şəhərin dörd yanı
Göyə baş çəkən dağdı.
Ancaq Dənizli özü
Dənizdən çox uzaqdı.

İnsanları mehriban,
Gözəlləri can alar.
Onun hər küçəsində
Bir müqəddəs came var.

Oğlanları ucaboy,
Qızları dan üzlüdü.
Dənizdən uzaqsa da,
Bu şəhər Dənizlidi…

Özü də uca-uca
Dağlarla baş-başadır.
O, dənizə sevgini
Öz adında yaşadır…

**27.08.2009**
**Dənizli, Türkiyə**

## XƏZƏR – EGEY

Min şükür Yaradana,
Gah yerdəyəm, gah göydə.
Tezdən Xəzərdə çimdim,
Axşam isə Egeydə.

Bir əlim bu dənizdə,
Bir əlim o dənizdə.
Doğmadı bu dəniz də,
Doğmadı o dəniz də.

Mən Xəzərdən Egeyə
Bol-bol salam apardım.
Dəniz riqqətə gəldi,
Cilvələndi, qabardı.

Öpdü yanaqlarımdan,
Aldı məni qoynuna.
Məhəbbətlə dolandı
Dalğa qollar boynuma…

**02.08.2010**
**Bodrum, Türkiyə**

## EGEYDI BU, EGEYDI…

Egeydi bu, Egeydi,
Elə bilmə ögeydi.
Egeydi bu, Egeydi,
Suyunun rəngi göydü.
Külək əsdi, əyninə
Ağ qırçınlı don geydi.

Egeydi bu, Egeydi,
Dağların arasına
Düşən bir parça göydü…

**03.08.2010**
**Yalıkavak -Bodrum, Türkiyə**

## BODRUMDA KÜLƏK ƏSİR

Sanki bu gözəlliyə
Olubdur külək əsir.
Ağaclar yelpik olub,
Bodrumda külək əsir…

**03.08.2010**
**Yalıkavak - Bodrum, Türkiyə**

***

Uca dağlar Egeyin
Köksündə bir dağ olub.
Sularının hərəsi
Bir sahilə dağılıb…

***

Egeyin sahilində
Hər yan dağdı, yamacdı.
Dənizdəki adalar
Elə bil addamacdı.

Bu dağa addım çatmaz,
O dağa addım çatmaz.
Düşüb suda qərq olar –
Ağıllı addım atmaz…

Baxışlar qüdrətlidir,
Ürəkləri odlayır.
Dənizin bu tayından
O tayına adlayır…

**03.08.2010**
**Yalıkavak-Bodrum, Türkiyə**

***

Bu dağlar necə ucadı,
Bu dəniz necə dərindi!
Hara baxdım, nəyə baxdım
Gözümə gözəl göründü.

Bəbəyim heyrətdən dolub,
Ağlayacaq, himə bənddi.
Dünyanı gözəl eləyən
İçimdəki məhəbbətdi…

**03.08.2010**
**Yalıkavak - Bodrum, Türkiyə**

## TƏYYARƏDƏN BAXANDA

Məni heyrətə salır
Təyyarənin uçuşu.
Baxıram, aşağıda
Ağ buludlar uçuşur…

Uzanır bomboz çöllər,
Uzanır çılpaq dağlar.
Torpağın sinəsində
Varmış düyünlər, dağlar.

Məni duyğulandıran
Bu acı həqiqətdi. –
Su yığılıb göl olub,
Sahil suya həsrətdi…

**04.08.2010**
**Yalıkavak - Bodrum, Türkiyə**

## SARA DEYİR

Sara deyir: – Ay baba,
Sən elə bil uşaqsan.
Oynayırsan mənimlə,
Nə olsun saçı ağsan!

Gah dənizdə çimirsən,
Gah hovuzda çimirsən.
Get, bir az uzan dincəl,
Heç yoruldum demirsən!

Getmə çay gətirməyə,
Farağat dur, sən canın!
Gah çayı dağıdırsan,
Gah qırırsan fincanı.

Görməmişsən elə bil,
Az ye, kökələcəksən.
Bəsdi uşaqlıq etdin,
Nə vaxt yekələcəksən?!

**04.08.2010**
**Yalıkavak - Bodrum, Türkiyə**

## EGEY SAHİLLƏRİNDƏ

Dəniz, upuca dağlar,
Çox gözəldi yerimiz.
Günəşləndik o ki var,
Tunca döndü dərimiz.

Biz çimirik Egeydə
Səhərdən axşamacan.
Özüm də mat qalmışam,
Yetişdi axşam haçan?!

Bu su necə duzludu,
Bu su necə təmizdi!
Günəş həmin günəşdi,
Dəniz ayrı dənizdi…

**04.08.2010**
**Yalıkavak - Bodrum, Türkiyə**

## UCALIQ VƏ DƏRİNLİK

Aşağıya baxıram
Zirvələrə dırmanıb.
Dağ dənizə söykənib,
Dəniz dağa sırmanıb.

İnsan cuşa gələndə
Sürətlə vurur nəbzi.
Dağ – ucalıq simvolu,
Dəniz – dərinlik rəmzi.

Tanrı nələr yaradıb,
Hər tərəf tamaşadı.
Ucalıqla dərinlik
Bodrumda baş-başadı…

**05.08.2010**
**Bodrum, Türkiyə**

## DAĞLAR, DƏNİZLƏR

Türkiyəni gəzirəm,
Ürəyim, gözüm gülür.
Qəlbimdən sevgi daşır,
Dilimdə sözüm gülür…

Oy, nə qədər dəniz var,
Oy, nə qədər ada var!
Durub heyrətlə baxır
Gələn qərib adamlar.

Bu qədər dağ olmasa,
Sular kükrəyər, daşar.
Burda bütün dənizlər
Bir-birinə qarışar…

Gəzəndə İstanbulu
Bir an nəfəs dərmərəm.
Bir yanda Qara dəniz,
Bir yanında Mərmərə…

O Aralıq dənizi,
Bu yaraşıqlı Egey.
Burdakı gözəlliyə
Heyran olubdu yer, göy…

Bu qədər dənizin də
Bu qədər dağı olar.
Bu elə kəc baxanlar
Doğma yox, yağı olar.

Onsuz da lüzum yoxdu
Kükrəməyə, daşmağa.
Dənizin gücü çatmaz
Bu dağları aşmağa…

**07.08.2010**
**Bodrum, Türkiyə**

## MƏHƏBBƏT ADASI

Suları yara-yara,
Bu gəmi üzür hara?
Adsız qalan adalar,
Nə zamansa ad alar.
Bax, bu sevgi adası –
Kleopatra odası.
Dörd yanda sıra dağlar
Suyun önünü saxlar…
Burda tarix uyuyur,
Xoş gəldin, buyur, buyur.
Bu ada gözəl ada,
Nələri salır yada,
Kimləri salır yada?!
Üz o taydan bu taya,
Bir tarixdi hər qaya.
Baxırsan, dörd yan dəniz,
Sular dumduru, təmiz.
Şəfəq saçır – bax quma,
Bəyaz quma, ağ quma!

Burda hər şey rəmzidi,
Bu qum sevgi rəmzidi.
Ağ qumun bir dənəsi
Deyil geri dönəsi.
Daim burda qalacaq,
Bu qum yola salacaq
Neçə-neçə sevəni,
O, özünə güvənir…
Bu adi ada deyil,
Məhəbbət qalasıdı.
Burda doğulan sevgi
Əbədi qalasıdı…

**07.08.2010**
**Sedir adası, Türkiyə**

***

Gözəl bir
ölüm arzulayan
Kleopatra
Barmağını ilana çaldırdı…
Məhəbbətin şöhrətini
zirvələrə qaldırdı.
O vaxtdan sevgi göylərində
daim şimşəklər çaxır.
O vaxtdan sevgi
ilan zəhərinə dönüb
insanların damarlarında axır…

**07.08.2010**
**Sedir adası, Türkiyə**

## GÖZƏLLİK ADASINDA DÜŞÜNCƏLƏR

Günaydın, Mark Antonio,
Günaydın, Kleopatra!
Bu adada uyuyur
sizinlə bağlı
nə qədər xatirə.
Ömür boyu
bu gözəllik adasında
baş-başa yaşamaq
dünyaya dəyərdi! –
Ancaq özünüz də
yaxşı bilirdiniz ki,
bu istək hədərdi.
Dünya çalxam-çalxam
çalxananda
baş girləmək olardımı
bir cəzirədə?
Bilirdiniz ki, başınız üstündə
daim gəzir hədə!
Mark Antonio,
məktubunu daşa yaz,
sözlərini daşa de!
Hər şey, hər şey
məhv olub getdi,
məhəbbət isə
daim yaşadı…
İndi dünyanın hər yerindən
ziyarətə gəlirlər
bu sevginin işığına.
İnsanlar çevriliblər
gözəllik aşiqinə. –

Gəzdiyiniz cığırlarla gəzirlər,
üzdüyünüz çiçəklərdən üzürlər,
çimdiyiniz dənizlərdə üzürlər…
Mark Antonio!
Kleopatranın xətrinə
gətirdiyin ağ qum
indi dönüb milli sərvətə.
Hamı əhsən deyir
bu məhəbbətə!
O ağ qumun
kiçik bir dənəsini də
qoymazlar kimsə
özüylə apara.
Yoxsa dalğalar kükrəyər,
sular haray qoparar…
Yoxsa bu xərabələr,
Çoxlarının halını
xarab elər…
O ağ qum
adi qum deyil,
sevginin duzudu.
Gün altında bərq vuran
hər dənəsi
sevgi kəhkəşanında sayrışan
tale ulduzudu…
Gəmimiz geriyə üzür,
məni qanadına alıb
fikir, xəyal…
Mark Antonio, hələlik!
Kleopatra, salamat qal!

**07.08.2010**
**Sedir adası, Türkiyə**

***

Bu adada
hər şey qorunur!
Odu söndürüblər,
üfürürlər qorunu!
Adadan qayıdıb
gəmiyə minən adamların
ayaqlarına su tökürlər ki,
onlara yapışıb getməsin
bu ağ qumun bir giləsi. –
olublar əfsanəyə bürünmüş
tarixin köləsi…

**08.08.2010**
**Yalıkavak – Bodrum, Türkiyə**

## BODRUM GECƏLƏRİ

Bodrumun göylərinə
Adam baxmaqdan doymur.
Bodrumun göylərində
bir cüt ulduz nur saçıb,
Məni gözündən qoymur…

**08.08.2010**
**Yalıkavak – Bodrum, Türkiyə**

***

Bodrumda ailəmlə birlikdə
dincəlirəm,
ancaq dinclik vermir mənə
xatirələr…

Yadıma düşür
nələr, nələr…
Ailəm, övladım,
nəvəm yanımdadı, –
bilmirəm
darıxıram nə üçün?
İçimdə dəli bir istək
közərir için-için –
Oğul-uşaq da vermir
onun yerini,
Darıxıram vətən üçün…

**10.08.2010**
**Bodrum, Türkiyə**

## SEVGİMİN ƏBƏDİYYƏT YUVASI

***

Xəyalın məni
Burada qoyub
ayrı bir diyara getsə;
ürəyimin hansı bir
küncündəsə
sevgimin sərhəddi bitsə;
gözlərin dikilsə harasa,
baxışların kimisə arasa,
qəlbinə bir nur saçılsa,
Kiminsə üzünə təbəssüm
çiçəklərin açılsa,
Məndən nəyisə gizləsən,
Qəlbində hansı bir adısa
əzizləsən,
Kiminsə həsrəti gizlicə
çöksə gözünə,
Qəlbimin qırxıncı qapıları
həmişəlik bağlanacaq
üzünə…

**22.02.2009**

## SƏNİN NƏFƏSİN

Bəxtəvərlər bəxtəvəri
oluram
gözlərin gözlərimə
dəyəndə. –
Təbəssümün

soraq gətirir
mirvaridən,
sədəfdən,
altundan…
Nəfəsin yaz küləyi kimi
üzümə dəyəndə
bənövşələr,
nərgizlər boylanır
içimdəki həsrət
qarının altından…

**04.04.2009**

***

Yenə nə üçün qaçıb
Gözlərinin yuxusu?
Bəlkə havadan gəlir
Həsrət, hicran qoxusu?

Nəyə görə, əzizim,
Qara gözlərin dolub?
Sən nələr düşünürsən
Söylə, xəyala dalıb?

Sən sən idin, mənsə mən,
Çevrilib biz olmuşuq.
Ömrün uzun yolunda
Biz qoşa iz olmuşuq…

Bulud bəbəklərindən
Həsrət selləri axır.
Tanrının buyruğundan
Kim çıxa bilər axı?!

Tərk eləmək günahdı
Eşq yolunu yarıda.
Qoy özü rəhm eyləsin
Bizə ulu yaradan!

Sevdalı qəlbindəki
Təmiz hissləri qoru.
Zülmətləri əritsin
Qoy bu sevginin nuru!

**14.04.2009**

***

Sən mənim canımsan,
Verərəm can umsan…

***

Mənə sevgiylə baxan
Neçə gözə mil çəkdin.
Onlar sənin yanında
İndi qara milçəkdi…

**15.04.2009**

***

Küsməyə dəyərmi
Öz taleyindən
küsəndən? –
Nə özümdən
baş aça bilirəm,
nə səndən…

**18.04.2009**

## EPİTAFİYA

Həyat bir şirin yuxu,
Həyat bir şirin röya.
Ölümünlə toy tutdun
Ömrünə gələn toya…

## MƏNSIZ DÜNYA

Təsiri yox gileyin də, sözün də, –
Mənli dünya adiləşib gözündə…

Daha sevgi çiçəyini dərmirsən,
Bildiyini sən heç kəsə vermirsən.

Xəyalında yüz ölçüb, yüz biçirsən,
Özün üçün özgə dünya seçirsən…

Əzəlki tək baş qoymursan sinəmə,
Dəyişmisən, tanımıram səni mən.

Saralıbdır daha sevgi gülləri,
Marıqdadı ayrılığın yelləri…

Heç yaşın da uyğun gəlmir yaşıma,
Yavaş-yavaş ağlın gəlir başına.

Tale payın səni hər an izləyir,
Yollarını mənsiz dünya gözləyir…

**21.04.2009**

***

Vecinə almırsan dumanı, çəni,
Xəyalın kimisə qucar arabir.
Bəzən yadına da düşmürəm sənin,
Fikrin uzaqlara uçar arabir…

Yerlə yeksan olub neçə uca taxt, –
Zamanın hökmünü alqışlayıram.
Bu qədər əzaba dözməzdim heç vaxt,
Hər şeyi sevginə bağışlayıram…

**21.04.2009**

***

Sevgi böyük olanda
Həsrəti taxtından
devirmək olmur…
Külü yenidən közə,
yaşanmış həzzi sözə
çevirmək olmur…

**22.04.2009**

***

Deyirsən: – Dənizə getmə! –
Mən dənizsiz necə dözüm?
Xəzri at oynadan zaman
Dalğalarda qalır gözüm.

Fikrindən nələr keçirsə,
Mehriban gözlərin dolur.
Dənizə tək getmirəm ki,
Xəyalın mənimlə olur…

**23.04.2009**

***

Günah sənin özündədi,
Axı sevirdin sən kimi?
Ona görə də içində
Həsrət alovu səngimir.

Vüsal qapı dalındadı,
Hicran gəlib başa çıxdı.
Başın sağ olsun, ay ürək,
Ümidlərin boşa çıxdı…

**24.04.2009**

***

Təzə bir yuva gəzirsən, –
Taleyindən küsdün, nədi?
Səni sevən gündən əlim
Ürəyimin üstündədi…

Həsrət qışı neyləyəcək
Ömrü bahar, yaz olana?
Kim xətt çəkə bilər axı
Qismətimə yazılana?!

Aç söylə qəlbindəkini, –
Bilim, kimi gözləyirsən.
Məni atacağın günü
Ölüm kimi gözləyirəm…

**24.04.2009**

***

Səni tanımayan adam
səni istəyir,
Sən də səni
tanımayan adama
könül vermək
niyyətindəsən!
Yanılmırsanmı
niyytində sən?!
Ürəyin saf duyğulara
bu qədər yaddımı?
Yoxsa mənim qəlbim kimi
çat-çatdımı?
Dediklərim çatdımı?
Sən adi bir qız olsaydın,
qınamazdım atdığın
bu addımı!

**24.04.2009**

***

Ya gərək insan sevgilisinə
təzə nəfəs,
can verə,
Ya da onun yolunda
can verə!
Ancaq inana bilmirəm ki,
məhəbbət yolunda
o boyda qurban verən
sevgilisini kiməsə
qurban verə!

**24.04.2009**

***

Hələ bir yol görmədiyin insanın
Adı gəlcək niyə ürəyin əsir?
Görüşünə icazə də almısan,
Bəs deyirdin aramırsan heç kəsi?

Minib xəyal köhləninə hər gecə
Sən arzular diyarına çapmısan.
Bəs deyirdin gözün yoxdu kimsədə,
Bəs deyirdin sevgilini tapmısan?

Çaylar kimi arzun daşır köksündən,
Ürəyini duyan bir yar gəzirsən.
Bəs deyirdin çox xoşbəxtsən mənimlə,
Onda niyə ayrı simsar gəzirsən?

**24.04.2009**

***

Oyatma kül altda qalan közləri,
Onsuz da üstümə yağışlar yağır.
Özgəyə baxanda qəmli gözlərim
Niyə bəbəyində şimşəklər çaxır?!

Mənə olan olub, daha qorxmuram,
Öndə ürək yaxan bir sevgi varmış.
Mən kimə baxıram, kimə baxmıram
Daha sənin üçün nə fərqi varmış?!...

**24.04.2009**

***

Belə getsə
çəkdiyimiz həzzin
dadını qaçıracaqlar.
Necə zülümlə, ümidlə
qurduğumuz sevgi yuvasını
başımıza uçuracaqlar…

**24.04.2009**

***

Mən elə bilirdim ki,
sən ömrün boyu
axtardığın bir insanı
heç vaxt dəyişməzsən
rahat, firavan həyata,
qızıla, altuna…
Gərək səni
sevdiyim ilk gündən
ayrılığı alaydım
gözümün altına…
Gərək baxa biləydim
həqiqətin gözünə,
saçımaələnən qışa…
Gərək könül
verməyəydim
bahar sevdasıyla
qanadlanan
köçəri bir quşa…
Gərək, gərək…
Sənə nə deyim,
Ürək, ürək…

**24.04.2009**

***

Önündə təzə yollar
açılıb, –
Sənə gəl-gəl deyən
cavandı,
qamətlidi,
şirin dillidi…
Hələ nə qazanacağını
bilmirsən,
nə itirəcəyinsə
bəllidi…

**24.04.2009**

***

Ürəyimin rahatlığı,
Gözümün yuxusu qaçıb.
Təbiətin gözəlliyi,
Güllərin qoxusu qaçıb…

**25.04.2009**

***

Fikrimdə,
xəyalımda sən.
Fikrim də,
xəyalım da sən…

**25.04.2009**

***

Mənim sevgi yuvamı
dağıdanın
yuvası dağılacaq.

Köksündə həmişə
çalın-çarpaz
dağ olacaq…

**25.04.2009**

***

Yuxusuz gözlərim –
qan çanağı!
Belə getsə, dağıdacaq
qan çanağı…

**25.04.2009**

***

Qoymadı
səpdiklərim bitə, –
ələndi qar şuma…
Ürəyin böyük sevgiyə
hazır deyildisə,
Niyə çıxdın
qarşıma?

**25.04.2009**

***

Ayrılıq yelləri əssə,
Ürəyim haray qoparar.
Çağlayıb qızıl qan kimi
Damarlarına hoparam…

Əlinə sığal çəkərəm,
Telinə sığal çəkərəm.
Bir topa buluda dönüb,
Bəbəklərinə çökərəm.

Mışıldayaram qoynunda
Bir bəxtəvər çağa kimi.
Səni öpüb qoxlayaram
Təpədən dırnağa kimi…

Çıxıb getsən, mən arxanca
Ağlayaram uşaq kimi.
Ayağına baş qoyaram,
Çağlayaram bulaq kimi.

Mən hazıram ömür boyu
Yollarını gözləməyə.
Dilimin qüdrəti yoxdu
Sənə layiq söz deməyə…

Qəlbində əbədi sevgi,
Saçlarında dən olaram.
Ruhum ruhuna qovuşar,
Başdan-başa sən olaram…

**25.04.2009**

## SEVGİ SƏDƏQƏSİ

Soyuq şam qəlbimi çətin isidə! –
Mənə bu sözləri ürəyim deyir.
Öz halal zəhmətim mənə bəs edər,
Sevgi sədəqəsi gərəyim deyil…

**29.04.2009**

***

Bəlkə də
köksündə dağlar
belə düşünürsən:
–Sənə güvəndiyim dağlar!...
Güvəndiyin dağınsa
köksündən
gecə-gündüz
həsrət selləri çağlar…
İçimizdən çağlayan arzular
dönsə də ümmana, çaya,
Şükür eləməliyik
Allahın verdiyi paya…
Bu sevgi dillərdə
dastan da ola bilər;
Ancaq çoxa meyl eləyən
azdan da ola bilər…

**07.05.2009**

***

Sən sevgi dünyama
gəlmisən ki,
məni ucaldasan.
Sən öz ülvi sevginlə
hamıdan ucadasan…

**07.05.2009**

***

Qəlbimin sahibinə
dönmüsənsə,
daha neyləyirsən
nəğməni,
şeiri sən?! –
mən sənin həyatının
nəğməsiyəm,
sən mənim həyatımın
şeirisən…

**07.05.2009**

***

Səndən bir şey istəməyə
daha qalmayıb üzüm…
məhəbbətim dərindisə,
dayazda necə üzüm?!

**2009**

***

Yanımda
ömür-gün yoldaşım,
üstümə ələnir
çiçək yağışı…
Ciyərlərimdə
ətirli yaz havası,
Qulaqlarımda
ürəyimi riqqətə gətirən
saz havası…
Gözlərimin önündə
neçə-neçə gözəl mənzərə…

Elə bil şehli çiçəklər
bələnib zərə…
Bəs niyə
tənha sanıram özümü?
Bəs niyə
harasa dikmişəm gözümü?
Elə bil çatmır
sevdalı ürəyimin havası.
Hardasan,
ay dərdlərimin dəvası?
Hardasan,
ay sevgimin
əbədiyyət yuvası?

**10.05.2009**
**Qusar, Qayabulaq**

***

Olaydın həyatımın
son qızı, son qadını,
o dünyaya
səninlə aparaydım
bu dünyanın
son dadını…

**11.05.2009**
**Siyəzən**

***

Qəlbim mələklərə uyub gedəndə,
Yaran sızlayacaq, göynəyəcəksən.
Mən sənli dünyanı qoyub gedəndə,
Sən mənsiz dünyada neyləyəcəksən?

**15.05.2009**

## SON GÖRÜŞ

"Sizdən gizləmək istəmirəm. Dostu deyir ki, o xahiş edir birinci gün internetdə son dəfə görüşək".

**Bir mesajdan**

Qorxuram kül altda uyuyan közdən, –
Bəlkə göynəyirsən sən için-için?!
Belə görünür ki, yazdığın sözdən
Gözün yol çəkirmiş bu xahiş üçün…

Qəlbin bu ağrını gec duyacaqdır, –
Arxı taymı tutdun dəniz sevgimə?
Sənin son görüşün son qoyacaqdır
Mənim aydan arı təmiz sevgimə…

Qara gözlərini bulud almasın,
Unutma, kənardan izləyənin var.
Ancaq ürəyində nisgil qalmasın,
Çıx get, yolarını gözləyənin var!

Çətin ki, açılsın vurulan düyün,
Balıq tək düşmüsən eşq qarmağına.
Çıx get, göz yaşına qərq elədiyin
Altun üzüyü də tax barmağına…

Sən ona qəlbindən keçənləri yaz,
Tikanlı sözlərin hər biri nizə!
Üz-üzə, göz-gözə əyləşin bir az,
Təbəssüm bəxş edin bir-birinizə.

Duyursan: bu eşqin sabahı yoxdu,
Ayılıb, gülürsən hərdən xəyaldan.
Bu işdə heç kəsin günahı yoxdu,
Daha nə gözləyim hərdəmxəyaldan?

Sevdalı qəlbimə çəkildi bu dağ,
Məni başa düşmür, İlahi, heç kim!
Yadigar üzüyü barmağına tax,
Dola barmağına ilahi eşqi!

Həsrəti qəlbinə salıbsa rişə,
Gec-tez özü tutar qolundan sənin.
Ehtiyacın varsa o son görüşə,
Kim saxlaya bilər yolundan səni?!

Ürəkdən sevinməz ağlayammayan,
Hər cür xoşbəxtliyə gülüm yaraşır.
Yarı yarı yoldan saxlayammayan
Miskin bir sevgiyə ölüm yaraşır…

**15.05.2009**

***

Hər insana
öz vicdanı hakimdir, –
Onu sevirsənsə,
mən kiməm,
məni sevirsənsə
o kimdir?

**15.05.2009**

***

İçimdə fırtınalar baş qaldırır
Havadan gəldikcə hicran qoxusu.
Sevgimi daha da möhkəmləndirir
Səni itirmək qorxusu…

**17.05.2009**

***

Yamanca toxundu söz ürəyimə,
Elə bil səpdilər köz ürəyimə.
Bağışlaya bilməz o xəyanəti,
Mən yaxşı bələdəm öz ürəyimə…

Üşüdü lalə tək solan gözlərim,
Sənin həsrətinlə dolan gözlərim.
Yenə də çevrilib qan çanağına
Sübhədək yuxusuz qalan gözlərim…

**16.05.2009**

***

Heç zaman
baş əyməmişəm,
Gülüm, mən vara,
mən vara!
Yazırsan ki, həyatında
Təkcə mən varam,
mən varam!
Bu sözlərin mənasına
Gərək mən varam,
mən varam!
Anlayam ki, yer üzündə
Məndən xoşbəxt

kimsə yoxdu.
Tanrı özü yaxşı bilir
Kim istidi,
kim soyuqdu…
Bil ki, həmişə hazıram
Qəlbinə nur ələməyə.
Kaş mən də
qadir olaydım
Səni xoşbəxt eləməyə!

**17.05.2009**

## BELƏ GETSƏ

Əlimizdə deyil sevmək, sevilmək, –
Qəlbimizə salır Tanrı sevgini.
Qısqanclığın güvə kimi yeyəcək
İçindəki aydan arı sevgini…

Öz hikkənlə çətin etdin asanı,
Aramızda niyə qara yel əsdi?
Ürəyində sevgi daşan insanı
Sən ittiham eləməyə tələsdin.

Zəqqum idi şərbətimə qatılan,
Sən xalisdən uca tutdun qəlpimi?
Qısqanclığın ehtiyatsız atılan
Bir daş kimi silkələdi qəlbimi.

O sözəri ürək çətin unuda,
Başmı əydin mirvariyə, altuna?
Varım-yoxum bir qəlbim var, onu da
Tulladılar ayaqların altına.

Ləkələmə sən ürəyi təmizi,
Yaxşı düşün qəlbin dinclik tapanda.
Mənim eşqim it deyil ki, əzizim,
Zəncirləyib saxlayasan qapında?!

Əsəbimə  sən bələdsən özün ki,
Qılınc qından sıyrılacaq nə vaxtsa…
Belə getsə tutmayacaq bizimki,
Yollarımız ayrılacaq nə vaxtsa…

**18.05.2009**

***

Sındırdın qəlbimi, tökmə dil mənə,
Sanma ki, şairin ürəyi daşdı.
Gah xain söylədin, gah qatil mənə
Nifrətin sel kimi kükrədi, daşdı…

Dayazda üzmərəm qoyub dərini,
Sevdalı bir qəlbi üşütmək – çətin…
Dünyanın ən ağır kəlmələrini
Ən çox sevdiyindən eşitmək – çətin…

Məni harda gəldi öyürdün bir vaxt,
Öz qara bəxtini söyürsən indi.
"Yaxşı ki, sən varsan!"  – deyirdin  bir vaxt,
"Kaş sən olmayaydın!" – deyirsən indi…

Könlümü almağın əbəsdir, əbəs,
Yamanca toxunub söz ürəyimə.
Kimsəyə xəyanət eləməyən kəs
Xəyanət edərmi öz ürəyinə?!

İçimdə bir dəli  ildırım çaxdı,
Riyadan, hiylədən çox uzağam mən.
Sevgimin yanında alnım açıqdı,
Qəlbimin yanında üzü ağam mən…

Gəzib diyar-diyar gül sorağında, –
Nəğməkar eləyib həvəs bülbülü.
Mən öz həyatımın qürub çağında
Olmaq istəmirəm qəfəs bülbülü…

**08.06.2009**

***

Sevginin uca  zirvəsi
deyilsə sənə məxsus,
Uzaqdan bax, sus!

**01.07.2009**

***

Sözlərinin alt qatı
məni yamanca üşüdür, –
tez-tez xətrimə dəyirsən…
Onun yolunda hər şeyə
tüpürüb gedirdin,
Mənə isə
"təkcə özüm üçün
yaşamıram" –
deyirsən.
Bilmirəm yer nədir,
göy nədir? –
Sözlərin məni
göynədir. –
Onların hər biri
tikanlı oxdu…

Narahat olma,
səndən ayrı bir
təmənnam yoxdu…
Onsuz da
heyranların çoxdu…
Mən üzü zülmətə
doğru gedirəm,
Sənə isə işıq lazımdı.
Sənə arzuladığın ər,
sənə arzuladığın
uşaq lazımdı…
Sıldırımda bitən çiçəkdən
ev gülü olarmı?
Arzularını reallaşdırmağı
bacarmayandan
sənə sevgili olarmı?

**01.07.2009**

***

Sən bütün aləmi mənə
güldürməyə çalışırsan.
Sən mənim ürəyimdə
insanlara,
təbiətə olan sevgini
öldürməyə çalışırsan.
Tanrı mənim ürəyimə
elə böyük sevgi verib ki,
bütün hasarlara,
sərhədlərə yadam…
Yaxşı ki, başa düşdün:
Mən deyilmişəm
sənin illər boyu
axtardığın adam…

Mən ürəyimin
hökmündən
çıxa bilmərəm;
Mən sənin biçdiyin
sevgi ülgüsünə
sığa bilmərəm…
Qısqanclıq odu
əzizlədiyin bir adı
gec-tez ürəyindən siləcək.
İçimdəki "mən" ölsə,
içindəki "sən"ə olan
sevgim də öləcək…
Mənim sevdalı qəlbim
bənzəyir sehrli bir
çəmənzara.
Təşnə arıların
vızıltısından
çətin ki, gəlsin
çəmən zara!
Qısqanclıq burulğanında
qərq oluram,
dəyərmi boş-boşuna
əl-qol atmağa?
Necə qıydın axı
sevdalı ürəyimdə
bayquş ulatmağa?!

***

Sevda qaynayan qəlbimi
Hisslərimə gor elədin.
Sən qaş düzəltdiyin yerdə
Vurub gözü kor elədin…

**08.07.2009**

***

"Mən ailə qurub gedirəm. Sizə demək istəmirdim, bu gün son görüşümüz idi, – bu "sms" keçən il bu ərəfədə yazılacaqdı. Xoşbəxtlikdən planlarım dəyişdi. Çox xoşbəxtəm!"

**Bir "sms"dən**

Ağlın başına qayıtdı,
Ürəyinə qulaq asdın.
Axır ki, o "sms"-i
Düz bir ildən sonra yazdın.

Bilirdim ki, əvvəl-axır
Qəlbin doğru yol seçəcək.
Xəyalda, arzuda qalan
Gec-tez həyata keçəcək…

Bir il başında dolanan
Sözlər ürəyini deşdi.
Bağışla, səni ləngitdim,
Düz bircə il geri düşdün…

Qoyma izi-tozu qala,
Eşq güllərini yaxşı yol!
Gedəni saxlamaq olmaz,
Yaxşı yol sənə, yaxşı yol!

**11.07.2009**

***

Yoxsa leysan kimi yağıb getmisən?
Qoşulub sellərə axıb getmisən! –
Bəlkə görməyəcəm səni bir daha,
Bəlkə doğrudan da çıxıb getmisən?

**11.07.2009**

***

Niyə məndən narazısan? –
Nəyim var sözümdən özgə?
Daha nə verə bilərəm
Mən sənə özümdən özgə?

**14.07.2009**

***

İndi üzün gələcəyidi,
arxa  çevirmisən keçmişə!
İndi xəyallarında
saçlarını sığallayanın,
boyunu öyənin var!
İndi mən yuxularından
qaçaq düşmüşəm,
indi ayrı gəl-gəl
deyənin var!
Gah sevgi od-alovunun
içinə can atırsan,
gah lalə rəngli
yorğan-döşək görürsən.
Hər şeyi cazibədar,
hər şeyi qəşəng görürsən…

Belə getsə,
yuxuların əvvəl-axır
çin olacaq,
qazancını deyə bilmərəm,
əlindən uçan
göyərçin olacaq…
Deyəsən sən
getmək istəyirsən,
içindəki sevgi tufanını
səngitmək istəyirsən…
Ürcahına çıxan
xəyalında olan insanı
əvəz eləmir.
Daha mənim
həsrət dolu misralarım da
sənin üşüyən qəlbini
qızdırmağa bəs eləmir…
Daha həyatda
qismətinə düşənlər
sənə azlıq eləyir –
yuxularında özünə
ayrı simsar gəzirsən.
Daha dərya sandığın sevgi
sənə dayazlıq eləyir,
qışdan üz çevirib,
çiçəklənən bir
bahar gəzirsən…
Duydun ki, həyatında
ən əziz bir adam çatmır,
qismətimə yazılan
yazı deyilsən.
Qəlbini qızdırmağa
odum çatmır,

daha məndən
razı deyilsən…
Hər kəs
duya bilməz, əzizim,
qəlbi incə olanı.
Darıxma,
əvvəl-axır tapacaqsan
qəlbincə olanı!

**15.07.2009**

## SƏNSİZ

Sənsiz xəyallarım harasa uçur,
Sənsiz yaşamağın ləzzəti qaçır.

Dinləyə bilmirəm ləpə səsini,
Dəniz də itirir cazibəsini…

Elə bil dəyişir dünya rəngini,
Nəğmələr itirir öz ahəngini.

Səhraya bənzəyir çiçəkli düzlər,
Yollara dikilir həsrətli gözlər.

Baxmağım da qalmır çaya, çeşməyə,
Qoyma bu dünyanı adiləşməyə!

**17.07.2009**

***

Sən sevgidə
zəfər çalmağa layiqsən, –
Ancaq bilmirəm
çat-çat olan şair ürəyi
sənin könlünə
yatacaqmı?
Sən təpədən-dırnağa
xoşbəxt olmağa layiqsən! –
Ancaq səni xoşbəxt eləməyə
mənim gücüm,
vaxtım çatacaqmı?

**17.07.2009**

***

Ürək yaxan xəyanəti,
gülüm, əfv eləmək olmur.
Nə sevgini, nə nifrəti
Heç vaxt dəfn eləmək olmur…

**17.07.2009**

***

Sənə qovuşmaq
gümanım yoxdu,
Üzür qəlbimi
ayrılıq dərdi.
Ancaq sevginin
zamanı yoxdu,
Sevgi həmişə
təzədi, tərdi…

**2009**

***

Yenə qara bulud kimi
dolmusan,
Yenə havadan gəlir
hicran qoxusu…
Dünyanın ən qiymətli
bir incisinin
sahibi olmusan –
Ancaq səni
xoşbəxt olmağa qoymur
onu itirmək qorxusu…
Mənim də ürəyim sıxılır
baxanda tutqun bənizlərə.
Mənim də hövsələm daralır
verdiyim haqq-hesablardan…
rahatlıq tapmaq istəyirsənsə,
at o mirvarini dənizlərə,
biryolluq canın qurtarsın
ağrılardan, əzablardan…

**31.07.2009**

***

Sənin düşmənlərinə
mən asi oldum,
Çevrilib həyatının
mənası oldum…

***

Ah edirsən,
uf edirsən
mənsiz niyə?
Belə getsə,
sən məhkumsan
mənsizliyə…

***

Unudarmı yarı canım? –
Axı odur yarı canım!

**03.08.2009**

***

Mən şimşək kimi
çaxıram,
Yağış kimi yağıram.
Mən dünyaya
sənə olan sevgimin
gözü ilə baxıram…
Sən də yağış kimi
yağa bilsəydin,
Sən də dünyaya
mənə olan
sevginin gözüylə
baxa bilsəydin,
bu sevgidən nə yorular,
nə də doyardın,
dünyanın necə gözəl
olduğunu duyardın…

**03.08.2009**
**Nabran**

***

Deyirsən ki, sevgin oddu, –
Tüstüyə bənzər həsrətim.
Çarə yox, qalan ömrümü
gərək mən sənə həsr edim.
Yazırsan:
–Məni qınama,

tüstü olmaz od yanmasa!
Dünya rəngini dəyişər,
Sevən sevəni anmasa…
Qəlbində çatdığın odun
Qoy isinim istisinə.
Ancaq məni kor eləmə
Həsrətinin tüstüsünə!

**04.08.2009**
**Nabran**

***

Tanrı özü qəmə edib qənim sevinci,
Kaş sevdalı ürəyimdən küsən olmasın!
Göz yaşları verir sənə mənim sevincim, –
İstəyirsən səndən başqa kimsəm olmasın…

Tək özünü sevən insan gülməyəcəkdir,
Haray salıb çağırırsan: – Nə oldu, tez gəl!
Sənə heç nə, heç nə verə bilməyəcəkdir
Mənim sevgim göz yaşından, kədərdən özgə…

Axı hamı üzə bilmir sevgi gölündə? –
Niyə mənim əsəbimi itiləyirsən?
Dönüb quldur tüfənginə sevgi əlində,
Məni tez-tez qorxudursan, hədələyirsən.

İçdiklərim, yediklərim dönüb zəqquma,
Duymursanmı mənim çölüm, içim sənindi!
Neçə-neçə göz dikilib halal haqqıma,
Mən çəkildim bir kənara, seçim sənindir…

Təpərim yox şimşək kimi çaxa bilməyə,
Söylə bizə yaraşarmı hədə yarışı?!
Ayrılığın sınağından çıxa bilməyən
Cılız eşqə, məhəbbətə ölüm yaraşır…

**05.08.2009**
**Nabran**

***

Ayrılıq –
yalançı sevgiləri
söndürür,
Əsl sevgiləri isə
tonqala döndərir…

**06.08.2009**
**Nabran**

***

Yanağıma axan yaşı
Silirəm, gülüm, silirəm.
Fərhad kimi qayaları
Dəlirəm, gülüm, dəlirəm.

Qara gözünə ağ çöküb,
Aramızdakı dağ çöküb,
Ayrılıq sənə dağ çəkib,
Bilirəm, gülüm, bilirəm.

Həsrətdən göynəyir için,
İnləyirsən için-için…
Boynuna sarılmaq üçün
Ölürəm, gülüm, ölürəm.

Demirəm ki, mənə əl aç,
Hər bir dərdə var bir əlac,
Qollarını çox geniş aç,
Gəlirəm, gülüm, gəlirəm…

**08.08.2009**
**Nabran**

## BU YAĞIŞ

Sənə elə gəlməsin ki,
Adicə sudu bu yağış.
Çölümü yudu bu yağış,
İçimi yudu bu yağış.

Çevrilib səhər şehinə
Bərq vurdu sənin saçında.
Döndü sevgi çələnginə
Kirpiklərinin ucünda…

Yuyunmuşam bu yağışda,
Çölüm duru, içim duru.
Onun hər bir qətrəsində
Şəfəq saçır sevgi nuru…

Yağış yağır, ancaq mənim
Köksümdə bir yanar ocaq.
O yağışın damlaları
Heç zaman qurumayacaq…

**11.08.2009**

***

Belə getsə,
qısqanclığın
Səni döndərəcək külə.
Çar-naçar bir
söz deyəcəm:
–Gülə-gülə!
Elə bilmə ki,
Əkdiyin sevgi gülləri
solmayacaq.
Yox olmasam həyatından,
Qəlbin rahat olmayacaq…

**13.08.2009**

***

Zəhləm gedir yalandan,
O betərdi ilandan…
Dil öyrəşsə yalana,
Sevginin vay halına!

**13.08.2009**

***

Körpə quşcuğaz,
Səni qarşıda
sevdalı günlər
sevdalı anlar gözləyir, –
Gözlərin əbəs yerə
məni seçib! –
Sən hələ səfərə
təzəcə başlayırsan,
Mənim karvanımsa
çoxdan keçib…
Güc gərək insanın

öz içində ola, –
əbəsdi kimisə
köməyə çağırmaq.
Sənin halalca haqqındı
özünə isti bir yuva qurub,
bala çıxarmaq…
Körpə quşcuğaz!
Hər şeyi
həll eləmək olmur
təkcə dən ilə,
su ilə.
Əbəs yerə
könül vermisən
bir sərsəri sailə!
Əbəsdi
könlümün harayı,
Əbəsdi
könlünün harayı!
Onsuz da
uçmağa məhkumdu
özülünün palçığı
yalanla yoğrulan
eşq sarayı…

**14.08.2009**

***

Əvvəl-axır barmağında
Bərq vuracaq altun üzük.
Yolumuz dağa dirənib,
Sıldırımla üzbəüzük…

Fikirlərim pərən-pərən,
Yaram göyüm-göyüm göynər.

Sən geri dön, məni öndə
Gözləyir laciverd göylər…

**14.08.2009**

***

Boş xəyallardan ayıl,
Öndə qorxunc uçurum…
Sən göylərdən yerə en,
Mən göylərə uçuram…

**14.08.2009**

***

İçində yuva qurub
Həzin bir kədər,
Kövrək bir nisgil…
Neyləyim,
Öz bəxtindən
küs ki,
bizi ayrılığa
doğru aparır
bu xəfif qəm,
bu titrək kədər…
özümüzü yalandan
bəxtəvər göstərməyə
çalışmağımız
hədərdi, hədər.
Hələ soyuq külün altında
işarsa da öləziyən közlər,
ancaq yenə də
harasa dikilib
yol çəkən qəmli gözlər.

O baxışlar
qəlbimi yaralayır.
İçindən boylanan
gizli dünya
Məni səndən
günbəgün, anbaan
aralayır…
Uzaqda kiminsə silueti
gözə dəyir.
İçimdə yaralı ümidlər
gizil-gizil gizildəyir…
Hələ sakit
dayanmağına baxma,
ürəyim nə vaxtsa
fırtına qoparacaq.
O baxışlar səni haçansa
öz dalınca aparacaq…

**26.08.2009**

***

İstəmirəm ki,
çiyinlərində daim
kədər yükü götürəsən. –
mənimlə nə
qazanmısan ki,
mənsiz də
nə itirəsən.
Ancaq…
İçindən həsrət boylanan
gözlərinə baxmaqdan

doya bilmirəm.
Qəlbinə hicran kölgəsi
düşməsinə də
qıya bilmirəm…

**29.08.2009**

***

Bilmirəm haqqım çatırdımı
Səni yolundan eləməyə?
Bilmirəm sevgim yetəcəkmi
Ömrünə nur ələməyə?

**31.08.2009**

***

Zərrəcə taqətim yoxdu
Hər gecə ah eləməyə.
Başqa çarəmiz qalmayıb,
Gedək günah eləməyə…

**31.08.2009**

***

Sənə
arzular dünyasına
çapmaq üçün
köhlən bir at lazım idi,
Ona isə xərci az çıxan
ucuz arvad lazım idi…
Bu anda yolunun üstünə
çıxmaq isə
mənim alın yazım idi…

**01.09.2009**

***

Belə getsə,
yaxındadı bu
sevginin sonu.
O olan yerdə
mən yoxamsa,
mən olan yerdə
nə işi var onun?

**01.09.2009**

***

Eşq eşq olsaydı,
bu işlər başımıza
gəlməzdi.
Eşq eşq olsaydı,
onun yolunu bəndə
qapaya bilməzdi…

**01.09.2009**

## GÖRDÜNMÜ

Ürəyin göynəmir həsrət közünə,
Qovmusan uzağa dumanı, çəni.
Xoşbəxtsən, qarışıb başın özünə, –
Daha yadına da düşmürəm sənin.

Daha vətənində deyilsən qərib,
Göylərdən başına çiçək ələnib.
Daha mənim sevgim işini görüb,
Qaranlıq həyatın nura bələnib…

Ömrümüz olsa da ağrı-acılı,
Yetimin başında sığaldır zaman.
Qarşında təptəzə yollar açılıb, –
Gördünmü dərdləri sağaldır zaman…

Məhəbbət başında çevrildi taca,
Taleyin üzünə güldü yenidən.
Gördünmü, köksündən perikib uçan
Arzular qayıdıb gəldi yenidən?!

Xoşbəxtlik ömrünə təzə don biçir,
Köksündə nur yanır, düzəldi dünya.
Gördünmü, mənsiz də günlər şən keçir,
Gördünmü, mənsiz də gözəldi dünya!...

**01.09.2009**

***

Oxu daşa dəyən nə qədər qıza
Qaytardım yaşamaq həvəsini mən.
Təpədən dırnağa təmənnasızam,
Ummadım nəyinsə əvəzini mən.

Bəlkə yaxındadır qəfil bir ölüm?
Həyata tez keçir dilədiklərim.
Sən də o qızlardan birisən, gülüm,
Halalxoşun olsun elədiklərim.

Çətin ki, barışsın ürək küsəndə,
Laqeydlik köksümə saplanan bir ox.
Sənə ürəyimi qurban desəm də,
Səndən bircə zərrə umacağım yox…

Qəlbimi nar kimi dənələmişəm,
Hər kiçik giləni sən köz bilirsən.
Sonuncu zəngi də mən eləmişəm,
Ancaq səninkidi son söz, – bilirsən…

**01.09.2009**

***

Qəlbinin, doğrudan da,
mənə ehtiyacı varsa,
çağır gəlim!
Ancaq borcunu
sevgi ilə ödəmək istəməyin
mənə ağır gəlir…

**01.09.2009**

***

Səsini eşidəndə
sevinərdim uşaq kimi.
Nəfəsin qəlbimin zülmətini
əridərdi işıq kimi.
İndi isə zənglərim
“qapının dalında qalır”
Çağrılmamış qonaq kimi.
Sənin səsinə
ehtiyac olduğu halda,
özgənin səsini eşitmək
deyil asan.
Özünə nə yaxşı
qulluqçu tutmusan? –
Başımdan tüstü qalxır
özgə səsi eşidən kimi.

Qapıdan geri qayıdıram
fişəng kimi…
Görəsən nələr etdiyini
duyursan?
Niyə səsinlə
səsim arasında
sərhəd qoyursan?
Sən yatırsan
xumar-xumar,
Əvəzində mənə
cavab verir Xumar…

**03.09.2009**

## CAVABSIZ ZƏNGLƏR

Yerlə yeksan olub "eşqin kişvəri",
Durmuşam kimsəsiz qərib dalanda.
Pərdə arxasında nələr baş verir? –
Sərgərdan qalmışam qapı dalında.

Köksüm qan içində, sinəm dağlanıb,
Gümanlar, şübhələr dönüb xəncərə.
Qara pərdə ilə möhkəm bağlanıb,
Qəlbinə açılan kiçik pəncərə.

"Dərdimə bir əlac" deməkdən öldüm,
Mənim  düşmədiyim tilsim qalmadı.
"Sim-sim, qapını aç" deməkdən öldüm,
Könül rübabımda bir sim qalmadı.

Ürək sözə baxmır, barmaq usanır –
Səbr etməkdən başqa bir əlacım yox!
Qəlbinin səsinə qulaq asanın
Mənim zənglərimə ehtiyacı yox!

Gör nəyə dəyişdin mehri, ülfəti? –
Ürəkdə hər arzu boy ata bilmir.
Qəlbində uyuyan saf məhəbbəti
Daha zənglərim də oyada bilmir…

**05.09.2009**

## QANAD QANADA

Sanki içimizdə bəyaz dalğa var,
Sanki köksümüzdə bir şam əridi.
Qol-qola gedirdik, bəyaz dalğalar
Ayağımız altda pillələr idi…

Xoşbəxt görməmişdim belə dənizi,
Gülmürdü şairin qocalığına.
O bəyaz pillələr bu səhər bizi
Qaldırdı sevginin ucalığına…

Xəyalım coşmuşdu küləklər kimi,
Sevdalı gözümdə yaş çiçək-çiçək.
Uçan qağayılar mələklər kimi
Bizi ötürdülər üfüqlərədək…

Ovcumun içində əsirdi əlin,
Köksündə məhəbbət dönmüşdü selə.
Bəyaz don geyinən heç bir qız-gəlin
Sənin tək bəxtəvər olmayıb hələ.

Düşdü qoşa-qoşa iz bu sahilə,
Sevgi dənizində qəlbimiz ada.
Qol-qola gəlmişdik biz bu sahilə,
İndisə uçuruq qanad-qanada…

Qəlbi titrəyirdi bu göylərin də,
Dodaqların dönüb közə, əzizim!
Qanad-qanadayıq eşq göylərində
Daha zaval yoxdu bizə, əzizim…

**05.09.2009**

***

Sevdalı bir ürək – xəzinə!
Sən uyma hər kəsin sözünə.
Məsləhət verənlər çox olar,
Qulaq as qəlbinin səsinə…

**2009**

## GÜNDƏ BİR TELEFON NÖMRƏSİ ALAN QIZA

Nömrə dəyişməkdən doya bilmədin,
Uçurdun sevgimin sarayını sən.
Nə üçün vaxtında duya bilmədin
Mənim ürəyimin harayını sən?

"Xoşbəxtəm" desən də qəmə batmısan,
Deyirlər: "Təndirə düşər tələsən!"
Nömrələr içində itib-batmısan,
Qorxuram mənə də nömrə gələsən…

Bu qədər əzaba dözməyir ürək,
Ancaq ki, hər dərdin bir əlacı var.
Çox telefon nömrən var sənin, demək
Çoxlu sevgiliyə ehtiyacın var…

Eşq olsun yarını duyan gözələ,
Bir gün nömrələrlə masan dolacaq.
Nömrə dəyişməyə uyan gözələ
Sevgili dəyişmək asan olacaq…

Taleyin üzünə bir gün güləcək,
Arzular köksündə yanar bir ocaq…
O qədər nömrəyə, bir gün gələcək,
Bircə zəng edən də tapılmayacaq…

**07.09.2009**

***

Deyirsən ki,
həsrət dolu gözlərim
nə qədər gizli dolacaq?
Deyirsən ki,
bu sevgimiz
nə qədər gizli qalacaq?
Sevdalı ürəyimi
daşmı eləmək
istəyirsən?
Gizli sevgidən
aldığın həzzi
faşmı eləmək
istəyirsən?!
Qəlbimi yaralayır
gözünün eyhamlı baxışı,
sözünün hər kəlməsi.

Sənə həzz lazımdı,
yoxsa sevgimizi
hamının bilməsi?

**07.09.2009**

***

Qəlbimdə qalıb
sənin inadkarlığının
sağalmaz izi.
Heyf ki,
məndən ala bilmirsən
Telefon nömrəsini
dəyişməkdən
aldığın həzzi…

**07.09.2009**

***

Qəlbimdəki çiçəkləri
Baxışıyla
dərənim var.
Özümü xoşbəxt sanıram,
Səsimə səs
verənim var…

**16.09.2009**

***

Elə bil ki, asılıb
Qəlbim göy qurşağından.
Yol gedirəm gecələr
Sevgimin işığında…

Həsrət nuru bərq vurur
Damlasında yağışın.
İçimi nurlandırır
Onun bircə baxışı…

Vecimə də almıram
Bu il gələn xəzanı.
Qəlbimdəki baharın
Ömrü xeyli uzanıb…

Əsirgəyə bilmərəm
Məndən sən bahar umsan.
Çünki son sevgi payım,
Çünki son baharımsan**…**

**18.09.2009**

## PAYIZI BƏYƏNMƏYƏN QIZ

Payızı bəyənməyən qız,
Soyuyub buza dönmüsən.
Gözündə yaş yarpaq-yarpaq,
Özün payıza dönmüsən.

İçindəki ümidlərin
Xəzəl rənginə boyanır.
Dönmüsən qəm buluduna,
Gözündən leysan boylanır…

Seyr etdikcə qəlbim yanır
Qəmli, küskün baxışları.
Sənin bulud gözlərindən
Yağır payız yağışları.

Xəzəllərin arasından
Boylanırsan qərib-qərib.
Payızdan zəhlən getməsin,
Səni mənə payız verib…

**23.09.2009**

***

Baxışın qəlbimi yaxmaq istəyir,
Vüsal arzusuyla göynəyir içın.
Gözlərin gözümə baxmaq istəyir,
Əllərin darıxıb əllərim üçün.

Mənim yollarıma göz dikib qürub,
Səninsə köksündən səhər boylanır.
Niyə ürəyində qəm bardaş qurub,
Niyə gözlərindən kədər boylanır?

Nura qərq edəcəm mən həyatını,
İçimdə od yanır, qaynar ocağam.
Küskün taleyinin kədər atını
Çapıb ürəyini partladacağam…

**27.09.2009**

## DAHA GÖZLƏMİRSƏN PAYIZDAN HARAY

Uzağa dikilib küskün bir baxış, –
Kirpiklər ucunda ildırım çaxdı.
Sənin gözlərindən sellənən yağış
Payız sularına qoşulub axdı…

Qara gözlərinə çökdü qaranlıq,
Köksündə fırtına qabardı sənin.
Sevgilin yanına gəlib bir anlıq,
Tutub əllərindən apardı səni…

Gərək sevməyəydin sən o insanı, –
Hissləri kükrədi, tufan qopardı.
Üstünə ələnən payız leysanı
İçindən sevgini yuyub apardı…

Yağışın altında əsir budaqlar,
Gör kimi sevmisən? – Gözlərin doldu.
Ayağın altına düşən yarpaqlar
Sevginin sonunda üç nöqtə oldu…

Özünə dönürsən hər saat, hər ay,
Həsrətin gözləri ağara qalıb.
Daha gözləmirsən payızdan haray,
Gümanın gələcək bahara qalıb…

**29.09.2009**

***

Xəfif bir kədər görürəm
hər baxanda mən üzünə.
Qadir Allah özü olsun
eşq yolunda dayağımız.
Əvvəl-axır qərq olacaq
qəlbimiz qəm dənizinə,
Daşa dəyib parçalansa
bizim sevgi qayığımız…

**12.10.2009**

***

Qoymaram ki,
yad əllər
əkdiyim sevgi
çiçəklərini
yola!
Bütün ağrılara
mərdliklə dözən
fağır ürəkdi.
Daha mən tapdanmış,
keçilmiş yolam,
Sənə isə təptəzə
cığır gərəkdi…
Daha sənin üçün
maraqsızam,
Daha qəlbim
sən istəyən
biçimdə deyil.
Daha əlimdən
bir iş gəlmir,
Daha sevgim
Dünyanı gözəlləşdirmək
gücündə deyil.

**12.10.2009**

***

Sən öz qəlbinin səsinə
qulaq asdın;
sən öz iti qələminlə
sevgimizə
qəbir qazdın…
Ağ kağızı ağ kəfənə
döndərdin, –

Sevgimizi
ona büküb
cəhənnəmə
göndərdin…

**15.10.2009**

***

Bu sevgi dastanı da
Beləcə yetdi sona.
Atalar üçdən deyib,
Bəxtini bir də sına…

***

Hələ sevgi yollarında
Sən çox atlar çapacaqsan.
Üzülmə, axtardığını
Əvvəl-axır tapacaqsan…

**15.10.2009**

***

Sərgərdan qalmış ürəyin
Öz yolunu azmış bəlkə?
Şeirimi onun səsiylə
Dinləməyin azmış bəlkə?

İndi də yollara baxıb
Həsrətlə yol gözləyirsən.
Ürəyində o insanın
Adını əzizləyirsən.

Göz yaşların yastığına
Axır gizlicə-gizlicə.

Həsrətin şimşəyə dönüb
Çaxır gizlicə-gizlicə…

Qəlbinin səsini dinlə,
Mən deyənlər qanun deyil.
Özgə ilə nəfəs alan
Mənə necə "canım" deyir?

Vüqarını bir kimsənin
Önündə əyə bilmərəm.
Özgə zəngi gözləyənə
"Sevgilim" deyə bilmərəm…

**15.10.2009**

***

Qoynundan axan sellərin
Qədrini dərə bilmədi.
Heyf, sevgi güllərini
Sonacan dərə bilmədim.

Qırıldı qəlbimin simi,
Kimi aldadırsan, kimi?
Ürəyimi süfrə kimi
Önündə sərə bilmədim.

Sönməyib gənclik həvəsin,
Od tutub yanır nəfəsin.
Qəlbində yaşayan kəsin
Yerini verə bilmədim…

**15.10.2009**

***

Keçilməz hasara dönüb
Aramıza düşən pərdə.
Mən qovulduğum qapıya
Nə üzlə qayıdım bir də?!

**15.10.2009**

***

Qəlbin yarpaq tək əsirdi
Bir vaxt sözlərimdən ötrü.
İçində sevgi qaynayan
Qara gözlərimdən ötrü.

Oraq tək əyri kəlmələr
Ümid güllərimi biçib.
Duymuruq bir-birimizi, –
Aradan pişikmi keçib?!

Ürəyini söz göynədir,
Ancaq açıb deyəmmirsən.
İndi təkcə özümü yox,
Sözümü də bəyənmirsən...

**11.11.2009**

## TÜKDƏN ASILI SEVGİ

Əzəl gündən taleyimiz
Alnımıza yazılıdı.
Gileylənib deyirsən ki,
Sevgin tükdən asılıdı…

Mənim acı taleyimə
Bir cüt göz gərək ağlasın.
Dağdan ağır sevgimizi
O tük çətin ki, saxlasın…

Köksümdə yüz tənə oxu,
Sevən qəlbim parçalanıb.
Geri dönmək mümkün deyil,
Öndə yollar haçalanıb…

Dözürəm dediklərinə,
İnsana səbir yaraşır.
Tükdən asılı sevgiyə
Dərin bir qəbir yaraşır…

**11.11.2009**

***

Mənim zəhləm gedən
bir adı
bilə-bilə dəftərinə
yazmısan.
Yoxsa o sözü
sehrli bir çıraq kimi
başının üstündən
asmısan?
Deyirsən ki,
o kağızların hamısını
cırıb atacaqsan.
Deyirsən ki, onlardan
ocaq çatacaqsan!
İnanıram ki, yazdıqlarını
cırıb ata biləcəksən. –

Bəs ürəyindəkiləri
necə siləcəksən,
Bəs ürəyimdəkiləri
necə siləcəksən?

**20.11.2009**

***

Mənim sevgim
qapı ağzında dayanıbmış, –
ürəyinin içində deyilmiş…
Mənim sevgim
qəlbində yurd salan duyğuları
unutdurmaq gücündə deyilmiş…
Özü uzaqda olsa da,
xəyalı hər gecə, hər səhər
görüşünə gəlirmiş.
Qəlbinin ən uca taxtında
əyləşən bəxtəvər
mənə gizli-gizli
baxıb gülürmüş…
Görüşlər, vidalar
halalca alın yazım imiş,
Sənə içindəki duyğuları
öldürə biləcək sevgi
lazım imiş…

**22.11.2009**

***

Gözlərin yumulanda
ayrı bir ismi
xatırlayırmışsan –
məni o bilib

öpürmüşsən,
məni o bilib
qucaqlayırmışsan.
Əbədi yol yoldaşı imiş
İçindən gələn səs.
O səsin sahibini
heç zaman unutmazsan,
heç zaman alçaltmazsan.
Sən – içindəki sevgi qədər
təmiz, müqəddəs,
Sən – içindəki sevgi qədər
ünyetməz, əlçatmazsan…

**22.11.2009**

***

Sevgin Əsli – Kərəm,
Xumar – Sənan
sevgisinə bərabər imiş.
Sən əsl eşq pərvanəsi,
O əsl ər imiş…
(Heyf ki,
qəlbim bunlardan
bixəbər imiş)…
Tülküyə yem elədin
yaralı bir aslanı;
Sən demə
bitməyibmiş
aranızda olan
sevgi dastanı…
Əsrlər boyu
qadir eşqin önündə
dil belə, din belə
baş əymiş, əyilmiş.

Əbədi ayrılıq belə
qəlbindəki sevgini
öldürməyə
qadir deyilmiş…

**22.11.2009**

## YARALI QUŞCUĞAZ

Yaralı quşcuğaz,
sinə gərib qışın
şaxtasına, qarına,
sevgimi məlhəm elədim
sənin sağalmaz yaralarına.
Yaralı quşcuğaz!
Sənə yer versəm də
qəlbimdə gecələməyə,
Haqqım yoxdu könlünə
güc eləməyə!
Darıxma, sağalan kimi
yenidən qanad açacaqsan,
sevgilin qayıdıb gələndə
ona qoşulub uçacaqsan…
Mənim sevgim
qanadlarını sağaldıb,
Mənim sevgim
öz missiyasını bitirib.
Onlu dünya
sənə gəl-gəl deyir,
Mənli dünya
öz cazibəsini itirib…

**22.11.2009**

***

Ürəyində təpər yoxsa,
Havayıdan əhd eləmə.
Bir əlində iki qarpız
Saxlamağa cəhd eləmə!

Zaman görüb öz işini,
Ağlın başında soyuyub.
Əli aşından olmuşdun,
Vəli aşın da soyuyub…

**22.11.2009**

## SEVGİLİM

Pəncərədən boylanıb,
Göz dikmişəm yağışa.
Damlaların nəğməsi
Səni döndərib quşa.

Baxıram suya düşən
Zərif, gözəl əksinə.
Oyna, sevgilim, oyna,
Baxım sənin rəqsinə.

Vurulmuşam qəlbimi
Oda salan qadına.
Külək əsir, paltarın
Dönüb quş qanadına…

Nurlandırıb üzünü
Şəfəq saçan damlalar.
Yanağında, saçında
Gör nə qədər damla var!

Məni dara çəkirsən
Bir cüt qara gözünlə.
Al ruhumu cismimdən,
Götür, apar özünlə!

Uzat əlini mənə,
Sevgilinə ərk elə.
Məni qəlbim qarışıq
Gözlərində qərq elə…

Duyumlu bir gözələ
Ürəyimi verərəm.
İstəsən, ulduzları
Sənin üçün dərərəm.

Tanrı göndərən paya
Çətin arxa çevirəm.
Mən səni çox sevirəm,
Mən səni çox sevirəm…

**07.12.2009**

## KƏPƏNƏKSİZ QALAN ÇİÇƏK

Axtardığın ani baxış
Varlığımı silkələdi.
Sən sevgini bir kəpənək
Qanadına yük elədin.

Uçub qaçdı kəpənəyim,
Heç bilmirəm hara getdi?
Qəlbin onun qanadında
Bir uzaq diyara getdi…

Yaralanmış ürəyimə
Pozulmayan bir zeh düşdü.
Kəpənəksiz qalan gülün
Ləçəklərinə şeh düşdü…

Gözlərimdə gülən yaşın
Hər biri bərq vuran almaz.
Ləçəkləri solan gülün
Üstündə kəpənək qalmaz.

Daha vida məqamıdı,
Bu dünyadan haçan köçək?
Layiq deyil yaşamağa
Kəpənəyi uçan çiçək…

Bircə gecənin içində
Gəldi xoşbəxt çəmən zara.
Onun xallı kəpənəyi
Uçdu ayrı çəmənzara…

**11.12.2009**

***

Sənin ürəyin –
sevdalı bir dalğa,
Mənim ürəyim –
sərt bir qayadır.
Nədənsə
bir həsrət sazağı
çöküb bənizinə.
Mənim yorğun gəmim
dalğaların qoynundan
sahilə qayıdır;
Sənin qayığın isə

yenicə düşüb
sevgi dənizinə…
onsuz da bu sevginin
axırı yoxdu, –
haqsızlıq eləmək
istəmirəm
sənə qarşı.
Öndə kimisə çiçəkli
yollar gözləyir,
kimisə üstünə
çiçəklər düzülmüş
sinə daşı…

**19.12.2009**

***

Yolunu gözləyənin var,
sən getməlisən!
İçindəki sevgi odunu
səngitməlisən…

**19.12.2009**

***

Bəbəklərindən
tufan boylanır –
Uzaqlara baxırsan
qaşlarını çatıb!
Həmişə məndən ötrü
qurban vermisən,
İndi məni
qurban vermək
vaxtı çatıb…
Yoxsa bu dünyanın
gözəlliyindən

ləzzət ala
bilməyəcəksən.
Yoxsa heç zaman
xoşbəxt ola
bilməyəcəksən.

**19.12.2009**

***

Üz-üzə dayansaq da,
bu gün məndən
çox uzaq idin.
Qarşısına çıxanı
parçalamağa hazır olan
yalquzaq idin.
Ötənlər, keçənlər
yenidən düşdü yadıma.
Gördüm ki,
gözlərinin dərinliyindən
boylanan dünyada
mən artıq adamam.
Ürəyim parça-parça oldu
mənə xəyali xəyanətindən.
Bu gün sürgün olundum
sənin könül səltənətindən…
Bu gün həsrətin əlində
ovum-ovum ovuldum.
Bu gün arzulara, əzablara
ov oldum.
Bu gün qaçaqmalçı kimi
sənin könül dünyandan
həmişəlik qovuldum.

**19.12.2009**

***

Yaxşı ki, ağlın
başına qayıtdı,
Yaxşı ki, səhvlərini
anladın vaxtında.
İçində bardaş quran
peşmançılıq
Saldı məni sevginin
şahlıq taxtından…
Narahat olma,
əllərim bir daha
uzanmayacaq
icazəsiz gül dərməyə.
Daha heç kəsin
gücü çatmayacaq
ağlayan qəlbimi
güldürməyə…

**19.12.2009**

***

Sevəndə eləbir
insanı sev ki,
arxayınca deyə biləsən:
–Bu mənim alın yazımdı!
Səni bircə gün də olsa
xoşbəxt eləyə bilməyən sevgi
axı nəyinə lazımdı?!

***

Bu gün məndən
çox uzaq idin,
Bu gün rəngini
dəyişmişdi dünya da.
Bu gün mən
artıq adam idim

Gözlərinin dərinliyindən
boylanan dünyada.
Bu gün laqeydliyin
üzümə çırpıldı
qamçı kimi.
Bu gün məni
qapıdan qovdun
Könül səltənətinə
girmək istəyən
qaçaqmalçı kimi…
Mən məni duymayanın
əlində gül kimi
saralıb-solmaq istəmirəm.
Mən sənin yolunda
qanqal,
qolunda qandal
olmaq istəmirəm.
Ancaq yaxşı bilirəm ki,
sənin içindən boylanan
yeganə dərd də deyiləm.
Mən mənə ehtiyacı olanı
atıb gedən
namərd də deyiləm…

**20.12.2009**

***

Təzə il uğurla gəlir, –
Ürəyimin sevinci min!
Qismətimə düşən sənsən,
Həddi yoxdu sevincimin…

Sevgim başımın üstündə
Şəfəq saçan dan ulduzu.
Eşq oduyla əriyəcək
Qəlbimdəki kədər buzu…

Dərd-qəm bizdən ayrılacaq,
Arxamızca deyinəcək.
Qoca dünya başdan-başa
Təptəzə don geyinəcək…

**01.01.2010**

***

Başıma bu oyunu açan
sevdalı ürəkdi. –
Ancaq qollarımın
arasında belə
özgənin xəyalı ilə
qolboyun olan sevgili
nəyimə gərəkdi?

**12.01.2010**

***

Heç kəs, heç kəs
səni duymur,
Həyatın ayıla bilmədiyin
dolaşıq bir yuxudur.
Mənim varlığım
səni xoşbəxt
olmağa qoymur,
Mənim yoxluğum isə
səni qorxudur…

**12.01.2010**

***

Sənin ögey münasibətin
mənə qan uddurdu.
“O”nsuzluğun kədəri
mənli günlərin sevincini
unutdurdu…

**12.01.2010**

***

Sən ayrı bir sevginin
çiçəkli yazısan,
Sən mənim oxuya
bilmədiyim bir yazısan…

**12.01.2010**

***

Sən yenidən qanatdın
qaysaq tutan yaramı,
Duydum ki, mənim sevgim
sənə yaramır…

**12.01.2010**

***

Yenə də ayrıldığın insan
yadına düşdü,
Yenə də can atdın
sən ora.
Təzəcə başladığın
sevgi dastanına verdin
sən ara…

İçindən kükrəyən
peşimançılıq seli
məni yad bir insan kimi
atdı kənara…
Sarmaşıq meydan
oxudu çinara.
Əyilməyinə əyilmərəm,
ancaq quruyub sınaram.
Yenə də özümü
kimsəsiz sanaram…

**12.01.2010**

***

Mən səni
unutmağa çalışacam
aram-aram.
Qəlbində ayrı sevgi
yurd salan insanı
bir də aramaram…

**12.01.2010**

***

Hikkə çayları çağladı,
Sısqa arxı gur elədik.
Qaş düzəltdiyimiz yerdə,
Vurub gözü kor elədik…

**12.11. 2009**

***

Sanki onun günüsüsən, günüsü,
Camalına həsrət çəkir gün özü.
Şəfəq saçan ağ əllərin elə bil
Bu vaxtacan görməyibdir gün üzü…

**03.02.2009**

***

Sən dövlətsən,
Sən varsan,
Nə yaxşı ki.
Sən varsan!

**01.02.2010**

***

Mən itəcəm
sevgim səni isitməsə.
Qəlbindəki
o pozulmaz iz itməsə…

**02.02.2010**

***

Qəlbimdə
dərd yuva qurub,
Ürəyim
gülmür ki,
gülmür.
Səni bəxtəvər eləyəcək
qismətin
Yamanca gecikir,
Gəlmir ki, gəlmir…

**02.02.2010**

***

Söylə, nə tez yoruldun?
Özgəyəmi yar oldun?
Hikkə qılıncı ilə
Sevən qəlbim yarıldı…

**02.02.2010**

***

Gördü ki,
Canavar gəlir.
İt itdi.
Ya Alabaş olsun,
Ya Qarabaş –
İt itdi…

**02.02.2010**

***

Az qaldı yolumu çaşım,
Bir şeytan güldü üzümə.
Şükürlər olsun Allaha,
Yenə qayıtdım özümə…

İçimdəki sevgi nuru,
İçimdəki qar ağlığı,
Bəmbəyaz rəngə boyadı
Önümdəki qaranlığı…

**02.02.2010**

## ÇƏRÇİVƏ

Elə bilirdim ki,
mənim məhəbbətim
çərçivələri dağıtmaq
gücündədi…
Ancaq sən dedin ki,
mənim sevgim də,
yaxşılığım da
çərçivə içindədi…
Bu vaxtacan
sevdalı qəlbimin
bir kimsə ilə
olmayıb qərəzi.
Ömrüm boyu həyatımın
bəzəyinə çevrilib
mizan-tərəzi.
Həmişə bilmişəm
öz yerimi, öz həddimi.
Ancaq bir kimsə
poza bilməyib
könül dünyamın sərhəddini.
Lakin bu cür həyat
sənin xoşuna gəlmir, –
"Çərçivədə" yaşadığım üçün
məni qınayırsan. –
Sənin nə vecinə
haqsız sözlərindən
ürəyim qanayırsa?!
Düşüncələrim ağrılarımı
bir az səngitdi,

bir az azaltdı.
Ürəyim də çərçivə içindədi,
ancaq təpədən dırnağacan
azaddı…
Dünyaya meydan oxuyan
günəş belə
yalnız gündüzlər doğa bilir.
Gözlərim çərçivə içindədi,
ancaq bəbəklərimə
bir dünya sığa bilir…
İçimi nura qərq eləyən
saysız-hesabsız şüalardı.
Okeanlar, dənizlər
çərçivədən çıxsa,
dünyanın üzünü su alardı…
Mən ömrün sahilinə
yan alan gəmiyəm,
Sənisə dalğaların qoynunda
həsrətli gözlər gözləyir…
Mən sənin nəzərində
akvarium balığı kimiyəm,
səni isə çaylar,
dənizlər gözləyir. –
Məni ağrıdan,
məni göynədən bax budu!
"Çərçivəli dünyaya"
"Əlvida!" demək vaxtıdı!
Ancaq…
Qışa nifrət eləyən
Yazdan da olar, unutma!

Çoxa qane olmayan
azdan da olar, unutma!
Həmişə gözlərin yol çəkir,
Həmişə bir küncə qısılıb
ağlamaq istəyirsən.
Çərçivə pisdisə,
niyə sevdiklərini çərçivədə
saxlamaq istəyirsən?
Darıxma, istəklinə
qovuşacaqsan bu yaz! –
Hər sözün tikanlı bir oxdu.
Nə istəyirsən düşün,
nə istəyirsən yaz,
səni çərçivədə saxlamağa
haqqım yoxdu…
İstimdən isinə bilmədin,
gözlərin kor oldu tüstümdən.
Ancaq nə vaxtsa
şəklimi bir çərçivəyə salıb,
asacaqsan başının üstündən…
Gözəl günlərin öndədi,
Səni sonsuzluq,
ucsuz-bucaqsız bir
gülzar gözləyir…
Məni isə sonuncu çərçivə –
Dördkünc bir məzar gözləyir…

**P.S.**
Çərçivədən
çıxa bilməyən "sevgilin"
evdə, ailəsinin içindədi.

Çərçivəyə sığa bilməyən
sevdiklərinin isə
biri Türkiyədə,
biri Çindədii…

**21.02.2010**

***

Elə bilirdim ki,
mənsiz qalanda
məni düşünüb,
ömrünü gülüstana
döndərirmişşən!
Sən demə öz ”mən”ini
Uzaq bir diyara
göndərirmişşən!
Səndə mənim üçün
qalmayıbmış bir zərrə də.
Mən isə ümman görürmüşəm
Kirpiklərindən asılan zərrədə…

**21.02.2010**

***

Heç olmasa qabaqlar
qəlbindən “iz itmirdi”;
Mənim sevgim səni
yetərincə isitmirdi;
İndi ömrümü
zülmətə döndərmisən,
İndi “Mən”ini – varlığını
təpədən dırnağacan
sevdiyin bir insana
göndərmisən…

Onsuz da görüşlər, vidalar
mənim alın yazımdı.
“Mən”ində “mən”
qalmayan sevgili
mənim nəyimə lazımdı?
İçin düyün-düyündü,
onu yonub hamarlamaq
rəndə işi deyil.
Yenə Allaha yalvar,
Səninki bəndə işi deyil…

**21-22.02.2010**

## MƏNİM QISQANC ÇİÇƏYİM

Mənim qısqanc çiçəyim,
Öpüşümdən doymursan.
Ayrı gülün üstündən
Uçmağa da qoymursan.

Mənim qısqanc çiçəyim,
Gözündən sevgi daşır.
Mənim qısqanc çiçəyim,
Mum edir sevgi daşı…

Sən sevdalı bir gülsən,
Mənsə bir ac arıyam.
Kimsə aça bilməyən
Qəlbinin açarıyam…

**16.03.2010**

***

İlahi, bu qızın
göz yaşlarına
qıyma! –
İlahi, bu qızı
tənha qoyma!

**31.03.2010**

## EHTİYACIN VAR

Bəbəklərində qəm olan,
Gözləri hər an nəm olan,
Yaralara məlhəm olan,
Sözümə ehtiyacın var.

Yel vurub, açılıb yaxan,
İçimdə şimşəkmi çaxan?
Üzünə sevgiylə baxan
Gözümə ehtiyacın var.

Qaşlarını çatmaq üçün,
Muradına çatmaq üçün,
Təzə ocaq çatmaq üçün
Közümə ehtiyacın var.

Dahi nədi, düha nədi?
Ucuz nədi, baha nədi?
Sözüm, közüm bəhanədi,
Özümə ehtiyacın var…

**16.03.2010**

***

Bulağın suyu qaynayır,
Qayaları dəlib çıxır.
Sevgi də göz yaşı kimi
Çağrılmamış gəlib çıxır…

**2010**

***

Ölümdən söz düşəndə
üzünü bürüyən
dumanı, çəni gördüm.
Gözlərindən
yaş elə qaynadı ki,
məndən sonra
kimsəsiz qalan
səni gördüm…

**01.04.2010**

***

Ürəyinə bir yaxın,
Doğma simsar gəzirsən.
Sən ayrı fəzalara
Uçmağa tələsirsən.

Yollarına göz dikib
Neçə nurlu simalar.
Sənə çiçəkli yollar,
Sənə aydın səmalar…

**10.04.2010**

***

Əvvəl-axır
mənsizliyə də
öyrəşəcəksən,
həyat yollarında
hələ neçə dost,
neçə simsar
dəyişəcəksən…
Təskinliyim budur ki,
Günəş şəfəq yayır
dumandan,
çəndən sonra…
Təskinliyim budu ki,
tənha qalmayacaqsan
məndən sonra…

**10.04.2010**

***

Düz eləyirsən
yavaş-yavaş
soyumaq lazımdı.
Ayrı bir arzunun
qolları üstündə
uyumaq lazımdı.
İndidən taleyini
onunla bağla –
Kim gəlirsə xoşuna.
Onsuz da mən səninlə
qoşa gedə bilməyəcəm
mənzil başına.

**10.04.2010**

## BELƏ GETSƏ…

Belə getsə,
kirpiklərinlə çox odlar
götürəcəksən.
Belə getsə,
köhnə sevgi dastanını
bitirəcəksən.
“Sən mənim
hər şeyimsən” –
deyirdin. –
Belə getsə,
hər şeyini itirəcəksən…

**10.04.2010**

## YAŞAYACAM

Həsrət qəlbimi tən yarı
Bölənəcən yaşayacam.
Yollarını gözlədiyim
Gələnəcən yaşayacam.

Ürəyim baxmır sözümə,
Yuxu da getmir gözümə,
Taleyim mənim üzümə
Gülənəcən yaşayacam.

Qoyma sönməyə odumu,
Sevgi yaşadır adamı.
İllər qəlbindən adımı
Silənəcən yaşayacam.

Bu dünyadan doymur gözüm,
Ayrılığa necə dözüm?
Narahat olma, əzizim,
Ölənəcən yaşayacam…

**25.04.2010**

## SEVGİ ÇAĞIRILMAMIŞ QONAQ TƏK GƏLİR

Dünyaya gələndə insan tək gəlir,
Kölgə sala bilmir çıraq dibinə.
Sevgi çağırılmamış qonaq tək gəlir,
Ancaq sonra dönür ev sahibinə…

Xəbərin olmadı eşqin közündən,
Odu öləziyən bir ocağam mən.
Çıxıb gedəcəyəm bu yer üzündən,
Səni yana-yana qoyacağam mən…

**22.02.2010**

***

İllər ötdü, saçımda
Oldular sevgilər dən.
Rahatlıq istəyirəm,
Yoruldum sevgilərdən…

**2010**

***

Payız da gözəldi, qış da gözəldi,
Gözündə bərq vuran yaş da gözəldi.
Sevgiylə baxmağı bacara bilsən,
Torpaq da gözəldi, daş da gözəldi…

**22.09.2009**

***

Söz göynəyir dodağımda, deyə bilmirəm,
Elə bil ki, qulluğuna əsir gəlmişəm.
Sən bu qədər narazısan niyə, bilmirəm,
İndiyəcən səndən nəyi əsirgəmişəm?

**2009**

***

Sənin sevgi göylərində
Necə şimşək kimi çaxım?
Solan ümidlərin üstə
Necə yağış kimi yağım?

Nəfəsimi dərə-dərə
Çiçəkləri çətin dərəm!
Yolumu gözləyir dərə,
Gərək selə dönüb axam!

Bir çay kimi daşa-daşa,
Hey çırpıldım dağa-daşa.
Ümidlərim çıxdı boşa –
Bu dərdə dözdümsə, dağam…

Sonu var axan selin də, –
Uyuyur sevgi gölündə.
Bir kor həsrətin əlində
Yenə də qalıbdı yaxam.

Düşmüşəm qara, sazağa,
Gözlərim baxır uzağa.
Dönmüşəm ac yalquzağa,
Daha sənin üçün yoxam…

**01.12.2009**

***

Qəlbində dediyin sözü,
Canım-gözüm, eşidirəm.
Ürəyimin nəğməsini
Təkcə özüm eşidirəm.

**2010**

***

Başımda sevgidən
qızıl bir tacım var, –
deyirsən.
Yalvarırsan ki,
özümə yaxşı baxım.
Mənə ehtiyacın var, –
deyirsən
Gözlərinin qarşısında
sonsuz bir ilğım…
Bu sevginin yükünü
ömrümün sonuna qədər
daşısam, bəsimdi.
Mənə ehtiyacın
olana qədər
yaşasam bəsimdi…

**02.05.2010**

***

Yatanda elə bil
əlim dünyadan
üzülmüşdü,
gözlərimi açanda
pəncərəmə
yağış damlaları
düzülmüşdü…

Bu damlalara baxanda
bəbəklərim sevincdən
od tutub yanırdı.
Bu yağışın
hər damlasından
həyat eşqi boylanırdı…
Bəxtəvərlər bəxtəvəri
olmuşdum
bir cüt sevdalı
baxışın altında.

**02.05.2010**

## BİZ KİMİK TALE DƏYİŞƏK

Vaxtsız xəzan hücüm çəkdi
Sevgimizin bağlarına.
Yaz günündə qar ələnib
Eşqin uca dağlarına.

Bu sərinlik nə payızdan,
Nə qışdan, nə qardan gəlib,
Özün çox gözəl bilirsən
Bu soyuqluq hardan gəlib.

Hər sevginin bir qışı var,
Saçlarında qar güləcək.
Heç darıxma, taleyinə
Təzə bir bahar gələcək…

Biz kimik tale dəyişək,
Hər alında bir yazı var.

Gedən getdi, önümüzdə
Təzə bir eşqin yazı var…

**18.04.2010**

## YOLAYRICI

Bu da mənim
qismətimdi –
Haqqım varmı
taleyimə acıyam?
Yoxdu ayrı
bir təmənnam,
saygı, diqqət
acıyam…
Bir vaxt
seçdiyin yol idim,
İndi yolayrıcıyam…

**18.05.2010**

## DAR AĞACI

Bir vaxt sevgi
ocağı idim,
Belə getsə,
sönəcəm.
Bir vaxt
bar ağacı idim
sənin üçün,
İndi dar ağacına
dönəcəm…

**18.05.2010**

## YOLLARIMIZ HAÇALANIR

Qəlbim dərddən parçalanır,
Düşdüm yalan selinə.
Yollarımız haçalanır
Dönüb ilan dilinə.

Gözlərinin qarasında
Bir gecikən səhər var.
Haça dilin arasında
Bircə gilə zəhər var…

**18.05.2010**

## NƏ ZAMANDI Kİ…

Nə zamandı ki,
xəyala dalıb
öz-özünə danışırsan.
Qəlbinə, sevginə layiq
bir eşq məbədi
yapmağa çalışırsan…
Kərpic-kərpic ucaldırsan
bu məbədi.
Unudursan ki,
nə eşq, nə də ömür
deyil əbədi…
Kənardan sənə
gəl-gəl deyən işartılara
salmısan meyil sən.
Tikdiyinin nə olduğunun
fərqində belə deyilsən.

O hasarı
kərpic-kərpic hörürsən, –
Fikrin qətidi.
Unudursan ki,
bu məbəd yox,
sənə deyiləcək
dəhşətli bir sözün
postamentidi.
Belə getsə,
başımızın üstündə
Göy gurlayacaq,
İldırım çaxacaq.
"Əlvida" sözü
ucaltdığın postamentin
üstünə qalxacaq…

**02.06.2010**

***

Pərvanə qəlbin can atır
Ayrılıq közünə sarı.
Özgələri maqnit kimi
Çəkirsən özünə sarı.

Pozulmaz yazılan yazı,
Tufanlarda ruhun azıb,
Yaxındır eşqin payızı,
Enəcək gözünə sarı.

Sevən ürəyin quş olub,
Uçub kiməsə qoşulub.
Hicran bir qətrə yaş olub,
Can atır gözünə sarı.

Küründən ayrılır Araz,
Gözdə qaldı arzu-muraz,
Hər gün yol gedirik bir az
Əlvida sözünə sarı…

**02.06.2010**

***

Mən səndən ötrü
çoxlarından ayrıldım,
Sən isə özünü məndən
uzaqlaşdırmaqdan
yorulmursan.
Gözünü lil tutan
bir bulağa
bənzəyirsən, –
durulmursan ki,
durulmursan…
Mən aciz adam deyiləm,
mən sevginin
özündən belə
bac almalıyam.
Mən atılmamışdan
çox-çox əvvəl
"Əlvida!" deməyi
bacarmalıyam…
Unutma ki.
Mən buna qadirəm.
Mən sevgimdə də,
nifrətimdə də
nadirəm…

**12.06.2010**

***

İçimi yaxan hikkə
amansızdı, quduzdu –
uduzdun,
sən uduzdun…
Gözlərimdən ayrılan
qanlı göz yaşı deyil,
sevgi göylərindən axan
ulduzdu –
uduzdun,
sən uduzdun…
Könül tarını yenidən
köksünə basmaq istəyəndə
üstündəki qoşa simi
itirdiyini biləcəksən;
əllərin əllərim üçün
darıxanda
kimi itirdiyini
biləcəksən…

**11.06.2010**

***

Belə getsə,
hər şey solacaq. –
Beş-on günə
sevgi bağımızda
gül qala, ya qalmaya?!
Bu sevgi ocağı
gündən-günə öləziyir,
yerində bircə ovuc
kül qala, ya qalmaya?!

**11.06.2010**

***

Mənim ürəyim
qırılmış dibçək kimidi,
sənin ürəyin
özünə yuva axtaran
çiçək kimidi.
Gül əkməyə
təzə dibçək
axtara-axtara
içimdəki gülləri
soldurursan.
Soluxan ləçəklərimin
üstünü
laqeydlik çamuru ilə
doldurursan.
Qaysağı qopan
yaralarımı
əsnəyə-əsnəyə
dilləndirirsən.
Sevgi bulağımın gözünü
öz laqeydliyinlə
lilləndirirsən…

**11.06.2010**

***

Havalar soyuyanda
quşlar özgə ölkəyə
köçür.
Bablı-babını tapmayanda
günü ah-vayla
keçir…

**11.06.2010**

***

Bir daha sevgi şeiri
Yazmayacam, – deyirsən;
Qəlbimi şama döndərib,
kiminsə başının üstündən
asmayacam, – deyirsən.
Özün də yaxşı bilirsən ki,
bir çiçəklə yaz olmaz.
Sevgi özü olmayanda
sevgi şeiri də yazılmaz…
Tələsməyə dəyərmi? –
Düşünməyə vaxtın
çoxdu hələ.
Ötən məhəbbətə ağı yazdın,
gələn məhəbbətin isə
yoxdu hələ…
Elə bil dünyanın
ən böyük daş-qaşını
salıb itirmisən.
Həyatında tək bircə dəfə
sevmişdin,
onun da nəğmələrini
yazıb bitirmisən…
Ürəyində zərrəcə
sevgi olsaydı,
belə deməzdin. –
Sevdalı bir ürək
susa bilməz axı?!
"Mən"ini təpədən dırnağa
özgəyə verən insan
mənə sevgi nəğməsi
yaza bilməz axı?!

**16.06.2010**

***

Bilmirdinmi çox axtaran
Bir gün azdan da olacaq?! –
Qarlı qışa ağız büzən
Güllü yazdan da olacaq…

Sevgi qəlbindən perikdi,
Çiyninə ağrı yükləndi.
Günahı özgədə görmə,
Sən tək deyildin, təkləndin…

**2010**

***

Sən öz qısqanclığınla
qara eləmisən
günümü.
Sənə əbədi
ayrılıqmı gərəkdi,
günümü?
Hisslərimi
tarıma çəkirsən,
Əsəblərimi itiləyirsən.
Sən öz qismətini
uçuruma sarı
itələyirsən…
Elə bilirsən qısqanclığın
sevgimizi qoruyacaq?
Belə getsə,
sevgi bulaqları
quruyacaq…

**05.06.2010**

## BAĞIŞLA

Çox söylədim: – Sən bu yoldan dönsənə! –
Eşitmədin, baxdın küskün baxışla.
Ürəyimi bağışladım mən sənə,
Onu qırıb, söylədin ki, bağışla!

Bilmirəm kim salıb səni tilsimə?
Kədərliyəm, gülmür ürək, neyləyim?
"Bağışladım" söyləsəm də mən sənə,
Bağışlaya bilmir ürək, neyləyim?

Şərbət deyil, zəhər imiş içdiyim,
Uf demədən duz səpirsən yarama.
Nə əkmişdin, indi odur biçdiyin,
Sən günahı özgələrdə arama.

Gecdi, baxma elə küskün baxışla,
Tənha qalan ürək qəmli, mükəddər.
Qəlb sındırıb söyləyirsən: – Bağışla! –
Bağışlamaq asandımı bu qədər?!

**07.07.2010**

## MƏNSİZ DÜNYA

Çox gözəldi, – həyat deyil doyası, –
Bir işıq var söhbətində, sözündə.
Mən imişəm dərdlərinin mayası,
Mənsiz dünya gözəlləşib gözündə…

Doğma qollar dolanıbdır boynuna,
Kiminçünsə huri-pəri olmusan.

Mənsiz dünya alıb səni qoynuna,
Bəxtəvərlər bəxtəvəri olmusan…

Susan qəlbin dil açacaq nə vaxtsa,
Neçə xoşbəxt qışın-yazın olacaq.
Arzuların gül açacaq nə vaxtsa,
Mənsiz dünya alın yazın olacaq…

**12.07.2010**
**Nabran**

***

Sən onu necə hörmətlə,
izzətlə xatırlayırsan!
Sən onu necə sevgiylə,
məhəbbətlə xatırlayırsan! –
Heyf ki, bunları
duymadım vaxtında.
Hələ odur əyləşən
qəlbinin şahlıq taxtında…
Hər pisin içində
bir yaxşılıq var –
Yadından çıxmır
onun sənə elədiyi
yaxşılıqlar. –
Yaxşısı budur ki,
ayrılaq yaxşılıqla!
Yadından çıxmır
xəyalında ailə
quracağın adam.
Səni xoşbəxt eləməyə
qadir deyil
qəlbini hər gün
qıracağın adam…

Mən sevdiyim insanın
ürəyinin bir küncündə
qərib qonaq olmaq
istəmirəm;
Mən kiminsə ömrünə
yamaq olmaq
istəmirəm;
Mən kiminsə sevgisinə
ortaq olmaq
istəmirəm…
İndi səndən
çox-çox uzaqdadı
könül bağladığın insan.
Hər gün
gizli-gizli xatırlayıb,
dalınca ağladığın insan…
Elə ürəklə,
sevgiylə dedin ki,
"ailə quracağım adam"
sözünü,
Yanında günahkar
sandım özümü.
O sevginin bəhrəsi olacaq
xəyali bir körpə uyuyur
qolunun üstündə.
Bir qara divə
dönübmüşəm
sənin səadətə
doğru gedən
yolunun üstündə…

**23.07.2010**

## CƏLLAD HİCRAN

Gözlərin kim üçünsə qan ağlayır,
Cəllad hicran dönüb əfi ilana.
Üzün gülür, içinsə qan ağlayır,
Mənə "sevgin" bələnibmiş yalana…

Qəlbim yanır sən uzağa baxanda,
Həsrət nuru kirpiyindən asılır.
Unudulmaz adam yoxdu cahanda, –
Taleyimə unudulmaq yazılıb…

Bu dünyada dahilər də uduzur,
Yerim yoxmuş qəlbinin bir küncündə.
Olammadım taleyinin ulduzu, –
Bir sehrli çıraq varmış içində.

Həyatında yaratmadım möcüzə,
Həsrətinə qan uddura bilmədim.
Düşünməzdim heç bu qədər acizəm, –
Ötənləri unutdura bilmədim.

Heç bilmirəm sənlə necə davranım? –
Xəzan vuran bağa gülzar yaraşmır.
Ötüb keçib mənim ömür karvanım,
Daha mənə giley-güzar yaraşmır…

**24.07.2010**

***

Bir zaman vaz keçdiyin
qərib diyar
indi maqnit kimi səni çəkir. –
İndi hər gecə xəyallarında

ora uçursan,
indi yuxu da getmir gözünə…
Bircə qanadın yoxdu uçmağa;
Xəyalında sevinə-sevinə
gedirsən uçağa!
Buludları yara-yara uçursan,
zorla ayrıldığın o adamın
yaşadığı diyara uçursan.
Təyarədən düşəndə
gözlərindən sevinc
yaşları səpsən,
təəccüblənmərəm.
Onun ayağı dəyən torpağı
diz çöküb öpsən,
təəccüblənmərəm.
Təəccüblənmərəm
qaçıb getsən başı açıq,
ayağı yalınca –
"Mən"ini təpədən dırnağacan
aparan sevimli insanın,
yaxşı insanın,
xeyirxah insanın dalınca…
Sevgi meyvələrini əkib,
göz yaşlarınla suvarmısan,
indi gedib onları
öz budağından
dərmək qalır.
Onsuz da karvan
öz işindədi,
biçarə köpəyə
hürmək qalır…

**26.07.2010**

***

Sən hələ
sevgi dünyasında
mənim qədər
at çapmamısan. –
Elə bilirsən ki,
axtardığın odur
kim gülsə üzünə.
Sən hələ özünü
tapmamısan,
Özünü tapmayan
necə sevgili
tapa bilər özünə?

**15.10.2010**

***

Şeytan köməyinə göndərdi
qara-qara qüvvələri.
Böyük sevgini şiltik-şiltik elədi
xırda-xırda sevgi güvələri…

**03.02.2010**

***

Sevgi səhrasında qumsan,
Hələ göyərməmiş tumsan,
Bu qədər ki,  hikkəlisən,
Tənha qalmağa məhkumsan.

Döndüm döyülmüş uşağa,
Yer qoymadın barışığa.
Sən özün barmaq tıxadın
Qəlbinə düşən işığa.

Ayrılıq düşdü araya,
Qarışdı haray haraya.
Daha ötüb getdi qatar,
Çatacaq haray haraya?

Saçlarında dən gedirsən,
Gözlərində çən gedirsən.
Bir vaxt ömrümə gəlirdin,
İndi ömrümdən gedirsən…

**03.02.2010**

***

Nə itirənim var,
nə arayanım. –
Həsrət dənizində
tənha adamıyam?
Sənə yeni
dünya gərəkdi,
mən isə
köhnə dünyanın
adamıyam…

**03.02.2010**

***

Gözlərin yenə də
uzaq-uzaq üfüqlərə dikildi.
Bu sevgi mövsümünün
yarpaqları
bircə gecəyə töküldü.
Sənin taleyinə yazılsa da
sevginlə köksümü odlamaq,
hələ heç bir yarpağa

qismət olmayıb
bu payızdan
o bahara adlamaq…

**03.02.2010**

## İÇİMDƏ EŞQ HAVASI VAR

İlk gündən xeyirlə şərin
Çarpışması, davası var.
Təslim olma hər ağrıya,
Hər dərdin bir dəvası var.

Çiçəklər ətir qoxuyur,
Dilsiz qayalar oxuyur,
Dünya əyirir, toxuyur –
Cəhrəsi var, həvəsi var.

Ruhumu oxşayır səsin,
Sevgi oyadır nəfəsin.
Qəlbində eşq olan kəsin
Yaratmağa həvəsi var.

Gözümdə yaş puçur-puçur,
Xəyalım göylərə uçur,
Yaxşı ki, günəş nur saçır,
Yaxşı ki, bu hava, su var!

Kim yazdı bu bəxti mənə? –
Qara gözlər baxdı mənə.
Daha zaval yoxdu mənə
İçimdə eşq havası var…

**05.02.2010**

***

Gör sevinə-sevinə
nə əkmişdim,
Gör ağrıya-ağrıya
nə dərdim?!
Bircə anda
hər şey dəyişdi,
hər şey yox oldu.
Güvəndiyim dağa
qar yağsaydı
nə dərdim? –
Güvəndiyim dağ uçub
bir təpənin ayağına
yıxıldı…

**21.12. 2010**

***

Mənə lazım deyil
daşlaşan,
büst olan sevgi.
Mənə lazım deyil
Sənin bir
təzə tanışlığınla
alt-üst olan sevgi…

**21.12.2010**

***

Heç zaman səni
belə xoşbəxt görməmişdim, –
Sevincdən qol-qanad açıb
uçurdun…
Ancaq təzə bir
tanışlıq bəxtəvərliyi ilə

müqəddəs bir
sevgi sarayını
uçurdun…
Tezliklə görəcəksən ki,
başının üstündə vızıldayan
bal arısı deyil,
qara bir milçəkdi.
Sənin sevincin
tər-təmiz bir sevginin
gözünə mil çəkdi…
Dodaqların sevgi şərbətinə
bata-bata gedirsən.
Onsuz da öyrəncəklisən,
ata-ata gedirsən…

**21.12.2010**

***

İçimi didib parçaladın
başımın üstünə
quzğun sürüsü gəldi.
Birini təzəcə
unutdurmuşdum,
o birisi gəldi…

**21.12.2010**

***

Heç bilmirəm nə ad verim
Qəlbimdəki bu həvəsə?
Nə qədər yaşamaq olar
Günahla nəfəs-nəfəsə?

***

Necə sənə inanırdım,
Necə səni sevirdim! –
Öz sevgimlə həyatımı
Cəhənnəmə çevirdim…

***

Sözlərin yalan, saxta,
Ayrılıq çıxdı taxta.
Bizi ayrı salanlar
Qan qussun laxta-laxta…

***

Qəlbim səni bağışlamaz
Bu yoldan geriyə dönsən.
Gözüm yumulanda belə
Onların önündə sənsən…

***

Ehtiyacın var sığala,
Məktubla yara sağalar?!

***

Kaş sənin ilahi gözlərin
Ancaq mənim üçün dolaydı.
Kaş sənin qara xalın
Sevgi yolumun sonunda
son nöqtə olaydı…

***

Əbədi ayrılıq mənə çəkdi dağ,
Sənə də qar düşdü güvəndiyim dağ…

***

Eşqin göylərini aldı buludlar,
İçimdə bir əlçim qara bulud var…

***

Həsrət sazağı qəlbimi üşütdü,
Deyəsən Tanrım dualarımı eşitdi…

***

Ayağını yerə möhkəm bas,
Qəlbinin səsinə qulaq as…

***

Mən qazandıqlarımı
itirə-itirə gəlirəm,
kəsilib mənli anların səsi-ünü…
Sənin üçün beləcə başladı
Təzə sevginin ilk günü…

***

Vəfalı yarı olanın
Heç zaman ocağı sönməz.
Sevgi quşdur, perikdirsən
Bir daha geriyə dönməz…

**2010**

## SƏNLİ DÜNYA

Bu rəvamı mən sevinim,
Sən inlə? –
Sağaldacam bir gün könül yaranı!
Tale məni görüşdürüb səninlə,
Ürəyimdə bir gülüstan yaranıb.

Eşitmirəm daha əcəl zəngini,
Ocaq olmaq arzusu var közümdə.
Dağlar, düzlər dəyişibdir rəngini,
Bomboz dünya gözəlləşib gözümdə…

Məhəbbətin ömrümə nur ələyib,
Əkdiyimiz eşq gülləri solmasın.
Sənli dünya məni xoşbəxt eləyib,
Sənsiz dünya mənə qismət olmasın!...

**02.01.2011**

***

Elə bil himə bənd imiş
Uçub dağılan qalaçam.
Bilmirəm nə vaxta qədər
Gözü kölgəli qalacam?!

Ürəyin yumşalacaqmı
Eşidib hər gün ahımı?
Görən yuya biləcəmmi
Mən qarşında günahımı?

Ürəyim sahibsiz qalıb –
Ölən ölüb, köçən köçüb.
Bacarsan, məni bağışla,
Olan olub, keçən keçib…

**02.01.2011**

## SƏNSİZLİK

Ciyərlərim
saçlarının ətrinə öyrəşib,
Sanma ki, hər nəfəsi
hava sanıram!
Evdə oturanda
havam çatmır,
Bayıra çıxanda
havalanıram…

**04.01.2011**

***

Ömür boyu göynəyirik,
Boğuluruq ah içində.
Biz günahsız doğuluruq,
Ölürük günah içində…

**2010**

***

Timsah
Şirə söylədi:
–Sənə heyvanlar
şahı deyirlər,
suya gir görək
kim şahdı?
Heyvanların güclüsü,
heyvanların qadiri
Timsahdı…

**2011**

## HEYF

Heyf! Gözlərinin yaşını
quruda bilmədim;
Ürəyində sevgi tufanı
yarada bilmədim;
Səni yarıda bilmədim!

**2011**

***

Hərdən qəlbimi didib tökür
"əbədi ayrılıq" sualı? –
Bircə sən ağlama! –
Sən ağlayanda
Dünyanın üzünü su alır…
Üstümüzə hücum çəkir
kükrəyib-daşan sunami.
Hər şey uçub-dağıldı,
Bu sevgi də yetdi
sonamı?!
Bir qartal
caynağına vurub apardı
mənim yaşılbaş sonamı…

**2011**

***

Əsər də qalmayıb səndə sevgidən,
Yarıya bilmədin sən də sevgidən.
İlahi bir eşqin gəldi süqutu,
Qəlbimi göynədir sənin sükutun.
İçimdə qu desən tutular qulaq,
Elə bil quruyub qaynar bir bulaq,
Elə bil soyuyub yanar bir ocaq…

**22.03.2011**

***

İçimdə fırtına kükrəyir, daşır,
Qamətim bükülmüş, boynum əyilmiş…
Heyf, o gözlərdən çağlayan yaşı
Qurutmaq mənə də qismət deyilmiş…

**22.03.2011**

***

Qəlbimi verdiyim insan
Məni yolayrıcında qoydu.
“Səni dünyalar qədər
sevirəm” deyən
Ürəyimə
dünyalar qədər əzabı
necə qıydı?!

**22.03.2011**

***

Məhəl də qoymursan
çiynimdə qəm yükü
daşımağıma;
Məni içimdən gələn
səsə də,
Qəlbimdən boylanan
həvəsə də qısqanırsan.
Məni aldığım
nəfəsə də qısqanırsan…
Belə getsə,
içindəki qəzəb seli
uyumayacaq;
Divardan asılan şəklimlə
üz-üzə qalmayınca
hirsin soyumayacaq…

**25.03.2011**

***

Ürəyini ağrıdır
tənhalıq, mənsizlik.
Heyf ki, deyilmişəm
mən sizlik!

***

Deyirdin
axtardığını tapmısan. –
Elə isə daha nə gəzirsən?
Aydınca görünür ki,
məndən ayrılmağa
bəhanə gəzirsən…
Haqqım yoxdu
yollarını bağlamağa.
Haqqım yoxdu
səni zorla tutub saxlamağa.
Gərək özüm özümə
gün ağlayım,
Gərək bu sevgidən
əl üzüm.
Ruhu uzaqlara can atanın
cismini saxlamağa
nə lüzum?!

**26.03.2011**

***

Ürəyimiz
həsrət zəhəri ilə
parçalandı.
Yollarımız
ilan dili kimi
haçalandı…
Mümkün deyil yalandan
xoşbəxt görünmək.

Nə ilan dili çıxarıb
yalmanmaq vaxtımdı,
Nə də kiminsə
arxasınca sürünmək…

**26.03.2011**

***

Gedənə
yalvarıb-yaxarmaq
hədərdi, hədər;
Dediyin acı sözləri
çətin ki, adam uda!
Ancaq unutma ki,
özünü tapmayana qədər
tapa bilməyəcəksən
axtardığın adamı da…

**26.03.2011**

***

Heç bilmirəm
nə yazıram,
Yenə də oxum
dəyib daşa.
Öz sevgimi
qurban verməyə
hazıram,
Təki sən
xoşbəxt yaşa!

**26.03.2011**

## BİR QƏTRƏ YAŞIN İÇİNDƏ

Əbədi sakinmiş həsrət içində, –
Yenə dikilibdir hara gözlərin?
Ürəyin çırpınır həsrət içində,
Yaşla siləlValnib qara gözlərin…

Nədir üzündəki bu qorxu, təlaş,
Dilsiz baxışların tufan qopardı.
Sənin kirpiyində giləlValnən yaş
Mənim ümidimi yuyub apardı.

Yandırıb-yaxırmış qəlbini həsrət,
Bahar uyuyurmuş qışın içində.
Uca dağ sandığım ülvi məhəbbət
Qərq oldu bir qətrə yaşın içində…

**18.04.2011**

***

Yoxsa yağış kimi yağıb getmisən?
Qoşulub sellərə axıb getmisən?
Bəlkə görməyəcəm səni bir daha,
Bəlkə, doğrudan da, çıxıb getmisən?

**2011**

***

Sən demə
başqasının
yanındaymış
yarı canın. –
Axı mən neyləyirəm
yarı canı?!

**22.05.2011**

## ƏLVİDA, ƏZİZİM

Sevinc sahilinə necə keçim mən,
Ürəyim üzürsə qəm dənizində?
Ağacı yeyirsə qurd öz içindən,
Kimə inanasan bu yer üzündə?

Özü qalxmalıdı özü büdrəyən,
Gülləri quruyan bağçaya gəlmə!
Ömür ağacında tir-tir titrəyən
Bir yarpaq misallı qocaya gülmə!

Hara tullasan da incidir inci,
Həsrətin yüngülü, ağırı yoxdu.
Nə özünü danla, nə məni incit,
Onsuz da bu eşqin axırı yoxdu…

De ki, bu qəm deyil, sevinc yaşıdı, –
Qara gözlərinin nəmini aldat!
Əlvida, əzizim, belə yaxşıdı,
Nə özünü aldat, nə məni aldat!

**21.05.2011**

## MƏNLİ DÜNYA, MƏNSİZ DÜNYA

Bir zamanlar nəfəs idim səninçün,
Öləziyib gözündəki şəfəqlər.
Mənli dünya qəfəs idi səninçün,
Mənsiz dünya – gəl-gəl deyən üfüqlər!

Üzündəki qatı duman çəkildi,
Saçlarında doğma əllər gəzəcək.

Mənli dünya xəzəl olub töküldü,
Mənsiz dünya qönçə tutub təzəcə…

Daha sevinc boylanacaq gözündən,
Əzabların baş götürüb gedəcək.
Mənli dünya səni aldı özündən,
Mənsiz dünya səni xoşbəxt edəcək…

**22.05.2011**

## TANRI DƏRGAHINDAN YERƏ BAXANDA

Qəlbimi dinc qoymur həzin duyğular,
Mən qışam, səninsə üzün yazadı.
Bitib tükənməyir dərdlər, qayğılar,
Xoşbəxt olmaq üçün ömür qısadı…

Yolunun üstündən çıxmasam əgər,
Sən öz muradına yetməyəcəksən.
Mən yağışa dönüb yağmasam əgər,
Sən çiçəyə dönüb bitməyəcəksən.

Elə bil içimdə dinir şimşəklər,
Sellərə qoşulub axmağım gəlir.
Qızıl nərdivana dönür şimşəklər, –
Tanrı dərgahına qalxmağım gəlir.

Dərdin əlləri var sənin yaxanda,
Gözlərin önündən duman, çən keçir.
Tanrı dərgahından yerə baxanda
Səni xoşbəxt görmək könlümdən keçir…

**08.06.2011**

***

Sən hər şeyi
düzəltmək istəyə-istəyə
səhv eləyirsən.
İsrarla
"Məni daha çox sev!"
deyə-deyə
Qəlbimdəki olan-qalan
sevgini də
məhv eləyirsən…
Məni mənliyimdən
qoparmağa çalışırsan.
Məni əşya kimi
sumkana qoyub
aparmağa çalışırsan…
Gecə-gündüz
həsrət alovunda yanırsan,
Qəlbimi nə qədər
əsir eləyəcəksən?
Məni yerə, göyə, dənizə,
meşəyə qısqanırsan,
Bəs mən yerə, göyə,
dənizə, meşəyə
qovuşandan sonra
neyləyəcəksən?

**2011, iyun**

***

Təkcə özünü düşünən
Cücərə bilməyən
çürük tumdu.

Heç kəsin sevincinə
şərik olmayan
tənhalığa məhkumdu…

**2011, iyun**

## NEYLƏYİM Kİ, SƏNİNÇÜN DARIXMAYIM, ƏZİZİM

Sənli keçən hər günüm dönüb şirin nağıla,
Sahildəyəm, mənim də ürəyimdə dalğa var,
Coşub-daşır sirdaşım olan bəyaz dalğalar,
Ürəyim tir-tir əsir görəndə o dənizi,
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

Pıçıldayan yarpaqlar məndən səni soruşur,
Gecələr yuxum qaçır, göylər nağıl danışır,
Həsrətin gözlərimdə ulduzlar tək sayrışır,
Ürəyimi göynədir ayın solğun bənizi,
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

Yollar ilan dili tək nə üçün haçalanır?
Ovundurmaq olarmı arzusu puç olanı?
Yanımda olmayanda ürəyim parçalanır,
Yüz yol ölçüb-biçirəm söylədiyin hər sözü,
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

Həyat gözəldir, ondan bezmək, usanmaq olmaz,
Acıqla, hikkə ilə sevgi qazanmaq olmaz,
Özgənin ocağında rahat qızınmaq olmaz,
Üfürməklə söndürmək olmaz işaran közü,
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

Eşidəndə ahını quşlar qanad saxlayır,
Qara-qara buludlar için-için ağlayır,
Sevdalı gözlərindən həsrət seli çağlayır,
Sevgi dalğalarında qərq olacaq yer üzü,
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

Hara baxsam, həsrətli gözlərini görürəm,
Eşqimizin bağından hər gün çiçək dərirəm,
Cavabını bilsəm də, yenə sual verirəm,
Ürəyimdən nə üçün silinmir eşqin izi?
Neyləyim ki, səninçin darıxmayım, əzizim?

**P.S.**
Ürəyim dinclik tapmaz gözüm dolmasa əgər,
Sevgi labirintinə düşüb azdın, əzizim.
Qəlbində bir ilahi sevgi olmasa əgər,
Yəqin ki, mənim üçün darıxmazdın, əzizim…

**14.07.2011**

***

Gözlərindəki həsrət ürəyimə köçübdür,
Xəyalımda adını hey əzizləyirəm mən.
Ən fərəhli günlərim səninlə bir keçibdir,
Ən ağır xəbəri də səndən gözləyirəm mən…

**13.06.2011**

## SƏNSİZ DƏ,
## MƏNSİZ DƏ…

Hər qaragözlüyə salmadım meyil
Kirpikdən süzülən seli sevmişdim.
Mən əlimə batan qanqalı deyil,
Gözündə şeh gülən gülü sevmişdim.

Tənəli sözlərin acı zəhərmiş,
Zülmətin qoynunda ölərmiş səhər.
Mənsiz də ulduzlar gülümsəyərmiş,
Sənsiz də açıla bilərmiş səhər.

Hikkə qılıncını gəl qoyaq qına,
Bir də görəcəksən düzəldi dünya.
Nə özünü danla, nə məni qına, –
Sənsiz də, mənsiz də gözəldi dünya…

Dahisən qəlbinə qulaq asanda, –
Bəzən adam görmür adicə gözlə.
“Ya mən, ya bu dünya” iddiasında
Olan yer üzündə gəzsin nə üzlə?!

Arzu çiçəklərin solmasın sənin,
Gül açar, – tikanlı çölü əzizlə!
Gözün gülüstanda qalmasın sənin,
Qismətinə düşən gülü əzizlə!

Ürək göynəməsə bəbəklər dolmaz,
Çox şey qazanarsan sən şükür ilə.
Özgənin payına göz dikmək olmaz,
Öz halal tikənə min şükür elə!

Qaranquşdan soruş yazın qədrini,
Toz atma çiçəyin şehli gözünə.
Biz əgər bilməsək azın qədrini,
Həsrət qalasıyıq çoxun üzünə.

Adam nəfəs alsa ədalət ilə,
Bir udum hava da onun bəsidi.
Adam necə böyük görünsə belə,
Ulu kainatın bir zərrəsidi.

Ağlının səsinə qulaq asanın
Ömrü şəfəqlərə boyandı bəlkə?!
Dünyanın ən böyük, dahi insanı
Zərrə olduğunu duyandı bəlkə?!

**02.08.2011**

***

Qatarla yol gəlirəm
Uzaqdan sənə sarı.
Məndən əvvəl şütüyür
Həsrətimin qatarı…

**01.08.2011**

## OLACAQ

Duymuşdum sevgi köhlənin
Eşq yolunda yorulacaq.
Ancaq üzülmə, gec, ya tez
Tale sənə yar olacaq.

Həsrət odu səngiyəcək,
Qəm karvanı ləngiyəcək,

Göy ulduzlu don geyəcək,
Axar sular durulacaq.

Bəbəyində şimşək çaxır,
Gözlərindən leysan yağır.
Çox üzülmə, əvvəl-axır
Hər şey yerbəyer olacaq…

**03.08.2011**

***

Mən adicə bir təpəyəm,
Nə Qoşqar, nə Savalanam.
Giley-güzar eşitməkdən
Az qalıram havalanam!

Gündə yansam da, getmərəm
Sənin dansıqlı kölgənə.
Mənim boyum uyğun gəlmir
Sevgi, məhəbbət ülgünə.

Könlündən nə keçir elə,
Daha mənim sözüm yoxdu.
Zərif çiçəyin üstünə
Tank sürməyə lüzum yoxdu.

Sənin hikkə buludundan
Hey üstümə yağır dolu.
Hər gün bir az qısaldırsan
Ayrılığa gedən yolu…

**19.08.2011**

***

Ya bu intəhasız
giley-güzarını
tərgitməlisən,
Ya da məni biryolluq
tərk etməlisən!

**2011**

## GETMƏ DEMƏYƏCƏM

Yol üstündəyəm, uçuram, inan, mənsiz sənin üçün hər şey yaxşı olacaq…

**Bir "sms"-dən**

Getmə deməyəcəm, əs külək kimi,
Dəyişməz bir quru söz taleyini.
Uç, uç, buludları yar şimşək kimi,
Ağası özün ol öz taleyinin!

Miskinə qoşulub batma günaha,
Aldanma ilğıma, uyma səraba.
Sən yerdə sürünə bilməzsən daha,
Götür sevgini də göylərə apar!

Yenə də olmuşam ürəyi yuxa,
Getdinsə, bir daha məni səsləmə!
Döndünsə yayından sıyrılan oxa,
Geri qayıtmağa ümid bəsləmə!

Qərq ol arzuların təzə ətrinə
Sevdalı köksünü verib önə sən.
Yerdə nəyin var ki, onun xətrinə
Geri qayıdasan, geri dönəsən?!

**20.08.2011**

## ÜÇ BAYATI

Yaydan qopan oxam mən,
Könlü-gözü toxam mən.
Sən təksənsə, deməli
Bu dünyada yoxam mən.

Gərək könül tikəm mən,
Yaman gözlər tökəm mən.
Tapılmaz bir bənzərim,
Təkəm, təkəm, təkəm mən…

Könül düşmür həvəsdən,
Göz yolda, qulaq səsdə.
Adını çəkəcəyəm
Son anda, son nəfəsdə…

**2011**

## BİR DAMCI YALAN

Bir vaxt çənə düşmüş tənha qız idin,
Səni qorumaqçün girdim meydana.
Bir vaxt məsum idin, günahsız idin, –
Sən papış tikirsən indi şeytana…

Boyalı üzündə riya var sənin,
Qıvrılan saçından ilan boylanır.
Səsində, sözündə riya var sənin,
Gözünün içindən yalan boylanır.

Nə qədər vəfasız salmışam yola,
Açar var ən paslı kilidə belə.

Bir damcı xəyanət, bir gilə yalan
Yandırıb dünyanı kül edə bilər.

Satdın gölməçəyə dəniz dünyamı,
Çəkdiyim zəhməti qəhr elədin sən.
Sevdalı dünyamı, təmiz dünyamı
Niyə yalanlarla zəhərlədin sən?

Özün günahkarsan, nə küs, nə inci,
Könül istəyinin dalınca getdin.
Mənim içimdəki xoşbəxt sevinci
Alıb özgələrə hədiyyə etdin…

Hirsimin köhləni cilov gəmirir,
Səni tapdayımmı, ay qara böcək?!
Bilmirdin qırx gündü yalanın ömrü?
Bilmirdin intiqam günü gələcək?!

Dilində bir dilsiz haray gedirsən,
Hələ yuxudasan, ayıq deyilsən.
Get, kimlə gedirsən, hara gedirsən,
Sən heç vidaya da layiq deyilsən…

**29.12.2011**

***

Bu gün bütün dünyanın
Azəriləri həmrəydi,
Sənlə məndən başqa.
Həmrəylik çətin ki, yaraşa
mayasında yalan
olan eşqə?!
Allahım özü açdı
gizli xəyanətin üstünü.

Daşlara çalıb
çiçlik-çilik elədim
yalançı sevgi büstünü…

**31.12.2011**

***

Xəyalım özümdən xəbərsiz
sənin üçün aşiyan qurur.
Ancaq aramızda
keçilməz bir hasara
çevrilib qürur…
"Gözləri oyulmuş
mərd qardaş"ın
başının üstündə
quşlar belə qanad saxlayır.
Vüqar dağlarının ətəyində
sevgi bulaqları
qan ağlayır…

**31.12.2011**

***

Kürəyimə arxadan
vurmaq istədiyin bıçaq
qəflətən döndüyüm üçün
sinəmə sancıldı.
Of, bu nə dəhşətli ağrıdı,
Of, bu nə dəhşətli sancıdı!
O bıçağı ən çox sevdiyim,
ən çox etibar
elədiyim adamın
əlində görəndə çaşdım.
Sən isə

heç nə olmayıbmış kimi
yaramı yalanla
bağlamağa çalışdın…
Dünya başıma fırlandı,
Söndü əbədi
sandığım ocaq.
Mənim əlimdə
bir az əvvəl
verdiyin hədiyyə,
Sənin əlində
köksümə sapladığın bıçaq…

**31.12.2011**

## MƏHƏBBƏT BİR HƏSSAS QUŞDU

Əgər qəlbin gizli nura boyanıbsa,
Cəhd eləmə hisslərini sınamağa.
Ürəyində təzə istək oyanıbsa,
Haqqım yoxdu mənim səni qınamağa.

Alnıaçıq çıxmalısan el içinə,
Qəlb yanmasa köks ötürmək mümkün deyil.
Çox üzülmə, məhəbbəti zor gücünə
Nə qazanmaq, nə itirmək mümkün deyil.

İnləsə də ürəyimin sarı simi,
Qəlbim əsməz ötən eşqin havasına.
Məhəbbət bir həssas quşdu, perikdimi
Bir də çətin geri dönə yuvasına…

**01.01.2012**

***

Ürəyim bu dərdi udacaq necə?
Dəli bəbəyimdə şimşək çaxacaq.
Əllərin əlimdən tutacaq necə?
Gözlərin gözümə necə baxacaq?!

**01.01.2012**

## AĞRILAR ÇƏLƏNGİ

***

İçindəki sızıltını,
ağrını məndən başqa
kim duya bilər ki,
ay çiçək? –
Bəbəyində bərq vuran
sevgi şehinin içində
tozlu ayaqlarını yudu
bir qara böcək…

***

Gizli bir istəklə
öz kimliyini səssizcə
bəyan etdin.
Xəyanətin ayrı adı yoxdu,
Xəyanət elə
Xəyanətdi…
Səni qınamıram,
oğurluq tikə
bal tək olurmuş.
Səni qınamıram,
məhəbbətin gözü kor,
dili pəltək olurmuş…

***

Bu vaxta qədər
gizli bir xəyal dünyası
qurub,
içində yaşamışdın.
Bu addım
təsadüfi deyildi,
onu atana qədər
çox düşünüb daşınmışdın…
Bu dəfə də
yanıldım öz cəhdimdə,
Məni məyus etməkdən belə
çəkinmədin. –
Kömək eləmədi
səni saxlamaq cəhdim də,
qəlbimi tapdalayıb
getməkdən belə
çəkinmədin…

***

Oğurluq sevgi həzzi
o qədər şirin idi ki,
çəkinmədən
süvar oldun
xəyanət atına!
Bu yolda
qurban verməyi belə
almışdın
gözünün altına…
Ancaq bir gün
qaçaqmalçı kimi
tutuldun iş başında…

Sənə olan sevgim də
axıb getdi
gözlərinin sellənən
yaşında…

***

Əlim-ayağım
yerdən üzülür
qulaq asanda
danışığına.
Zülmətin içindən
dartıb çıxartdığım,
məni həsrət
qoymaq istəyirmiş
gün işığına…

***

Elə bil ayaqlarından
daş asılıb,
sən gedə bilmirsən.
İçimdəki ağrını, əzabı
səngidə bilmirsən…
Yalvarırsan ki,
səni bağışlayım;
bilirsən ki,
qəlbim mərhəmətlidi,
kövrəkdi.
Ancaq
xəyanəti bağışlamaq,
təzə bir xəyanətə
rəvac vermək deməkdi…

***

Qəlbim qan ağlasa da,
Qəlbinin səsinə
qulaq asmağını
alqışlayıram.
Sənin günahlarını
içindəki təzə sevgiyə
bağışlayıram…
Ancaq
geri dönmək haqqında
düşünmə,
sənin üçün bir də
sevgiylə açılmaz bu qollar…
Qəlbimin çiçəklərini
soldurduğun bəsdi,
Sənə çiçəkli yollar!...

**02.01.2012**

***

Mən kimə bel bağladımsa,
Ümidim getdi havayı.
Heç kəsə etibar yoxdu,
Ulu Allahdan savayı…

**02.01.2012**

***

Qəlbindəki
kimisə
sevindirmək istəyi
kimisə
itirmək qorxusundan
güclü imiş…

Səni bu cür qorxmaz,
israrlı eləyən
məhəbbətin gücü imiş…

**04.01.2012**

***

Çox zaman adamı qınayırlar
deyəndə sözün doğrusunu.
Yara isti olanda
o qədər də hiss eləmirsən
onun ağrısını.
Ancaq elə ki,
bir az keçdi,
ağrıdan heç özün də
bilmirsən ki,
yer nədir, göy nədir?
Ürək qızdırdığın adamın
gizli xəyanəti
səni göyüm-göyüm
göynədir…

**04.01.2012**

***

Yaxşıca çıxdın
sənə etdiklərimin
əvəzini.
Söndürdün qəlbimdəki
yaxşılıq eləmək
həvəsini…

**2012**

***

Söylədin ki, incimə,
Bir qəribə iş oldu;
Axır ki, axtardığım
İnsan mənə tuş oldu…

Günahkar deyiləm ki,
Bu, taleyin işidi.
Ucada qadir Allah
Duaları eşidir…

Çox şükür, illər boyu
Gəzdiyini tapmısan.
Öz sevgi köhləninə
Süvar olub çapmısan.

Gülüşünün səsinə
Səksəndi həzin qəmim.
Şaqqanaq sellərində
Qərq oldu sevda gəmim…

Coşdu qara buludlar,
Bu necə leysan oldu? –
Bu get-gəl bazarında
Heç nə deyil əbədi.

Bircə anın içində
Yer ilə yeksan oldu
Min arzu, min xəyalla
Qurduğum eşq məbədi…

**23.04.2012**

***

Şölə saçan zərif şamam,
Küləklə necə yaşayım?
Mənə xəyanət eləyən
Ürəklə necə yaşayım?

**23.04.2012**

***

Daha heç nəyin,
heç kimin
gücü çatmaz
təzə açılan
sevgi çiçəklərini
soldurmağa.
Daha Xəzərin
suyu da çatmaz
içimdəki boşluğu
doldurmağa.
Vüsal aramıza
elə bir pərdə saldı ki,
gücümüz də çatmaz
onu qaldırmağa…

**24.04.2012**

## YALVAR YARADANA, BƏLKƏ EŞITDI…

Təsadüfən dəli kimi sevdiyi, etibar elədiyi insanın başqası ilə gizlicə yazışmasını bilib sarsılan, özünə yer tapa bilməyən bir gənc məndən məsləhət istədi. Az qala bir kitab boyda olan yazışmanın mətnini verib xahiş elədi ki, oxuyub fikrimi söyləyim. O məktublaşmanı azalmayan bir maraqla, həyəcanla oxuyanda özümü təmiz sevgisi təhqir olunmuş həmin oğlanın yerində hiss elədim.

Bir gün aşa bildim uca barını,
Sən məni avammı sanmısan, gülüm?
Oxudum o gizli məktublarını,
Başımı yellədim: – Sən busan, gülüm?!

Hər sözün qəlbimə sancılan bir ox,
Yanıb kül elədi dərd odu səni.
O çirkablı suda telefonun yox,
Gizli arzuların qərq oldu sənin.

Eşqimi sovurdun əsən küləklə,
Perikdi əvvəlki yuxuların da.
Virtual oğlanı sən sidq ürəklə
Hər gecə gözlədin yuxularında…

Təmiz bir sevginin yetişdi sonu,
Xoşbəxtsən yeni eşq çələngi ilə.
Oyanmaq istədin nə vaxtsa onun
Sübh tezdən çalınan bir zəngi ilə.

Döndün bənövşəyə boynunu burub,
Qəfil tufan qopdu, hava dəyişdi.

Yar gəzən cavana yeddi tor qurub,
Gizli bir sevgiylə müjdələmişdin.

Ürəyim gözümdə qərib quş olub,
Nifrətin qəlbimdə qaynar ocaqdır.
O yeddi rəqəmi yeddi şiş olub,
Nankor gözlərinə sancılacaqdır…

O nədir başının üstündə uçan? –
Bir ilahi sevda umdun xəyalən.
"Gözlərini yumub, qolunu açan"
İnsanın üstünə cumdun xəyalən.

Bir təmiz sevdanı unutdun necə? –
Elə bil sazağı günəş əritdi.
Sən ona şəklini göndərdin, gecə
O səni yuxuda "bəxtəvər" etdi…

Kimsədən haray yox, özünə güvən,
Nə üçün özgənin dalınca getdin?
Həm öz ürəyinə, həm səni sevən
İlahi bir qəlbə xəyanət etdin.

Bir gör kimi vurdun, kimə vuruldun? –
Xəyalın dil açıb hey oxuyurdu.
Gözlərin yumulu "bəxtəvər" oldun,
Yorğanın, döşəyin gül qoxuyurdu…

Min yalan süzüldü sənin dilindən,
Bir eşqi boğmağa hazırlaşırdın.
Gizli yazışdığın o sevgilindən
Sən övlad doğmağa hazırlaşırdın…

İncitdin günahsız körpələri də,
Xəyanət ocağı sönə, sönməyə?
Yandırıb keçmisən körpüləri də,
Yol da qoymamısan geri dönməyə…

Xəbərin yoxdumu qəlbi sınıqdan? –
Ömrümə qəm yükü elədin, hayıf!
Səni "milyonlardan biri" sanandan
Sevgi sədəqəsi dilədin, hayıf!

Ulduz çıxıncadı ilanın ömrü,
Nur pozur zəhərin dəyanətini.
Unutdun, qırx gündü yalanın ömrü,
Üstü tez açıldı xəyanətinin…

Niyə düşünmədin söylə, bəs məni?
Yadın məhəbbətlə ismini çəkdin.
Ona göndərməklə sən öz rəsmini,
Öz könül dünyanın rəsmini çəkdin.

Xəyanət köksümü göynədir yaman,
Nəmli kirpiklərdən asmışam hana.
Mən sənin yolunu gözləyən zaman
Məktub yazırmışsan ismi-pünhana.

Yağışın nə xeyri çiçək solanda?
Xəzələ neyləsin bahar yelləri?
Sən özgə ətrindən söhbət salanda,
Ətrini itirdi sevgi gülləri…

Sarıya bilmədin könül yaramı,
Sırıya bilmədin özünü yada.

Sən təhqir elədin duyğularımı,
Xoşbəxt anlarımız düşmədi yada.

Sədaqət bəzəkdir əsl insana,
Özgə ocaq çatdın mənim közümdən.
O qədər "əzizim" yazdın ki, ona
"Əzizim" kəlməsi düşdü gözümdən…

Eyni mayadanmış xəmiriniz də,
Layiqdi "ruhunun əkizi" sənə.
Mürgülü vicdandan bir imdad istə,
Haramdı sevginin pak üzü sənə…

Vüsal həsrətiylə yanır, yanırdın,
Bu gizli yarışda mat oldun, gözəl.
Özünü ən zərif çiçək sanırdın,
Sən heç qoxlanmamış atıldın, gözəl!

Dadmadın bu eşqin şirin barını,
Tor qurduğun kəsin gözünü açdın.
Qəlbinin qırxıncı qapılarını
Nə üzlə bir yadın üzünə açdın?

Çətindi həmişə yollarda qalmış
Gözlərdə həsrəti görən olmaya?
Bu təhqir deyilmi, heç açılmamış
Qapını açasan, girən olmaya?!

Baş-başa qalmışam varaqlar ilə,
Nəyin çatışmırdı, yolunu azdın?
Öpüb oxşadığım barmaqlar ilə
Yada "can" sözünü sən necə yazdın?

Mürgülü vulkanı oyadacaqsan,
Dəli bəbəyimdə şimşək çaxacaq.
Nə üzlə yanıma qayıdacaqsan,
Nə üzlə gözümə gözün baxacaq?

Nifrət danışanda məhəbbət susur,
Sandın: bir sərsəri başından oldu!
Qaldı bəbəyində vüsal arzusu,
Həm Əli, həm Vəli aşından oldun…

Müqəddəs hissləri sən verdin yelə,
Gözümə ayrılıq dumanı çökdü.
Öpüb oxşadığım barmaqlar ilə
Niyə sevgimizin gözünü tökdün?

O nankor əllərlə mənə toxunma,
Fikrindən nə keçir, dinsənə, ay qız.
Yatsaydım girməzdi bunlar yuxuma,
Necə inanmışdım mən sənə, ay qız?!

Sevda dənizində üzə bilməyən
Çətin ki, mirvari araya, seçə.
“Körpə xəyanət”ə dözə bilməyən
Böyük xəyanətə qol qoydu necə?

Qeyb oldun sevgimin üfüqlərində,
Perikdim, bir də o göyə gəlmədim.
Sən öz yastığının batıq yerində
Təzə iz gəzəndə niyə ölmədim?!

Sənin xəyalınla yatıb-durardım,
Ömrümü ağrıya bələmisən sən.

Bir yara olsaydı, yamaq vurardım,
Sinəmi aşsüzən eləmisən sən…

İçimdə bir dəli nifrət cücərdi,
Sənli arzularım qalandı oda.
Cismimi dəyişsən dözə bilərdim,
Hissimi, duyğumu dəyişdin yada.

İnlədi qəlbimin qırılmış simi,
Gizli xəyanətin qəlbimi əzdi.
Mən sənə yağışı sevdirən kimi,
Altında xəyalən onunla gəzdin.

Əlimdə qızınan soyuq əlləri
Kiməsə uzadıb məst oldun gecə.
Öpüb-oxşadığım zərif telləri
Özgənin üzünə dağıtdın necə?

Əksini görəndə fikrin qarışıb,
Niyə də olmasın bu gənc ər sənə?
Gecə səhərəcən nağıl danışıb
Onun göndərdiyi şəkillər sənə…

Ovutmaz bu haray-həşir qəlbimi,
Hələ bunlar nədi, nəsə bilmirəm.
Sevgi çayırları deşir qəlbimi,
Onların kökünü kəsə bilmirəm.

Sevəndə elə bir insanı sev ki,
Fəxr edə biləsən isməti ilə.
Bir vaxt can verdiyin ilahi sevgi
Yaralı köksümdə can verir hələ…

Mənim duyğularım nə qədər həzin,
Bir ocaq çatmışdım közündən sənin.
Virtual sevgidən aldığın həzzi
Vicdanın gətirdi gözündən sənin…

Əlinə toxunsa, əllər inciyər,
Gərək taleyindən siləsən məni.
Sənə gülüm desəm, güllər inciyər,
Yanan ürəyimin külüsən mənim.

Niyə su əlnamedin qızıl közlərə,
Niyə bir özgəsi murada yetdi?!
Gözlərin dikildi ayrı gözlərə,
Əllərin əlimə xəyanət etdi…

Sədaqət andını pozan zaman sən,
Heyrətdən dünyanı, düzü buz tutub.
Mənə xəyanətin dərinliyindən
Sevdiyim Xəzərin üzü buz tutub…

Bircə an içində ayrıldı yollar,
İçimi göynətdi bu xəyanətin.
Dildə "bağışladım" deməyə nə var,
Ürəyə zor etmək çətindir, çətin.

Başımda ildırım çaxdı elə bil,
Xəyanət sazağı məni üşütdü.
Səni bağışlamaq bəndəlik deyil,
Yalvar Yaradana, bəlkə eşitdi…

**24.04.2012**

PS. Gənc dostum bu şeirləri öz "vəfalı"sına göndərib. Xəyanətinin üstü açılan qız dəhşətə gəlib,

xəcalət çəkib. Onun ağlaya-ağlaya göndərdiyi son "sms" budur:

"Bağışla deməyə üzüm gəlmir, nə desən haqlısan. Məni bağışlama, nifrətinə də layiq ola bilmədim. Səni qırdım, özüm də qırılıb içimə töküldüm, hissələrimdən toplaya bilmirəm səni. Gözlərində mələk idim, səhifə-səhifə dağıldım, sətir-sətir əridim, boğuldum, məhv oldum, ürəyində şeytan şəklində yenidən doğuldum"…

Bu, mürgülü vicdanın səsi idi…

## MƏNİ YERƏ ÇƏKMƏ

Bataqlıqda bitən bir çiçək idin,
Titrək əllərimlə qopardım səni.
Mən sənə ruhumu, canımı verdim,
Hər yerə özümlə apardım səni.

Səni qorumağım əbəsmiş, əbəs,
Xəyanət ruhunda, canında imiş.
Əllərin əlimdə olanda belə
Ürəyin özgənin yanında imiş…

Sən layiq deyilsən uca dünyaya,
Burnunda bataqlıq havası qalıb.
Ürəyim qoşulub xəzan yelinə,
Quş uçub, pərişan yuvası qalıb.

Qorxar ilan vuran ala çatıdan,
Taleyim belədi, məni qınama.
Dünən hiss etmirdim bu ağrıları,
Zəhər indi-indi hopur qanıma.

Gör kimə, gör kimə dəyişirmişsən
Hər gün, hər saniyə, hər saat məni.

Yerdə dolaşacam ayaqlarına,
Götür Veneraya, Marsa at məni.

Qəlbimin nurunu artırım deyə
Hər an diləmişəm bir macal Haqdan.
Sən zəhər çiləmə təmiz dünyama,
Məni yerə çəkmə o ucalıqdan…

**26.04.2012**

## XƏYANƏT SARAYI

Məni yaşamağa səsləyən
Məhəbbətin, sədaqətin
qadir gücü idi.
Sənin özgəyə
ünvanladığın
hər söz isə
xəyanət sarayının
bir kərpici idi…
İndi sevib itirdiyin insanı
sığallamağa,
oxşamağa da
qorxursan.
Bünövrəsində
xəyanətkar ürəyin olan
elə bir saray
ucaltmısan ki,
ora köçüb içində
yaşamağa da
qorxursan…

**26.04.2012**

***

Ağlaya-ağlaya deyirsən ki,
ona yazdıqların
mənə olan duyğularındı; –
Görməmək mümkünmü
damarlarında qan kimi
çağlayan yalanı?
Bir də ki,
gizlicə özgəyə
göndərənin adı nədi
mənə məxsus olanı?

**28.04.2012**

***

Məndən ayrı yaşamağın
axırına həmişəlik
daş atmağa
söz vermişdin;
Gör işi nə həddə çatdırdın? –
Sevginin bütün
gözəlliklərini yaşatmağa
söz vermişdin,
Xəyanətin bütün zəhərini
mənə daddırdın…

**28.04.2012**

***

Üzünü xəyalən də olsa,
özgənin üzünə söykədin;
Yenə üzümə çıxmağa
üzün varmı?
Deyirsən ki,

xəcalətdən
özünü öldürmək istəyirsən –
Ölünü təzədən öldürməyə
lüzum varmı?

**28.04.2012**

***

İndi də başa düşə bilmirəm,
səni kim xain etdi,
nə xain etdi?
Bir başqasına da
yazmısan ki,
"ürəyim sənə
verilən əmanətdi"…
Xəyanətin böyüyü,
kiçiyi yoxdu,
Xəyanət elə xəyanətdi…
(Nifrətin mayası
təhqir olunmuş məhəbbətdi)…
Axı sən bunları
niyə unutdun, ay afət?
Hər insanın
şərəf və ləyaqətini ölçməyin
ikicə meyarı var:
sədaqət və xəyanət…

**28.04.2012**

***

Parıltılı muncuq axtarar
əlindəki mirvarinin, incinin
dəyərini bilməyənin gözləri.
Öləziyib söndü

sənə olan sevgimin
kül altında işaran
son közləri…

**29.04.2012**

***

Elə bir kitabsan ki,
gizlicə oxunmaqdan
ləkə-ləkədi vərəqlərin də,
cildin də.
Bilmirəm bu vaxtacan
necə gizlənə bilmisən
paklıq, məsumluq cildində?

**30.04.2012**

***

Özgəyə əmanət olan
Ürək nəyimə gərəkdi?
Qoxlanıb yerə atılan
Çiçək nəyimə gərəkdi?

**30.04.2012**

***

Oğurlayıb, tanımadığın
bir insana xərclədin
sevgi xəzinəmi,
könül varımı mənim.
Deyirsən ki,
sən də xəyanət elə,
ürəyin sakitləşsin! –
İndi xəyanət olunası
kimsəm varmı mənim?

**30.04.2012**

***

Qırxıncı otaqda saxladığın
ismət tacını bəxş elədin
bir gədəyə, bildimi?
İllərdir qəlbində yığılıb qalan
sevilmək ehtiyacını
ödəyə bildinmi?

**30.04.2012**

***

Vüsal həsrəti
səni şam kimi əridir,
ürəyin deyil ayrılığa
dözmək gücündə…
Hər gün ayna qabağında
durursan ki,
sevdiyin insanın
əksini görəsən
gözlərinin içində…
O rəsm gecə səhərəcən
sənə nağıl danışır.
Ulduzlara baxa-baxa
bəbəklərində
həsrət sayrışır…
Ürəyin əsə-əsə
gecənin gəlməsini
gözləyirsən.
Başın fırlanır
bu gizli səadətdən.
Qaranlığı otağına
doldurursan ki,
xəbərim olmasın
mənə etdiyin xəyanətdən…

**03.05.2012**

***

Əziz sandığım insanın
xəyanətinə
dözməyən ürəyim
qiyam etdi.
İndi içimdə
əsl Məhşərdi –
Qiyamətdi…

**03.05.2012**

***

Mənə əzab verir
Həsrətin ürəyimi
Kədərlə, ağrı ilə
naxışlaya-naxışlaya.
Nə səni ata bilirəm,
nə də bağışlaya…

**03.05.2012**

***

Mən fırtınalar,
burulğanlar içindəyəm.
Amma mənə
xəyanət edən əlləri də
öpüb gözümün üstünə
qoymaq gücündəyəm…

**03.05.2012**

***

Ürəyim –
budaqda titrəyən
saralmış yarpaq kimidi;

İçim –
tağı yad əllərlə
uralanmış bostan,
meyvələri yolunmuş
bağ kimidi.
Üstümə ayrılıq küləkləri
əsnəyir;
bir azdan hər şey,
hər şey əriyəcək, itəcək…
Bir azdan soyuq qar
könlümün yaralarını
bəmbəyaz tənzif kimi
örtəcək…
İndi qu desən
qulaq tutulur içimdə.
Novruzgülü kimi
qar altından
baş qaldırmağa
qalmayıb taqətim də,
gücüm də…

**05.05.2012**

## YARALI DURNA

Yaralı durna,
qanadlarını sağaltdım,
üşüyən köksünü isitdim
qəlbimin oduna.
Ancaq hər an, hər saniyə
məndən ayrılıb gedəcəyini
almalıyam gözümün altına.
Çünki gəl-gəl deyir sənə
içində arzular bərq vuran

şəfəqlər.
Qarşıda məni
tənhalıq səltənəti
gözləyir,
səni əngin üfüqlər…

**05.05.2012**

***

Pərişan görkəminlə
məni qəmgin edirsən,
Daha könül yaranı
kimsə bağlaya bilmir.
Darayıb tellərini
görüşəmi gedirsən? –
Mənim göz yaşlarım da
səni saxlaya bilmir…

**07.05.2012**

## QAR YAĞACAQ

Yalquzaq tək sazaq gəlir üstümə,
Ürəyimdə könül yaxan ayaz var.
Ötənlərin, keçənlərin üstünə
Qar yağacaq,
qar yağacaq,
bəyaz qar…

Sən bu qışın ağlığında durulan! –
Qar üstündə yenidənmi yol açaq?
İllər boyu qəlbimizə vurulan
Həsrət dağı qar altında qalacaq…

Bu yağan qar bir də çətin əriyə,
Uzaqlara göz dikərək susuram.
Qar yağacaq, qar yağacaq, geriyə
Dönən yollar bağlayacaq sırsıra…

Ürəyinin işlərinə qarışma,
Çiçəklərin gözündə şeh güləcək.
Ağ libasda çıxacaqsan qarşıma,
Ömrümüzün bəyaz günü gələcək…

Məhəbbətin nur saçacaq ay kimi,
Uzaqlardan göz dikəcəm sənə mən.
Qar yağacaq, göydən gələn pay kimi
Ağ libasda enəcəksən sinəmə…

**07.05.2012**

***

İnsanın elədiyi günahlar
ömür boyu onun çiyinlərində
ağır yük olur.
Sevgi böyük olanda
onun əzabları da
böyük olur…
Ancaq mən istəmirəm ki,
incə bir qəlb sahibinin
könül yarası
daim zoqquldasın,
sevdalı gözü dolsun.
Allahın tövbə qapısı
həmişə açıqdı,
ancaq o qapını döyməyə
adamın gərək üzü olsun…

**09.05.2012**

***

Füzüli babam
dərd əlindən
dağa çıxırdı,
mən dərd əlindən
sahilə enmişəm.
Başımın üstündə
qayğısız qağayılar uçuşur,
mən isə ağrılar, əzablar
postamentinin üstündə
qəm heykəlinə dönmüşəm…

**09.05.2012**

***

Ayrılıq gecələrində
mən də şam kimi
için-için əridim.
Daha yanıb,
yanıb sönmüşəm…
Bir zaman
qəlbindəki qırxıncı otağın
sahibi mən idim,
indi o qapının ağzında
bir kor dilənçiyə dönmüşəm…

**09.05.2012**

## QOCA PALID

Qoca palıd, yel əsdikcə
Yarpaqların nalə çəkir.
Dözəmmirsən ayrılığa,
Gözünə qaranlıq çökür…

Budağında yuva quran
Bir gözəl quş uçub getdi.
Sənə yandıq verə-verə
Özgə yurda köçüb getdi.

Qanadsızın qanadlıya
Könül verməsi hədərdi.
Qoca palıd, qəm eləmə,
Bu quşlar gəldi-gedərdi…

Nə tez əsdi xəzan yeli? –
Göylər tutulub, qaralıb.
Arxasınca boylanmaqdan
Gözünün kökü saralıb…

Bilmirmi nələr çəkirsən? –
Bu payızın qəlbi daşmı?
Düşən qızılı yarpaqlar
Gözlərindən axan yaşmı?

Ömrün boyu neçə xəzan,
Çovğun, qar yola salmısan.
Qoca palıd, qəm eləmə,
Çox bahar yola salmısan…

Darıxma, boş yuvalara
Sahib duranlar olacaq.
Yenə sənin budağında
Yuva quranlar olacaq…

**09.05.2012**

## SEVDA YOLLARINDA

Bu ömür yollarında məni
neçə vəfasız
yar atıb…
Ancaq bilirəm ki,
Allah mənim ürəyimi
daha böyük sevgilər üçün
yaradıb…
Bilirəm ki,
köksümdə çırpınan
adi ürək deyil…
Bilirəm ki, qəlbim
qoxlanıb atılmağa layiq
çiçək deyil…
Ömür karvanım
səfərdədi hələ,
yolumu gözləyir
nə qədər sevinclər,
sürprizlər, müjdələr…
Allahım, mənim qəlbimi
təzə-təzə sevgilərlə
müjdələ!
Yarəb!
Məni quşu uçan yuva,
Budaqları quruyan
ağac eləmə!
Yarəb!
Uca, təmiz
sevgilər üçün
yaratdığın ürəyi
kiminsə artığına
möhtac eləmə!!!

Bu sevda yollarında
yenəmi olacam ərəsən?
Qarşıda məni daha nələr
gözləyir görəsən?!

**12.05.2012**

## XOŞBƏXT OL

Bir vaxt mənim üçün çiçək dərirdin,
Duyurdun köksümdə axan Kürü sən.
Bir vaxt gözlərimdə sevgi görürdün,
İndi o gözlərə kül üfürürsən…

İncitdin ləçəyi nəmli gülləri,
Ağlına nə gəlir yazırsan indi.
Arzu qatarını mənli günlərin
Üstündən sürməyə hazırsan indi…

Səni nə gözləyir? –
Düşün dərindən! –
Güvənc yerin varmı darda, çətində?
Bir yüyrük asılıb kirpiklərindən,
Xoşbəxtsən xəyallar səltənətində…

İlahi sevgiymiş sığal ürəyə! –
Qəlbin adilikdən yorulmayacaq?
İçinə dünyalar sığan ürəyə
Bir yataq otağı dar olmayacaq?!

Sevgi yollarını çən bağlayanda,
Yerimdə farağat qala bilmirəm.

Qəlbim çat-çat olur sən ağlayanda,
Özümdə-sözümdə ola bilmirəm…

Gözləri yollarda qalan çiçəyəm,
Əbədi ayrılıq üzəcək məni…
Xoş gündə yadına düşməyəcəyəm,
Dar gündə gözlərin gəzəcək məni…

Soyuq təsəllidən indi nə fayda? –
Bu dərdə yəni bir əlac olacaq?
Ürəyim iynənin ulduzu boyda
Süzülən nuramı möhtac olacaq?!

Köksümdə hicranın naxışları ox!
Sevda gülşənimə sazaq düşəcək.
Təkcə əllərin yox, baxışların yox,
Ruhun da ruhumdan uzaq düşəcək…

Neçə söz öləcək dodaqlarında,
Belindən atacaq köhlən at səni…
Qolunda qandala, ayaqlarında
Kündəyə dönəcək bu həyat sənin…

Ürək olacaqmı köksündəki daş?
Nə vaxt vicdanını oyadacaqsan?
Qəlbində məşəqqət, gözlərində yaş
Yenidən yanıma qayıdacaqsan…

Eh, nələr yatırmış sənin sinəndə? –
Bilmirəm heç kimsən, nəsən sən, gülüm?!
Başın daşa dəyib geri dönəndə,
Nə mən mən olacam, nə sən sən, gülüm!

Kömürə çevrildi arzular közü, –
Deyirsən: bu qədər kövrək olmayım!
Məni dar məqamda gəzəcək gözün, –
Xoşbəxt ol,
heç sənə gərək olmayım!

**13.05.2012**

***

İlahi sevginin
dəyərini bilməyən
bir vəfasıza görə
bu qədər özünü
üzməyə dəyərmi?
Mələk sandığın bu imişsə,
yenidən Yerdə
təzə bir mələk
gəzməyə dəyərmi?

**13.05.2012**

***

Əyilib səninçün bir lalə dərdim,
O qara xallara bənzəyir dərdim.
Azaltdı qəlbimdə olan dağları,
Yarımca meşəsi, Xızı dağları…

**14.04.2012**

***

Bir dəfə verilir ömür insana,
Çürütmə ömrünü sən ah içində!
Bu dünya gözəldi, gözəldi, gözəl,
Hətta yaşasaq da günah içində…

**14.04.2012**

***

Arabir insan gərək
öz vicdanının səsini dinləyə –
Postamenti olmalıdı
ən kiçik büstün də…
Birini orda
hönkürə-hönkürə
qoymusunuz,
birini burda inləyə-inləyə, –
Xoşbəxtlik sarayı
qurmaq mümkündümü
ah-nalə üstündə?!...

**15.05.2012**

***

Gecələr dəli kimi
yuxudan oyanırdın;
həmişə sevilmək
arzusu ilə yanırdın…
Ürəyindən nə keçdi
taleyin üzünə güləndə?
Xoşbəxt oldunmu
dəli kimi sevildiyini
biləndə?!

**16.05.2012**

***

Sənin qəlbində
başqa sevgilərə
yer olmamalıdı;
Sənin gözlərin
gözlərimə baxanda
yorulmamalıdı!

Sən məni
bütün qəlbinlə
sevməlisən!
Sən mənim ömrümə
dönməlisən!
Sən həsrətimə
qənim olmalısan,
Sən təpədən dırnağacan
mənim olmalısan!
Sən qəlbimin
qırxıncı otağının içindəsən;
Sən dünyanı
həm cəhənnəmə
döndərmək,
həm də gözəlləşdirmək
gücündəsən…

**16.05.2012**

## GÖRDÜNMÜ

Gördünmü
iman nuru,
Allah sevgisi
qəlbimin içindədi?!…
Gördünmü
mənim kövrəkliyim
qayaları parçalamaq,
dəmiri əritmək,
şəbəkəni dondurmaq
gücündədi?!…

**16.05.2012**

## HİCRAN QIŞI

Az qala
qəlbimin gülləri
solmuşdu;
Az qala bu ilin qarı
sevgimizin kəfəni
olmuşdu…
Çox şükür,
hicran qışını
özgə diyara
göndərə bildik;
Çox şükür,
Bəyaz qarı
bəyaz çiçəklərə
döndərə bildik…

**16.05.2012**

## QIRXINCI OTAQ

Hazır idin qəlbinin
qırxıncı otağını
bir yoldan ötənə
verməyə;
Ancaq nə yaxşı ki,
macal tapa bilmədin
onunla bağlı
xəyal çiçəklərini
dərməyə!
Bilmirəm fikrində
bu nə arzu,
qəlbində bu nə

həvəs idi?
Unutma ki,
qırxıncı otaq
bəndəlik deyil,
Allaha məxsus ərazidi…

**18.05.2012**

## İNDƏN BELƏ

Ən doğma, ən əziz
sandığım insanın
kimliyini biləndə,
elə bil damarlarımda
qan durdu…
Qışın oğlan çağında
sevgimi xəyanət sazağı
dondurdu…
Məhəl də qoymadın
könlümdən boylanan ağrıya,
kirpiklərimdə bərq vuran yaşa…
İndən belə necə baxacam
Narın-narın yağan qara,
suları donduran
bəyaz qışa?!

**20.05.2012**

***

İlk xəyanət addımı
atdığın günləri xatırlayanda,
ağrılar neştər kimi
ürəyimi deşir…
Yadıma sevgililər günündə

stolumun üstünə
qoyub getdiyin
gül düşür…
Mənim gəlməyəcəyimi
bildiyin üçün arxayınca
külək kimi əsmisən.
Sevgimizin
simvolik məzarı üstünə
o gülü qoyandan sonra
təzə tanış olduğun adama
məktub yazmağa
tələsmisən…
Niyə qıydın mənə
bu qədər sevgi əzabını?
Verə biləcəksənmi
xəyanətin haqq-hesabını?!

**20.05.2012**

## MƏNİMLƏ XOŞBƏXT OLSAYDIN

Deyirsən mənimlə
çox xoşbəxtsən,
bəs onda niyə həmişə
gözlərin yol çəkir?
Sevgimizin ağırlığından
ayağımızın altındakı yol çökür…
Səninlə birgə keçdiyim
misra cığırlara
ürək ağrısıyla nəzər salıram;
Heç bilirsən duyduqlarımdan
nə qədər pərişan oluram?! –

Gah xatirələri çözələyib
keçmişə boylanmısan,
gah xəyalların qanadında
gələcəyə üz tutmusan…
Yanında olan
bü günlü məni isə
tamamilə unutmusan…
Elə bilmə ki,
heç nəyi bilmirəm,
o dünyada belə
yaxandan tutub,
haqq-hesab sormağa
gələcəyəm…
Ancaq səni qınamıram,
çünki bilirəm ki,
bu gün mənimlə
xoşbəxt olsaydın,
nə keçmişə ehtiyacın olardı,
nə gələcəyə…

**20.05.2012**

***

Taleyimə gələn zaman
Sevilmək vaxtında idin.
Sənin yerin ürəyimin
Ən uca taxtında idi…

Bəyənmədinmi o yeri? –
Qəflətən göynədi için.
Çıxıb getdin zirzəmidə
Xoşbəxtlik aramaq üçün…

**07.05.2012**

***

Dünya səninçün bir qəfəs,
Mənimlə alırsan nəfəs…

***

Allı-güllü çəmənəm mən,
Gecə şehdə çimənəm mən…

***

Daha bir-birimizin
üzünə baxmağa
üzümüz də qalmayıb.
Hər şey gün kimi aydındı,
deyiləsi sözümüz də qalmayıb…
Kül altında işaran
közümüz də qalmayıb.
Küləklər bizi
dörd yana sovurub,
izimiz də qalmayıb…
Sevdalı ürəyim
neçə yerə parçalanıb,
Yollarımız ürəyimizdəki
çatlar kimi haçalanıb…

**23.05.2012**

***

Cüt xəyanət xəncərini
kürəyimə sancandan sonra
üzümə baxırsan
nə üzlə sən?!
Bir zaman
hər şeyi qurban verib
mənim yanıma gəlmişdin,
indi sevgimizi qurban verib
yanımdan getmək üzrəsən…

**24.05.2012**

***

Mən ki sənə heç zaman
əziz olmamışam,
indi bu nə umu,
bu nə küsüdü?
Gizli yazışmaların
sənin qəlbinin
güzgüsüdü…
O sözləri yazanda
xəcalətdən alışıb
yanmadınmı?
Mən heç,
hər şeyi görən,
hər şeyi eşidən
Tanrıdan utanmadınmı?

**24.05.2012**

***

Mənə olan duyğularını
daldaya düşən kimi
özgələrə ünvanlayırsan,
özgələrə yazırsan.
İynəsi yaxasına taxılı
dərziyə oxşayırsan –
hər an köçməyə hazırsan…

**24.05.2012**

***

Bir vaxtlar
əlçatmaz bir mələk,
ünyetməz bir pəri idin.
Qəlbinin qırxıncı otağının

açarı əlimdə
bəxtəvərlər bəxtəvəri idim…
Şübhələr şəhərində
azıb qalmışam,
bilmirəm neyləyim
indi mən?!
Sənin qəlbinin
qırxıncı otağı
karvansara imiş
sən demə!
Üzə çıxan həqiqətin
Gözlənilməzliyindən
çaşırsan,
həyəcandan dişləyirsən
dilini, dodağını…
Bəs indi kimə
icarəyə verməyə
hazırlaşırsan
Qəlbinin müqəddəs,
əlçatmaz, ünyetməz
qırxıncı otağını?!

**24.05.2012**

***

Bunları söyləmək
mənim üçün
deyil asan,
söndürə bilmirəm
qəlbimdəki
həsrət közünü.
İçindəki
xəyanət toxumları
adi bir təbəssümlə

cücərə bilən insan
görməyə layiqdirmi
xoşbəxtliyin tərtəmiz,
bakirə üzünü?!

**24.05.2012**

***

Özgəyə pıçıltıyla
“can” deyəndə
bilmirdinmi yerin də
qulağı var?!
Bir vaxt aramızdan
su da keçmirdi,
indi aramızda bir cüt
xəyanət dağı var…
Ən güvəndiyin adamın
etibarını itirmək
çox acıdı.
Şübhə –
Həqiqətə
doğru gedən
yolun başlanğıcıdı…
Həqiqətin bir üzü var,
Riyalar isə
eyni boyda,
eyni biçimdə deyil…
Yalanlar silsiləsi
bir damcı həqiqəti
ört-basdır eləmək
gücündə deyil…

**24.05.2012**

***

O qədər dərindi ki,
köksümə vurduğun
yaralar,
qorxuram onları
səninlə bölüşməyə;
kövrək ürəyin
buna dözməz,
para-para olar,
yarılar…

**25.05.2012**

## MƏN SƏNİ MƏLƏK SANIRDIM

Həm sevgi, həm xəyanətdə
Yeganə, nadir imişsən!
Heyrətdən donub qalmışam:
Sən nəyə qadir imişsən?!

Mənim nələr çəkdiyimi
Sinəmdən qopan ah bilir!
Danmağın nə mənası var
O şeyi ki Allah bilir?!

Mən səni mələk sanırdım,
Özünü nə kökə saldın?
Aydan arı bir sevgiyə
Meydan boyda ləkə saldın…

İndən belə gecə-gündüz
Qəmli  gözlərin dolacaq.
Çəkdiyin xəcalət sənin
Ömrünə bəzək olacaq…

Tanrım məni müjdələyib, –
Sizi haqq-hesab gözləyir.
İyrənc yola düşənləri
İyrənc bir əzab gözləyir…

**26.05.2012**

***

Müqəddəs sandığın
qırxıncı otağa
xəyanət etdinsə,
ürəyində ömrün boyu
ağrı, nisgil daşıyacaqsan.
O xəyanətin
bir ömrə bəs edəcək
xəcaləti ilə
necə yaşayacaqsan?

**26.05.2012**

***

Kimin ki saf sevgidə
sədaqəti, vəfası yoxdu,
ona bu yolda çəkdiyi
havayı zəhmət qalacaq.
Öz təmiz sevgi diyarına
xəyanət toxumu səpənlər,
xoşbəxtlik üzünə
həmişə həsrət qalacaq…

**26.05.2012**

## YARALI
## VİCDANIN SƏSİ

Gözlərin həmişə
yollarda qalacaq,
qaşların həmişə
heyrətdən çatılacaq…
"Ömrünün mənası"nı
itirənlərin
ürəyi həmişə
çat-çat olacaq…
Yaralı vicdanın səsini
dinləyəcəksən,
ömrün boyu ağlayacaq,
inləyəcəksən.
Xəyalında kimi
arzulasan belə
həmişə tənha
girəcəksən yatağa.
Oyanmış vicdanının səsi
səni qoymayacaq
yatmağa…

**26.05.2012**

***

Gözlərin kor ola bilər
Elədiyin xəyanətin tüstüsünə!
Əllərin həsrət qala bilər
Sevdiyin əllərin istisinə!
Həyatın mənasını itirər,
Dönə bilərsən
ən adi bir qadına.
Ömrün boyu
tamarzı qala bilərsən

ilahi bir sevginin dadına!
Mənim könül səltənətimdə
zərrəcə izin qalmaya bilər;
Gecələr aya baxıb
ah çəkməyə
üzün qalmaya bilər.
Gözlərin gözlərimin
rəngi üçün
qəribsəyə bilər.
Telefonun telefonumun
zəngi üçün
qəribsəyə bilər…

**26.05.2012**

***

Bu sınaqdan çıxmaq üçün
Kömək olsun sevgi bizə.
Əgər Tanrı istəyirsə,
Zaval yoxdu sevgimizə…

**25.05.2012**

## ETİRAF

İnsan ömrü boyu
axtarar, arayır, seçir…
Çox zaman həqiqəti
dərk etməyin yolu
günahların içindən keçir…
O günahları etiraf elmək də,
dinləmək də çox acıdı.
Ancaq etiraf
xəyanətin sonu,
təmizlənmənin başlanğıcıdı…

Etiraf yoxdusa,
Cəhənnəm odunun
qarşısı alınmaz.
Etiraf yoxdusa,
heç bir dua
qəbul olunmaz…

**27.05.2012**

## YARIMCADA YAĞIŞ

Gör haraya gətirmişəm
Mən dartıb ömür köçümü? –
Ürəyimi əfsunlayıb,
Güllərin rəngi, biçimi…

Yarımcada yağış yağır,
Yuyur çölümü, içimi…
Təmizlənmək məqamıdır,
Toplamışam son gücümü…

Yarımcada yağış yağır,
Meşələr, düzlər sevinir.
Maşının pəncərəsindən
Baxanda gözlər sevinir.

Göylərdən gələn dolunu
Yerə şığıyan ley sandım.
Yarımcada yağış yağır,
Mənim içimdə leysandı…

**27.05.2012**

## HƏSRƏT QIŞI

Həsrət qışı yaman gəldi,
Başladı qar ələməyə.
Zərif sevgi güllərini
Ağ kəfənə bələməyə.
Qəsdin nə bu baxışla, yar?
Dözəmmirəm, bağışla, yar!
Tanrı bizi bağışlayar,
Gedək günah eləməyə…

**09.12.2011**

## KÖNLÜMÜN AHI

Ciyərimdən qopan fəryad
Dərəni, dağı tutacaq.
Qəlbimə dəyən kəsləri
Könlümün ahı tutacaq…

**28.05.2012**

## ƏBƏDİ AYRILIQ

Bu nə fırtınadı qopdu sinəmdən? –
Ayıra bildinmi xalisi, qəlpi?
Cavab verməyəndə zənglərinə mən,
Az qalıb dayana sevdalı qəlbin…

Gizli duyğuların üsyana qalxıb,
Mürgülü vicdanın dil açıb sənin.
Başının üstündə şimşəklər çaxıb,
Ayağın altından yer qaçıb sənin.

Üzün gülsə belə könlün ağlayıb,
Başının üstündə qara buludlar…
Elə ki gözündən sevgi çağlayıb,
Göyərib içimdə saralan otlar.

Ruhunmuş ruhumun əziz həyanı,
Nəfəsin qəlbimə bir kömək imiş…
Cəhənnəm sanıram sənsiz dünyanı, –
Gördün, mənsiz dünya nə demək imiş?!

Məhəbbət məlhəmdi könül dağına,
Sevdalı gözlərin məndədi hələ.
Dözmürsən bir günün ayrılığına,
